DƏRSLİK

# AZƏRBAYCAN DİLİ



*Keçdi xəyalımdan*
*öz gözəl yurdum...*

# 6

DÖVLƏT DİLİ

LAYİHƏ



**HEYDƏR ƏLİYEV**

**AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ**

LAYİHƏ

LAYİHƏ

SAMİRƏ BEKTAŞİ
YEGANƏ ABDULLAYEVA

*Ümumi təhsil müəssisələrinin* **6***-cı sinifləri üçün*

# AZƏRBAYCAN DİLİ

(DÖVLƏT DİLİ)

*fənni üzrə*

## DƏRSLİK

© "Şərq-Qərb" Açıq Səhmdar Cəmiyyəti

Bu nəşrlə bağlı irad və təkliflərinizi
**info@eastwest.az** və **derslik@edu.gov.az**
elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

LAYİHƏ

# Mündəricat



## 1

## Ailədən başlanan yol


**1.** Layihə: Səyahət 8

*Teleqramın hazırlanması* 11

**2.** Dünya içində bir aləm 12

- *Vurğu* 23

**3.** Pərvizin həyatı *(I hissə)* 20

- *Əsas nitq hissələri* 23
- *İsim* 24

**4.** Pərvizin həyatı *(II hissə)* 26

- *Ümumi isimlər* 31

**5.** "Şarların köməyi" 32

*Mətnin tərkib hissələrinin müəyyənləşdirilməsi* 34

- *Xüsusi isimlər* 31

**6.** Mətn 40

Layihənin yekunu 50




## 2

## Vətən yolu


**1.** Daş adamlar 54

*Planlı fəaliyyət* 58

*İzahatın hazırlanması* 60

- *İsimlərin dəyişməsi* 62

**2.** Azərbaycan bayrağı 64

*Ritm və temp* 66

- *Sonu **q** samiti ilə bitən sözlərin yazılışı* 69

**3.** İtirilmiş açar 70

*Fakt. Faktların seçilməsi* 72

**4.** Ataya məktub 78

**5.** Nişan üzüyü 80

- *Sonu **k** samiti ilə bitən sözlərin yazılışı* 86

**6.** Mən nə etdimsə, Vətən üçün etdim 88

*20 Yanvar – tarixi faciə* 93

**7.** Gözün aydın, Azərbaycan! 94

Layihənin yekunu 96


***Şərti işarələr***

*Dinləmə* | *Danışma* | *Oxu* | *Qrammatik tapşırıqlar* | QAYDA *Qrammatik qaydalar* | *Yazı*

LAYİHƏ

# 3

## Mənəvi dünyam


**1.** Baxmaq, görmək və tətbiq etmək... 100

**2.** Nəsihət xəzinəsi 106

**3.** Qızıma məktub 110

- *Sifət* 115

*Essenin yazılması* 116

**4.** Mavi don 118

**5.** Tək hərəkət 122

- *Sifətin əlamət və keyfiyyət bildirməsi* 128

**6.** Fleyta 130

- *Sonu qoşa samitlə bitən təkhecalı sözlərin yazılışı* 134

**7.** Limon ağacı 136

- *Sifətlərin yazılışı* 139

*Novruz Cıdır düzündə* 140

**8.** Üç mirvari 142

Layihənin yekunu 146






# 4

## Zəfər yolu


**1.** Günəşə baxan şəhər 150

- *Say* 155

**2.** Günəşli torpaq 156

**3.** "Danışan" abidələr 158

*Örənqala* 159

- *Sayların yazılışı* 161

**4.** Dahi şəhər 162

*Sxem üzərində iş* 164

**5.** Musiqi konservatoriyası 166

*Dialoq* 70

Lüğət 172

İstifadə olunmuş ədəbiyyat 176





Dərslikdəki **QR kodlara** müraciət edərək mövzu ilə əlaqədar daha çox maraqlı məlumat əldə edə bilərsiniz.

LAYİHƏ

# AİLƏDƏN BAŞLANAN YOL

*Bu tədris ilində sizi maraqlı layihələr gözləyir. Layihələri hazırlamaq üçün məqsədlər müəyyənləşdirəcək, maraqlı səyahətlər edəcək, araşdırmalar aparacağıq.*



*Mən Nəzrinəm.*



*Mən Banuyam.*



*Mən Cəsuram.*

*Sizi maraqlı səyahətlər gözləyir!*



*Mən Şenliyəm.*



*Mən Suliyəm.*



*Mən Nurlanam.*

LAYİHƏ

1. Layihə: Səyahət
2. Dünya içində bir aləm
3–4. Pərvizin həyatı
5. “Şarların köməyi”
6. Mətn

# LAYİHƏ

# 1 Layihə: Səyahət






**Əziz dostlar!**
**Gəminin yelkənlərində sual işarələri vardır.**

Sizcə, yelkənlərdə niyə sual işarələri qoyulmuşdur?

İlkin təxminlərinizi bildirin.

Sual işarələri sizə nə “demək istəyir”?



LAYİHƏ

**Təsəvvür edin ki, gözəl, yelkənli bir gəmiyə maliksiniz. Həmin gəmidən hansı məqsədlərlə istifadə edərdiniz?**



- Səyahət edərsinizsə, bu səyahət kəşf, yoxsa səfər məqsədi daşıyar?
- Səyahətə haradan başlayıb, onu harada bitirərdiniz?
- Planlaşdırdığınız səyahətdə sizə nələr lazım ola bilər?
- Həmin səyahətin planını hazırlayın.
- Təklif edirik ki, səyahətə ailənizdən başlayasınız.



**Sual işarələrinin yerində nə yazıldığını bilmək üçün:**

- Mətnləri öyrəndikcə açar sözlər və ifadələr seçin.
- Açar sözlər və ifadələrdən cümlələr düzəldin.
- Hər bir mətndən çıxan əsas fikrə diqqət yetirin.
- Hər bir bölmənin sonunda öyrənəcəyiniz fikirlər açar cümlələr olacaq.

**Əziz dostlar! Səyahət və kəşflər etməkdən çəkinməyin!**



Məşhur səyyah Xristofor Kolumb dənizdə gördüyü adi bir saman çöpü ilə böyük qitədən xəbər vermişdi.



İzembard Brunel kiçik bir gəmi qurdunun taxtanı gəmirərək tunel açdığını və bu tunelin divarlarını necə cilaladığını görmüşdü. Məhz bu, mühəndis İ.Brunelin Temza tunelini salmasına ilham vermişdi.



LAYİHƏ

... nömrəli məktəbin 6-cı sinif şagirdlərinə qəribə məzmunda teleqram gəlir. Teleqramda yalnız bu sözlər yazılmışdı:

# ZİRVƏDƏ GÖRÜŞƏNƏDƏK!

Şagirdlər bu kağız parçasının nə olduğunu və yazının məzmununu başa düşmürlər. Kömək üçün müəllimə müraciət edirlər.

- ✓ *Sizcə, müəllim onlara nə deyəcək?*
- ✓ *Teleqramda "gizlənən" fikri onlara necə izah edəcək?*
- ✓ *Teleqramın məzmununu açmaq üçün onlara hansı "ipucları"nı verəcək?*



***Teleqramın nə olduğunu bilirsinizmi?***

***Teleqram** yunanca tele (uzaq) və qram-ma (yazı) sözlərinin birləşməsindən əmələ gəlib, **uzağa köçürmək** mənasını bildirir.*





Teleqram vasitəsilə istənilən məlumatı uzaq məsafəyə təcili şəkildə çatdırmaq mümkündür. Onun, əsasən, iki növü vardır:

- Hadisə haqqında məlumat vermək və ya almaq üçün hazırlanmış teleqram
- Pul köçürmək üçün istifadə olunan teleqram *(Burada pulun miqdarı göstərilir).*



LAYİHƏ

# TELEQRAMIN HAZIRLANMASI

## Teleqramın yazılmasına verilən tələblər

**ADDIM 1.** Teleqramın məzmunu yığcam, aydın, mənalı və başadüşülən yazılmalıdır.

**ADDIM 2.** Mətndə ikimənalı, təhrif olunmuş sözlər olmamalıdır *(Məsələn; həyat yerinə həyət, sənət yerinə sənəd yazılmamalıdır).*

**ADDIM 3.** Teleqramda rəqəmlər, adətən, hərflə yazılmalıdır.

**ADDIM 4.** Məlumat göndəriləcək şəxsin adı, ünvanı dəqiq və düzgün olmalıdır.




*Nümunə:*

**TELEQRAM**

Şahbazlı Lətifə
Bakı şəhəri, Mikayıl Müşfiq 54,
blok 3, mənzil 5




**Teleqram**

- ✓ *Evdə deyil, poçtda müvafiq şəxslər tərəfindən hazırlanır.*
- ✓ *Bəzən dövlətlər arasında xüsusi teleqram formasından istifadə edilir. Həmin teleqramı dövlət başçısı imzalayır.*

*Sizcə, müasir dövrdə teleqrama ehtiyac varmı? Fikirlərinizi nümunələrlə əsaslandırın.*

LAYİHƏ

# 2 Dünya içində bir aləm

HEYDƏR ƏLİYEV

“*Azərbaycan xalqının milli ənənələrindən biri də ondan ibarətdir ki, uşağa diqqət, qayğı hər bir ailənin, hər bir insanın əsas vəzifəsi, mənəviyyatımızın əsas hissəsi olubdur.*”

Göy rəngdə verilmiş sözlər bir, yoxsa iki “y” ilə yazılmalıdır?

**Düzgün tələffüzü deyin.**

| | |
|---|---|
| ailə | [ ... ] |
| müəssisə | [ ... ] |
| müəllim | [ ... ] |
| sual | [ ... ] |

## I HİSSƏ



*Uşağın* şəxsi...ət kimi formalaşmasında *ailə* çox böyük rol *oynayır*. Bu formalaşma *körpəlikdən* başlayır. Uşağa dəyərlər aşılanır. Ailə möhkəm bir qala, tərbiyə almaq üçün ilk məktəbdir. Qabili...ətlərin təkamülü, sağlam xarakterin yetişdirilməsi ailənin ulduzları olan uşaqlar üçün böyük əhəmi...ət kəsb edir. Ailə həm sevginin, həm də mənəvi söhbətlərin *qalasıdır*. Bu qalanın sevgisini itirənlər insanlığın dəyərini itirər. Dəyərin itdiyi yerdə zülm, haqsızlıq, *ədalətsizlik* olar.

Ailə milli-mənəvi dəyərlərin daşıyıcısıdır. Sağlam ailə sağlam cəmi...ət deməkdir. Ailə təlim-tədris yurdu, ədəb-ərkan məkanı, maraqlı söhbətlərin edildiyi yerdir. Bu cür söhbətlərdən sevgi doğar. Sevgi, məhəbbət olan yerdə sağlam mühit olar, uşaqlar xoşbəxt böyüyər.

Ailə həm də mənəvi bir *məktəbdir*. Onun keşi...ində duran qoruyucu mələk isə anadır. O, körpələrin ilk əvəzsiz müəllimidir. Ana nurlu sözləri, davranışları ilə örnək şəxsiyyətdir. O, evinin günəşidir.

“Ana sevgisi” mətnini dinləyib sualları cavablandırın.

1. Kəndli nə üçün əlini tətikdən çəkdi?
2. Kəndli nə üçün kenquruya mane olmadı?
3. Ana kenquru özü nə üçün su içmədi?

*✓ Ana haqqında fikirlərinizi mətnə əlavə edin.*

LAYİHƏ

## II HİSSƏ

Bu müqəddəs vəzifədə yardımçı olan başqa bir memar da atadır. O, ailəni maddi cəhətdən təmin edir. Ata həm də böyüklüyün simvolu və səadətin təminatçısıdır.



Dinlədiyiniz mətnə əsasən atanın xüsusiyyətlərini müəyyən edin.

✓ *Ata haqqında fikirlərinizi mətnə əlavə edin.*

Valideynlər uşaqların **təbiətini** kəşf edir, kiçik ürəklərindəki arzu və istəklərin hansı istiqamətdə inkişaf etdiyini bilir. Ata, ana öz övladları ilə müxtəlif məsələləri müzakirə edir, ən basit suallarına onların başa düşdüyü şəkildə cavab verirlər. Bu, valideynlərin mənəvi borcudur.

***Valideynlərin vəzifəsi***

- *Gələcəyimizin qurucuları olan uşaqlara milli dəyərlərimizi aşılamaq*
- *Vətənpərvərlik duyğularını aşılamaq, ana dilini sevgi ilə öyrətmək*
- *VƏTƏN və bayrağımıza sevgi öyrətmək, millətə sevgi ruhunda böyütmək*

Uşaqlar gələcəyimizin layiqli qurucuları və ən böyük milli sərvətidir. Onun məktəbəqədərki dövrünün bütün məsuli...ətini ailə daşıyır.



### 15 MAY

*Birləşmiş Millətlər Təşkilatının qərarı ilə bütün dünyada Beynəlxalq Ailə Günü kimi qəbul edilmişdir. Beynəlxalq Ailə Günü BMT-nin Baş Assambleyasının qətnaməsinə müvafiq olaraq 1994-cü ildən qeyd olunur.*

Azərbaycan 2008-ci ildən bu ənənəyə qoşulmuşdur.

LAYİHƏ

**1.** Mətnin (səh. 12) adına münasibət bildirin. Bu adla razısınızmı? Siz hansı adı təklif edərdiniz? Təklif etdiyiniz adın daha maraqlı olmasına çalışın.

**2.** Cədvəli tamamlayın.

| MƏTNDƏ AİLƏ BƏNZƏDİLİR: | BƏNZƏTMƏNİN SƏBƏBİ | SİZİN FİKRİNİZ |
|---|---|---|
| ... | ... | ... |

**3.** Sxem əsasında ailə üzvlərinizə məxsus xüsusiyyətləri göstərin. Hansı xüsusiyyətlər üst-üstə düşdü?




**4.** Sxem əsasında danışın.



**AİLƏ**

- Mətnə əsasən
- Mənim nəzərimdə

*✓ Mətndə razılaşmadığınız fikirlər varmı? Niyə?*

**5.** Mətnə əsasən demək olar:

1. Ailə hər bir üzvünün qarşısında tələblər qoyur.
2. Ailədə uşaqların mövqeyini nəzərə almaq lazımdır.
3. Ailə mənəvi dəyərlərin daşıyıcısıdır.
4. Ailəni məktəbə bənzətmək olar.
5. Ailə təhlükəsizliyi təmin edir.

*✓ Fikirlərinizi əsaslandırın.*

LAYİHƏ

6. Birinci abzasdan *inkişaf* sözünə mənaca yaxın olan sözü seçin. Bunun üçün:

- ✓ *İlk növbədə, inkişaf sözünün leksik mənasını müəyyən edin.*
- ✓ *Sonra həmin sözün sinonimini seçin.*

7. Mətndə (səh. 12–13) altından xətt çəkilmiş sözləri yaxınmənalı sözlərlə əvəz edin.

8. Mətndə (səh. 13) tünd şriftlə verilmiş sözün ifadə etdiyi ilkin mənanı müəyyən edin. Bu söz mətndə hansı mənada işlənmişdir?

9. Hansı cümlədə *qala* sözünün ifadə etdiyi məna mətndəkinə uyğun gəlir?

a) Necə gəldi, harada gəldi, tonqal qalamaq olmaz.

b) Uzaq keçmişin yadigarı olan qalalar xalqımızın tarixini, mədəniyyətini öyrənmək baxımından qiymətli mənbədir.

c) Mənim evim mənim qalamdır.

ç) XII əsrdə, 1187–1188-ci illərdə Şirvanşah I Axsitan tərəfindən ucaldılmış Mərdəkan qalası Abşeronun ən qədim qalalarından biri və ən hündür donjonudur.



*Digər qalalardan fərqli olaraq, donjonlar əsas qala ilə əlaqəsi olmayan divarlarla əhatə olunur, yəni qala içində qala var.*

✓ *Mərdəkan qalası haqqında yığcam təqdimat hazırlayın.*

QANUN

AZƏRBAYCAN RESPUBLİKASININ

## TƏHSİL QANUNU

***Maddə 34. Valideynlərin və ya digər qanuni nümayəndələrin hüquq və vəzifələri***

34.1. Valideynlərin və ya digər qanuni nümayəndələrin təhsil sahəsində **hüquqları** aşağıdakılardır:

*34.1.1. yetkinlik yaşına çatmayan övladları (qəyyumluğunda və ya himayəsində olan şəxslər) üçün təlim-tərbiyə müəssisəsini seçmək;*

*34.1.2. təhsil prosesinin təşkili, tədrisin keyfiyyəti, övladlarının (qəyyumluğunda və ya himayəsində olan şəxslərin) dərsə davamiyyəti, təhsilə marağı və davranışı haqqında məlumat almaq;*

*34.1.3. təhsilalanların hüquqlarını müdafiə etmək, təhsil müəssisəsinin idarə olunmasında iştirak etmək;*

*34.1.4. təhsil müəssisəsi ilə əməkdaşlıq etmək, tədris prosesinin təkmilləşdirilməsi və maddi-texniki bazasının yaxşılaşdırılması üçün təkliflər irəli sürmək və könüllü yardımlar etmək;*

34.2. Valideynlərin və ya digər qanuni nümayəndələrin təhsil sahəsində **vəzifələri** aşağıdakılardır:

*34.2.1. övladlarının (qəyyumluğunda və ya himayəsində olan şəxslərin) erkən yaşlarından fiziki, əxlaqi və intellektual inkişafına şərait yaratmaq, onların icbari ümumi orta təhsil almasının təmin olunması və mənəvi yetkinliyi üçün məsuliyyət daşımaq;*

*34.2.2. övladlarını (qəyyumluğunda və ya himayəsində olan şəxsləri) humanistlik, vətənpərvərlik, azərbaycançılıq, əməksevərlik, öz dilinə, ədəbiyyatına və tarixinə, milli-mənəvi və ümumbəşəri dəyərlərə hörmət ruhunda tərbiyə etmək.*

✓ *Təhsil Qanununda yazılmış hansı maddələr mətndəki (səh. 12–13) fikirlərlə səsləşir?*

LAYİHƏ

## Araşdırma

Yəqin ki, artıq ailə haqqında müəyyən təsəvvürləriniz formalaşdı. Ailə üzvlərinin ailənin qorunub saxlanmasında, ailə dəyərlərinin formalaşmasında rolunu müəyyən edə bildiniz.

- Bəs ailədə öz yerinizi müəyyən etdinizmi?
- Ailənin formalaşmasında öz rolunuzun nədən ibarət olduğunu bildinizmi?
- Ailədə vəzifə və hüquqlarınızı müəyyən edə bildinizmi?

*Elə isə bunları bilmək və dəqiqləşdirmək üçün fəaliyyətə başlayaq.*

## Sorğu üçün suallara nümunə:



*1. Məni nə üçün sevirsiniz? Mənim doğulmağım sizin həyatınızda nəyi dəyişdi?*

*2. Mən yanınızda olmayanda hansı hissləri keçirirsiniz?*



*3. Dostlarımı evə dəvət etsəm, nə deyərsiniz?*

*4. Mənə vəd etdiyinizi həmişə yerinə yetirirsinizmi? Niyə?*



*5. Səhv etdiyiniz zaman məndən üzr istəyə bilərsiniz?*

*6. Səhv etdiyim zaman ifadələrdən hansını işlətmək daha yaxşıdır?*
- *Mən sənə demişdim.*
- *Səni dəfələrlə xəbərdar etmişdim.*
- *Bir dəfə məndə də belə olmuşdu.*



*7. Səsli oxuduğum yazıya (şeir, hekayə və s.) axıra qədər qulaq asa bilərsinizmi?*

*8. Yaxşı insan olmağım üçün nə etməliyəm?*

*9. Mənim ailədəki rolum nədir?*

LAYİHƏ

Cavabları ümumiləşdirin və özünüz üçün **NƏTİCƏ** çıxarın.

1-2-ci suallar sizə olan sevgini göstərir.

3-4-cü suallar ailədə sizə olan etimadı göstərir.

5-7-ci suallar ailədə sizə olan münasibəti göstərir.

8-9-cu suallar sizə ailədə vəzifə və hüquqlarınızı, rolunuzu xatırladır.



Bu nəticəyə gəldim ki, valideynlərimiz ailədə təhlükəsiz yaşamağımızı, •••, •••, ••• . Valideynlərim məni •••. Çünki mən •••. Atam məni *(mənə)* •••. Anam məni *(mənə)* •••. Deməli, mənim diqqət yetirdiyim *(yetirmədiyim)* •••.
Mən öyrəndim ki, hər birimizin ailədə görəcəyimiz ••• var. Ailədə vəzifələrimiz, •••. Biz onları •••. Hüquqlarımız ••• .
Sevinirəm ki, •••. Çalışacağam ki, •••.

✓ *Cümlələri tamamlamaqla özünüz haqqında mətn hazırlayın.*

✓ *Mətn tərtib edərkən fərqli cümlələrdən də istifadə edə bilərsiniz.*

LAYİHƏ

**10.** Mətndə (səh. 12) II abzasda işlənmiş mürəkkəb sözləri seçin.

**11.** Mətndə fərqləndirilmiş sözlərdə hansı heca digərlərindən fərqli tələffüz edilir? Niyə belə hesab edirsiniz?

## QAYDA

Sözdə hecalardan birinin digərinə nisbətən qüvvətli tələffüz edilməsinə ***vurğu*** deyilir.

Yazıda vurğunu göstərmək üçün ( / ) işarəsindən istifadə olunur.

*Məsələn:*
dəftə́r, óçerk, texnológiya, qurucú, müstəqillík, qabiliyyə́t, áncaq və s.

Vurğu şifahi nitqdə sözlərin düzgün səslənməsini tənzimləyir.

**12.** Mətndə (səh. 13) yaşıl rəngdə verilmiş cümlədəki sözlərdə vurğunun neçənci hecaya düşdüyünü deyin.

**13.** Vurğusu müxtəlif hecalara düşən bir neçə söz yazmaqla sxemi tamamlayın.

| Vurğusu 1-ci hecaya düşən sözlər | Vurğusu 2-ci hecaya düşən sözlər | Vurğusu 3-cü hecaya düşən sözlər |
|---|---|---|
| *kósmos* | *dostlúq* | *məktəblí* |
| ... | ... | ... |

✓ *Sözləri "Dünya içində bir aləm" mətnindən də seçə bilərsiniz.*

**14.** Mətndə altından xətt çəkilmiş sözlərin vurğusunu müəyyən edin.

Sağlam ailə sağlam cəmiyyət deməkdir. Sağlam ailə dedikdə ailənin hər bir üzvünün bərabər səviyyədə tutulması başa düşülür. Ailənin üzvləri bir-birini dəstəkləyir. Hər bir ailə üzvü ailənin bütövlüyü üçün məsuliyyət daşıyır. Ailənin bütün üzvləri birgə istirahət edir və həyatdan həzz alır. Ailədə inam, etibar, düzgünlük və adət-ənənə əsas yer tutur. Ailədə hər kəs bir-birinə hörmət edir və onu olduğu kimi qəbul edir. Ailənin hər bir üzvünün hisslərinə, düşüncələrinə hörmətlə yanaşılır, fikirləri qəbul edilir və lazım olanda tənqid edilir.

*Virjiniya Satir*

✓ *Tənqid nədir?*



LAYİHƏ

15. Yəqin ki, ailədaxili səyahəti bəyəndiniz. Elə isə təəssüratlarınız əsasında “Mənim ailəm” mövzusunda şəkilli təqdimat (*inşa, dialoq*) hazırlayın.

**Təqdimat**
*(inşa) hazırlamaq üçün:*

- Plan hazırlayın.
- Plana uyğun mətn yazın.
- Təqdimatınıza fotoşəkillər əlavə edin.
- Tərtibatın səliqəli olmasına diqqət yetirin.
- Cümlələri düzgün qurun.



*Mənim adım Lətifədir.*

*Mənim adım Yusifdir.*



*Ailənin ilk (ikinci, üçüncü) övladıyam. Ailəmiz dörd nəfərdən ibarətdir: atam, anam, bacım (qardaşım) və mən.*

*Ailəmizin özünəməxsus qayda-qanunları vardır. Atam evimizin böyüyüdür. Bu qaydalar onun tərəfindən müəyyən edilir. Ailədə qaydalara riayət etmək hamının borcudur. Atam işdən nə qədər yorğun gəlsə də, mütləq mənim və bacım Fatimənin dərsləri ilə, məktəbdəki fəaliyyətimizlə, gündəlik qayğılarımızla maraqlanır. Həftə sonları biz ailəlikcə gəzməyə gedirik. Atam bizə Azərbaycanın tarixi, ədəbiyyatı, mədəniyyəti və s. ilə yanaşı, ədəb və ictimai yerlərdə özünü aparmaq qaydaları barədə maraqlı söhbətlər edir.*

*Anam evdar qadındır. Dadlı yeməklər bişirir, evin səliqə-sahmanına diqqət yetirir. Bizə də səliqəli, əşyalarımıza qarşı diqqətli olmağı, böyüklərə və kiçiklərə hörmətlə yanaşmağı öyrədir. Dərslərimizlə o məşğul olur.*

*Mən və bacım dərslərimizə ciddi yanaşır, yaxşı oxuyur, biliklər əldə etməyə çalışırıq. Ev işlərində anamıza kömək edirik. Asudə vaxtlarımızda maraqlı kitablar oxuyur, televizora baxırıq. Oxuduğumuz kitablarla bağlı ailədə maraqlı müzakirələr təşkil edirik.*

*Ailəmiz mehribandır.*

LAYİHƏ

# 3 Pərvizin həyatı *(ixtisarla)*

## I HİSSƏ



**1** Məktəbdə də, evdə də mənim işlərim yaxşı gedirdi. Məktəbdə müəllimlər, evdə atam-anam da məndən razı idi. Dərslərimi vaxtlı-vaxtında hazırlayır, cücələrimə yaxşı baxır, valideynlərimin tapşırıqlarını yerinə yetirirdim.

**2** Adım Pərvizdir. Mənim atam qazmaçıdır. O, neft mədənlərində işləyir. Axşamlar boş olanda mənə neftdən maraqlı söhbətlər edir. Öz sənətini sevdiyi üçün neft, ondan alınan məhsullar, faydaları barədə elə ürəkdən danışır ki!

**3** Doğrudur, bəzən başım futbol oynamağa elə qarışırdı ki, vaxtında evə gəlmirdim. Anam belə vaxtlarda məni yüngülcə danlayır, mən də özümü yığışdırıb dərslərimi mütləq hazırlayırdım. Mənim nəzərimdə hazırlıqsız dərsə getmək bağışlanmaz günah idi. Dərsə hazırlıqsız gələn uşaqları anlaya bilmirdim.

*Abzasların yerini elə dəyişin ki, ardıcıllıq bərpa olunsun.*

Ancaq tərgidə bilmədiyim bir adətim var idi. Dərslərimi hazırlayandan sonra dəftər-kitabımı çantama yığmır, stolun üstündə qoyurdum. Səhər məktəbə gedəndə tələsik onları çantama yığır, bəzən bir kitab və dəftərin əvəzinə, başqasını aparırdım. Anam dəfələrlə mənə deyirdi:

— Paltarlarını axşamdan hazırla, məktəbə aparacağın dərs ləvazimatlarını axşamdan çantana yığ ki, səhər axtarmalı olmayasan. Səliqənə diqqət yetir.

*Mətndə təsvir edilənləri "Dünya içində bir aləm" mətni ilə əlaqələndirin. Hansı oxşarlığı gördünüz?*

...Amma bir dəfə elə hadisə baş verdi ki, mən onu uzun zaman unuda bilmədim.

Çimnaz müəllim bizə əzbərləmək üçün şeir vermişdi. Qərara almışdıq ki, onu əzbərləməmiş bir şagird qalmasın. Hesab dərsində də bizə evə tapşırıq vermişdi və ciddi şəkildə tapşırmışdı: "Gərək elə edəsiniz ki, sinifdə aşağı qiymət alan bir nəfər də şagird olmasın".

Dərsdən sonra çantalarımızı götürüb həyətə çıxdıq. Fikrim müəllimin verdiyi tapşırıqların yanında olduğundan evə tez getmək istəyirdim.

Həyət qapısından çıxanda Səfa məni səslədi:



LAYİHƏ




Bu abzas hansı obrazın sözündən sonra yerləşdirilsə, ardıcıllıq pozulmaz?

Bu təklif məni həvəsləndirdi. Çünki bu gün hava çox gözəl idi. Nə gilavar əsirdi, nə xəzri. Mart ayında belə günəşli və sakit hava çox az-az olurdu.

*Uşaqlar danışdıqca mən həm onlara qulaq asır, həm düşünürdüm ki, gedim, ya getməyim? Yadıma düşdü ki, hələ şeiri də əzbərləmək lazımdır. Bir yandan hesab məsələləri, bir yandan atamın mənə bağışladığı cücələr... Qərara aldım ki, balıq tutmaq, dəniz sahilində o yan-bu yana qaçıb oynamaq nə qədər xoş olsa da, getməyəcəyəm. Uşaqlar mənim cavabımı gözləyirdi.*

İstədim, onlara qoşulub gedəm. **Hiss edirdim ki, getməsəm, inciyəcəklər. Lakin "eqoist" sözünü eşidəndə fikrimi dəyişdim.** Öz-özümə dedim ki, getsəm, elə biləcəklər, zəifəm, xaraktersiz adamam. Bundan sonra yerli-yersiz hücumları ilə məni özlərinə tabe etmək istəyəcəklər. Ona görə də getmədim, Səfanı da fikrindən döndərməyə çalışdım:

— Dəniz, balıq həmişə var. Dərslərimiz isə çoxdur. Müəllim sabah tapşırıqları yoxlayacaq.

Heç nə olmaz  Gec qayıtsaq, gəlib səndən köçürərəm
*Mən sənə köçürməyə dəftər verməyəcəyəm*
Vermirsən, vermə  Çox lazımdır, – deyib Səfa uşaqlarla balıq ovuna getdi.

LAYİHƏ



*Mətn üzərində iş aparaq. Ailə və məktəbin inkişafımızda rolunu müəyyən edək.*

1. Pərvizin təsvirlərinə əsasən onun valideynlərinin xüsusiyyətlərini sadalayın.

2. Mətndəki (səh. 20) hansı cümlə Çimnaz müəllimin tələbkar olduğunu təsdiq edir?

3. Sxem əsasında danışın.




4. Mətnə əsasən “Pərviz dostlarının nəzərində” mövzusunda danışın. Onların fikirlərinə münasibətinizi bildirin. Dostların fikirləri ilə razısınızmı?




✓ *Siz Pərviz haqqında nə düşünürsünüz?*

5. Mətndə hansı suala cavab yoxdur?

A) Uşaqlar nə üçün dəniz kənarına getmək istəyirlər?
B) Çimnaz müəllim əzbərləmək üçün hansı şeiri vermişdi?
C) Səfanın Pərvizi eqoist adlandırmasının səbəbi nə idi?
D) Anası nə üçün Pərvizi məzəmmət edir?
E) Pərviz nə üçün yoldaşlarına tabe olmur?



LAYİHƏ

6. Mətn (səh. 20–21) üçün açar sözlər seçin və seçiminizi əsaslandırın.

7. Mətndən götürülmüş sözlərin mənasını deyin və cümlədə işlədin.

| | | |
|---|---|---|
| razı salmaq | ... | ... |
| fikrindən döndərmək | ... | ... |
| baş vermək | əmələ gəlmək, meydana gəlmək | *Son günlər çox əlamətdar hadisələr baş verirdi.* |

8. *Köçürmək* sözünü mətndəkindən fərqli mənada işlədin.

9. Uyğunluğu müəyyənləşdirin.

GİLAVAR

XƏZRİ

Azərbaycanda daha çox Abşeron yarımadası üçün səciyyəvi olan isti və quru küləkdir. Əsasən, yay aylarında əsir.

Abşeron yarımadasında və onun ətraf zonasında əsən güclü şimal küləyidir. Bu külək havanı kəskin dəyişdirir, qışda havanı soyudur, yayda havanı xeyli sərinlədir.

10. Mətndə (səh. 20–21) qırmızı rəngdə verilmiş sözlərə sual verin. Onların hansı mənanı ifadə etdiyini deyin.

## QAYDA

Dilimizdə elə sözlər var ki, onlar müxtəlif mənalar ifadə edir və suala cavab verir.

*Məsələn:*

| söz | sözün ifadə etdiyi məna | sualı |
|---|---|---|
| Vətən | *insanın anadan olduğu, soykökü ilə bağlı olduğu yer* | *hara?* |
| səliqəli | *düzgün, nizamlı, səliqəyə salınmış, qaydaya uyğun* | *necə?* |
| gəlmək | *hərəkət edərək bir yerə çatmaq, yetişmək* | *nə etmək?* |

Sözlər qrammatik mənalarına görə ad, əlamət, say, hərəkət və s. bildirir.

Suala cavab verən, müstəqil məna ifadə edən sözlərə **əsas nitq hissələri** deyilir. Əsas nitq hissələri bunlardır: *isim, sifət, say, əvəzlik, feil, zərf.*



LAYİHƏ

**11.** Mətndə (səh. 21) çərçivəyə alınmış hissələrdə durğu işarələrini bərpa edin.

**12.** Mətndə (səh. 21) tünd şriftlə verilmiş cümlələrdəki sözlərdə vurğunun yerini müəyyən edin.

**13.** Mətndən (səh. 20-21) istifadə etməklə cədvəli tamamlayın.

| ad bildirən sözlər | əlamət bildirən sözlər | say bildirən sözlər | hərəkət bildirən sözlər |
|---|---|---|---|
| | | | |
| | | | |

## QAYDA

Ad bildirən sözlər **isim** adlanır. İsimlər *kim?, nə?, hara?* suallarından birinə cavab olur. İsimlər tək və cəm, ümumi və xüsusi olur.

Cəm isimlər *-lar²* şəkilçisi vasitəsilə əmələ gəlir. Bu şəkilçi sözün sonuna artırılır. Sözün kökündə incə saitlər olarsa, *-lər*; sözün kökündə qalın saitlər olarsa, *-lar* şəkilçisindən istifadə olunur. Sözdə həm incə, həm qalın saitlər olarsa, şəkilçi son hecadakı saitə uyğun yazılır.

*-lar²* şəkilçisi vurğulu olur.

*Məsələn:*

| tək isimlər | cəm isimlər |
|---|---|
| qəzet | qəzetlər |
| oğlan | oğlanlár |
| kitab | kitablár |
| sait | saitlər |

**14.** Mətndə (səh. 21) fərqləndirilmiş hissədə tək və cəm isimləri seçib yazın.

**15.** Mötərizədə verilmiş sözlərin tək və cəmdə olmasını müəyyən edib cümlələri tamamlayın.

1. Xalqımıza məxsus müqəddəs (dəyər) var. Bu (dəyər) hətta (and) yerinə də çevrilmişdir (*T.Əmiraslanov*). 2. Arxeoloji (qazıntı) əsasında əldə edilmiş (məlumat) göstərir ki, Azərbaycan (ərazi) (əkinçilik) neolit dövründən təşəkkül tapmışdır. 3. Hər (uşaq) fərqli (xarakter) malikdir. 4. "Oxu! Ancaq oxuduğun ayağını (yer), (baş) yüksəkliyə, qəlbini ülviyyətə bağlasın".

**16.** Verilmiş sözlərə uyğun cəm şəkilçilərini müəyyən edin.

a. adət
b. hesab
c. fikir

-lar

-lər

ç. balıq
d. adam
e. dəniz

LAYİHƏ

17. Aşağıdakı cümlələri tamamlayın.




PƏRVİZİN YERİNDƏ OLSAYDIM,

HƏSƏNİN YERİNDƏ OLSAYDIM,

SƏFANIN YERİNDƏ OLSAYDIM,

HÜSEYNİN YERİNDƏ OLSAYDIM,

18. “Dostlarımla dərsdən sonra” mövzusunda dialoq qurun. Dialoq vasitəsilə hansı fikri çatdırmaq istərdiniz?

## Plan:

*Dialoqda aşağıdakı məlumatların verilməsinə diqqət yetirin:*

1. *Özünüz haqqında*
2. *Dostlarınız haqqında*
3. *Oxuduğunuz məktəb və sinif*
4. *Maraqlarınız və məşğuliyyətiniz*
5. *Dərsdən sonrakı vaxtlarda gördüyünüz işlər*
6. *Gəldiyiniz nəticə*

## İstiqamət:

*Dialoqun təqdimi zamanı:*

1. *İntonasiyaya diqqət yetirin.*
2. *Sözləri düzgün tələffüz edin.*
3. *Sözlərin vurğusuna diqqət yetirin.*
4. *Tək və cəm sözlərdən istifadə edin.*
5. *Sualları düzgün verin.*
6. *Sualları düzgün cavablandırın.*

✓ *Dialoqu yazılı şəkildə də hazırlaya bilərsiniz.*

✓ *Dialoqda durğu işarələrinin düzgün işlənməsinə diqqət yetirin.*

LAYİHƏ

# 4 Pərvizin həyatı *(ixtisarla)*

## II HİSSƏ



**1.** Mətni oxuyarkən mötərizədə verilmiş sözlərdən uyğun olanını seçin.

Mən evimizə *(gəldim, getdim)*. Cücələrimi yemlədim, sularını təzələdim. Anamın *(göstərişi ilə, tapşırığı ilə)* evə çörək aldım. Sonra oturub dərslərimi hazırlamağa başladım.

Səhər məktəbin dəhlizində Fatma məni qarşıladı:

– Tapşırıqları yerinə yetirmisən? Şeiri *(öyrənmisən, əzbərləmisən?)*

– Əlbəttə.

– Mən də hazırlamışam. Amma Səfagil deyir ki, gərək Çimnaz müəllimə deyək ki, bu gün heç kəs ev *(tapşırığını, işini)* etməyib.

*Sizcə, hadisələr necə davam edəcək?*

- Mənim təxminim.
- Müəllimin oxusundan sonra cavabım.

*Direktor dərsin sonunda sinfə gəldi:*

*– Bu, mümkün olan şey deyil! Necə olur ki, iyirmi beş uşaqdan bir nəfər şüurlusu tapılmır? Yəqin, əvvəlcədən yığışıb söz qoymusunuz. Bu nə deməkdir? Bu o deməkdir ki, siz öz borcunuzu unutmusunuz, gələcəyinizi düşünmürsünüz, müəllimlərinizin, ata-ananızın zəhmətini yerə vurursunuz, yəni xalqın əməyini yerə vurursunuz. Axı bu məktəb xalqındır, siz də xalqın balalarısınız!*

QANUN

AZƏRBAYCAN RESPUBLİKASININ
**TƏHSİL QANUNU**

✓ *Verilmiş maddələrə əsasən şagirdlərin Qanunun hansı maddəsini pozduqlarını müəyyən edin.*

32.5. Təhsilalanların **vəzifələri** aşağıdakılardır:

32.5.1. dövlət təhsil standartlarına uyğun bilik, bacarıq və vərdişlərə yiyələnmək;

32.5.2. pedaqoji işçilərin şərəf və ləyaqətinə hörmətlə yanaşmaq;

32.5.3. təhsil müəssisəsinin nizamnaməsinin tələblərinə riayət etmək;

32.5.4. dövlət, cəmiyyət, ailə və özü qarşısında məsuliyyətini dərk etmək;

32.5.5. təhsil sahəsində qanunvericiliyin tələblərinə, etik normalara və təlim-tərbiyə prosesi ilə bağlı qaydalara əməl etmək;

32.5.6. qanunvericilikdə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

LAYİHƏ

*Direktor bu sözləri kimə deyir? "Siz öz borcunuzu unutmusunuz" deyərkən o nəyi nəzərdə tuturdu?*

Söhbət onunla qurtardı ki, sabah bütün valideynlər məktəbə yığışmalıdır. İlk dəfə idi ki, başıma belə bir iş gəlirdi! Fikir məni aparmışdı. Bilmirdim, bu hadisəni ata-anama necə deyim? Ümumiyyətlə, deyimmi?

*Sizcə, Pərviz əhvalatı ata-anasına bildirəcəkmi?*

**... Anam məktəbə üzügülər gəlmişdi, oradan qanı-qara çıxdı.** Onun üçün bu hadisə gözlənilməz idi. Bugünkü iclasda yaxşı oxuyan uşaqlar barədə daha çox danışmışdılar.

... Çox istəyərdim ki, atam bu əhvalatdan xəbər tutmasın. Anam isə heç nəyi gizlin saxlamaz, xüsusən atamdan gizlin heç nə ola bilməzdi.

Anam məktəbdən gələn kimi mənə dedi:

– Axı o gün sən dərslərini elədin, Pərviz. Mən həmişə sənə fikir verirəm: nə etdinsə, hamısını görürəm! Soruşmuram deyə, elə bilmə ki, gözüm bağlıdır, baxmıram! Baxıram və hamısını görürəm! Sən o gün dərsini etmişdin! Bu nə işdir? Dəftərini mənə göstər!

Yaxşı ki, dəftərim Səfada qalmışdı, yoxsa biabır olacaqdım.

Günah nə pis imiş! Sən çalışırsan, onun izini itirəsən, gizlədəsən, o bir az da böyüyür, gözə soxulur!



*Sizin bu fikrə münasibətiniz necədir?*

- Pərviz düzgünmü fikirləşir?
- Sizin nəzərinizdə günah nədir?

*Mirzə İbrahimov*



Bu məsələnin üstü dərs ilinin sonunda açılır. Çimnaz müəllim təsadüfi bir hadisənin nəticəsində əhvalatdan xəbər tutur, yəni şagirdlərin çoxunun şeiri əzbərləməsini və məsələləri həll etdiklərini öyrənir. Şagirdlər səhvlərini boyunlarına alırlar. Səfa, Hüseyn və Həsən bu işi təşkil etdiklərini etiraf edirlər.

*Sizcə, Pərvizin hansı xüsusiyyəti əhvalatın açılmasına səbəb olur? Mətndən istifadə etməklə səbəbi tapın.*

LAYİHƏ

Dinlədiyiniz mətn əsasında sualları cavablandırın.



**1** Pərviz nə üçün Səfa ilə dostluğa üstünlük verirdi?
1. Səfa ürəyiaçıq oğlan idi.
2. Səfa şuluqçu idi.
3. Səfa etdiyini boynuna almağı bacarırdı.
4. Səfa yaxşı oxuyurdu.
5. Səfa xaraktercə möhkəm idi.

**2** Səfa nə üçün Pərvizgilə daha çox gəlirdi? •••

**3** Hər iki oğlanın davranışlarına münasibət bildirin.
Səfa obrazını bəyəndim *(bəyənmədim)*, çünki •••
Pərviz obrazını bəyəndim *(bəyənmədim)*, çünki •••

**4** Səfa nə üçün həmin gün Pərvizgilə getməkdən imtina etdi?
A) Xarakterini möhkəmlətmək üçün sözünün üstündə durdu.
B) Pərvizi dərsdən yayındırmaq istədiyi üçün onun valideynlərindən utanırdı.
C) Anasına evə tez gələcəyini söz vermişdi.
D) Uşaqlarla futbol oynamağa söz vermişdi.

**5** *Adam hər həvəsləndiyi şeyi etməz. Gərək baxasan, nə vacibdir, birinci onu edəsən. Bəs ağıl adama nə üçün verilib?* sözlərini kim kimə deyir?
1. Səfa Pərvizə 2. Pərviz Səfaya 3. Həsən Pərviz və Səfaya

**6** Pərviz nə üçün Səfaya güzəştə gedir? •••

**7** Necə bilirsiniz, Səfa pis hərəkətlərini tərgidə biləcəkmi?

**2.** Mətnə əsasən Pərviz, Fatma və Səfanı xarakterizə edin.

| Obrazlar | Müsbət cəhətləri | Mənfi cəhətləri |
|---|---|---|
| **1.** Pərviz | | |
| **2.** Fatma | | |
| **3.** Səfa | | |

✓ *Fikirlərinizi mətndən istifadə etməklə əsaslandırın.*

✓ *Gəldiyim nəticə* •••



LAYİHƏ



**8** Sxemdən istifadə etməklə Pərviz və Səfaya məxsus xüsusiyyətləri qruplaşdırın.

1 xaraktercə zəif
2 çalışqan
3 özünə inanan
4 ürəyiaçıq
5 tələbkar
6 nəsihətçi
7 qayğıkeş
8 nadinc
9 xaraktercə möhkəm
10 əsl dost
11 dostsevər
12 sözünə sadiq
13 səmimi
14 mehriban



Pərviz ______________ Səfa ______________

**9** Atalar sözlərindən hansı mətnin məzmununa uyğundur?

A) Dostsuz insan qanadsız quş kimidir.
B) Dost dosta yaman gündə gərəkdir.
C) Yaxşı dostu yaman gündə sına.
D) Dost dostun eybini üzə söylər.

**10** Sözlərin vurğusuna diqqət yetirməklə uyğunluğu müəyyənləşdirin:

| | |
|---|---|
| 1. xaraktér | a. *insanın hərəkət və davranışlarında olan xüsusiyyətlər* |
| 2. xarákter | b. *səciyyəvi xüsusiyyət* |

**3.** Verilmiş xüsusiyyətlərə əsasən mətndən uyğun obrazı müəyyən edin.




✓ *Sizcə, əsərdə daha hansı obraz bu xüsusiyyətlərə malikdir? Mətndən götürülmüş nümunələrlə fikirlərinizi əsaslandırın.*

✓ *Əsərdən istədiyiniz obrazı seçib özünüz də belə sxemlər yaradın.*

LAYİHƏ

**4.** Sxem əsasında danışın.




✓ *Fikirlərinizi həyatınızda baş vermiş hər hansı bir hadisə ilə sübut etməyə çalışın.*

**5.** Mətnə əsasən ailə və məktəb münasibətlərinin düzgün qurulmasının əhəmiyyəti barədə danışın.




**6.** Mətndən (səh. 26–27) səbəb-nəticə əlaqələrini (6–8) tapın.

| Mətndəki hadisələr | | |
|---|---|---|
| **Səbəb** | **Nəticə** | **Mənim münasibətim** |
| Pərvizin futbola başının qarışması | evə gec gəlməsi və danlanması | Evə gec gəlmək olmaz, hər işi vaxtında görmək lazımdır. *(Sizin cavabınız fərqli ola bilər)* |
| ... | ... | ... |

**7.** *Borc* sözünü mətndəkindən fərqli mənada cümlədə işlədin.

**8.** *İstehza* sözünün leksik mənası aşağıdakılardan hansına uyğun gəlir?

1. ikiüzlülük
2. ələ salma
3. özbaşınalıq
4. daxili həyəcan

**9.** Mətndə (səh. 27) tünd şriftlə verilmiş cümlədə əksmənalı sözləri müəyyənləşdirin. Əksmənalı sözlərin işləndiyi bir neçə cümlə qurun.

LAYİHƏ

**10.** Mətndə (səh. 26) fərqləndirilmiş hissədən ad bildirən sözləri seçib aşağıdakı cədvələ uyğun qruplaşdırın.

| *Ad bildirən sözlər* | *Tək* | *Cəm* |
|---|---|---|
| direktor | ✓ | |
| ... | ... | ... |

✓ *Seçdiyiniz sözlər nə üçün kiçik hərflə yazılmışdır?*

## QAYDA

Ad bildirən sözlər *(isimlər)* ümumi və xüsusi olur. **Ümumi isimlər** eynicinsli varlıqların adlarını bildirir.

*Məsələn*:

*müəllim, qız, şagird, məktəb, sinif, əşya, jurnal, çay, qaya, dağ və s.*

Ümumi isimlər, adətən, kiçik hərflə yazılır. Cümlənin əvvəlində işləndikdə böyük hərflə yazılır. *Məsələn:*

1. İnsanın tərbiyə almasında ailənin rolu böyükdür.
2. Ailə müqəddəs tərbiyə ocağıdır.

**11.** Pərvizə məktub yazın, fikirlərinizi onunla bölüşün.



## Plan:

- *Məktubun necə yazıldığını yadınıza salın.*
- *Pərvizin davranış və hərəkətlərinə münasibətinizi bildirin.*
- *Onun hansı fikirləri ilə həmrəy olduğunuzu bildirin.*
- *Məktubunuzda məktəb və müəllimlərinizə münasibətinizi bildirin.*
- *Məktubunuzu yekunlaşdırın.*

*Məktubu yazdıqdan sonra yoxlayın:*

✓ *Fikirlərinizi ifadə edə bilmişsinizmi?*
✓ *Məktubunuzda cümlələr əlaqələnibmi?*
✓ *Sözləri düzgün yazmışsınızmı?*
✓ *Məktubunuzda tək, cəm, yoxsa ümumi isimlərdən daha çox istifadə etmişsiniz?*

*Pərvizə teleqram vursa idiniz, ona nə yazardınız?*



LAYİHƏ

# 5 "Şarların köməyi"

**NİZAMİ GƏNCƏVİ**

*"Dünyada xoşbəxtdir yalnız o kəslər*
*Ki, öz çörəyini dostlarla yeyər."*

**Hansı söz səhv yazılmışdır?**

3-cü abzasın 1-ci cümləsində
4-cü abzasın 1-ci cümləsində
5-ci abzasın 1-ci cümləsində

**Düzgün tələffüzü deyin.**

| | |
|---|---|
| müddət | [ ... ] |
| məhəbbət | [ ... ] |

✓ *Epiqrafdakı hikməti izah edin.*

**Oxudan əvvəl mülahizələrim**

- Sizcə, mətndə nədən danışılacaq?

Şarların "köməyi" nə ola bilər?

Səbinə müəllim sinfə çoxlu şar gətirmişdi. Şarları uşaqlara payladı. Səidə tez soruşdu:

– Müəllim, biz bunlarla nə edəcəyik?

Müəllim onun sözünə cavab vermədən şarları uşaqlara payladı, onların üsdünə öz adlarını yazmalarını xahiş etdi. Sonra İnayəti, Elşadı və Fatehi yanına çağırdı, uşaqların köməyi ilə həmin şarları dəhlizə çıxardıb onları qarışdırdı.

Səbinə müəllim uşaqlara öz adları yazılmış şarları tapmağ üçün beş dəqiqə vaxt verdi. Uşaqlar şarları tapmağa cəhd etsələr də, onlarda heç nə alınmadı. Verilmiş müddət bitdi.




LAYİHƏ

Müəllim başka üsula əl atdı. Şagirdlərə yanlarında olan şarları götürməyi və üstündəki adın sahibinə verməyi təklif etdi. Yenə beş dəqiqə vaxt verdi. Heç iki dəqiqə çəkməmiş şagirdlər tapşırığı yerinə yetirdilər. Hər şagird üstündə öz adı yazılmış şarı əldə etdi.

Müəllim şagirdlərə sual verdi:

– Niyə siz tapşırığı ikinci dəfə daha rahat  yerinə yetirdiniz?

Şagirdlər müxtəlif cavablar verdilər. Müəllim onları dinləyib dedi:

– Uşaqlar, ...

✓ *Pazlların ardıcıllığını düzməklə müəllimin dediyi sözləri müəyyənləşdirin.*

Əgər xoşbəxt olmaq istəyirsinizsə, **1**

İnsan təkbaşına heç vaxt **2**

**5** Onda xoşbəxtliyi tez tapar,

bir-birinizlə əməkdaşlıq edin. **4**

**3** uğura nail olarsınız.

xoşbəxtliyə nail ola bilməz. **6**

bir-birinizə qayğı və məhəbbətlə yanaşın, **7**

**Oxudan sonra mülahizələrim**

Fikirlərinizdə nə dəyişiklik oldu?

**1.** Müəllimin sualına siz necə cavab verərdiniz? Müəllimin söylədiyi fikirlə razısınızmı? Siz bu hadisədən hansı nəticəni çıxardınız? Öz fikirlərinizlə müəllimin fikirlərini müqayisə edin.

**2.** Mətnin adına münasibət bildirin. Bu adla razısınızmı? Ad məzmunu əks etdirirmi? Siz hansı adı təklif edərdiniz?

**3.** Sizcə, müəllimin söylədikləri mətn üçün əsas fikir ola bilərmi?

**4.** Mətnin giriş, əsas və nəticə hissələrini müəyyən edin. 34–35-ci səhifədəki nümunədən istifadə edin.



LAYİHƏ

Mətnin giriş, əsas və nəticə hissələrini müəyyənləşdirmək üçün YADDAŞ

*Mətnin adı*

# Ən nəcib və xeyirxah insan

Giriş hissə

Qədim zamanlarda bir şah ölkənin ən nəcib və xeyirxah insanını tapıb onu mükafatlandırmaq istəyir. Onun göstərişi ilə vəzirlər həmin şəxsi tapmaq üçün gecə-gündüz axtarışa başlayırlar.

Bir müddət sonra siyahını şaha təqdim edirlər. Siyahıda on şəxsin adı var idi. Baş vəzir siyahıdakı adamlar haqqında şaha məlumat verir.

Əsas hissə

Siyahıdakılardan biri xeyriyyə işləri ilə məşğul olan şəxs, biri xəstələrə təmənnasız xidmət göstərən həkim, biri hüquq məsələləri ilə məşğul olan şəxs idi. Digəri insanları barışdırmaq, onlar arasındakı mübahisəli məsələləri həll etməklə məşğul olurdu. Bir sözlə, siyahıdakı insanların hamısı xeyirxah işlərlə məşğul olurdu.

Növbə siyahıdakı onuncu adama çatdı. O, qoca müəllim idi. Evdən çıxa bilmirdi. Xeyli yaşlanmışdı. Vaxtının çoxunu kitab oxumaqla keçirirdi. Saraydakıların ümumi rəyinə görə, ölkənin ən nəcib və xeyirxah insanı adına layiq olan bu qoca idi.

Padşahı maraq bürüdü. O, təəccüblə baş vəzirdən soruşdu:

– Axı onun başqalarından fərqi nədir? Niyə ölkənin ən nəcib və xeyirxah adamı məhz bu qoca olmalıdır?

Vəzir ehtiramla dedi:

Nəticə

– Şah sağ olsun. Siyahıdakı doqquz adamın etdiklərini eşitdiniz. Biz bu adamlarla da söhbət etdik. Məlum oldu ki, bu doqquz adama dərs deyən, onları həyata hazırlayan bu müdrik müəllim imiş. Onlar həyatda qazandıqları uğura görə məhz bu müəllimə minnətdar olduqlarını bildirdilər. Biz də qərara gəldik ki, ölkənin ən nəcib və xeyirxah insanı adına layiq olan məhz bu qoca müəllimdir.

*✓ Mətnin hissələrini müəyyən etmək üçün, ilk növbədə, onu diqqətlə oxumaq lazımdır.*



LAYİHƏ

✓ Sizcə, şah necə hərəkət edəcək?

✓ Vəzirin dedikləri ilə razılaşacaq, yoxsa başqa seçim edəcəkdir?

**Cavabınızı mətndən istifadə etməklə əsaslandırın.**



Giriş hissə → Hər hansı bir hadisə haqqında ümumi məlumat verilir.

↓

Şahın göstərişi əsasında ölkənin ən nəcib və xeyirxah insanının müəyyənləşdirilməsi, vəzirlərin bu istiqamətdə axtarışı

Əsas hissə → Hər hansı bir hadisə şərh edilir.

↓

Vəzirlərin ölkənin ən nəcib və xeyirxah insanının müəyyənləşdirilməsi üçün səfərə çıxması, on şəxsi müəyyənləşdirməsi, şaha ətraflı məlumat verilməsi və fikirlərin əsaslandırılması, seçilmiş şəxsin kimliyi haqqında məlumat

Nəticə → Fikir ümumiləşdirilir və yekunlaşdırılır.

↓

Siyahıdakı onuncu adamla bağlı şaha ətraflı məlumat verilməsi və fikirlərin əsaslandırılması.

## Müzakirə

Əgər siyahı tərtib etsə idiniz, birinci kimin adını yazardınız? Sinfinizdə (məktəbdə, ailədə, yaşadığınız yerdə) kimi ən nəcib və xeyirxah adam hesab edirsiniz? Niyə?

LAYİHƏ

**5.** Mətnin (səh. 32-33) epiqrafı ilə məzmununu əlaqələndirin.

**6.** Mətn əsasında doğru və yanlış fikirləri qruplaşdırın.

1. Müəllim şagirdlərə ibrət dərsi verir.
2. Müəllim şagirdlərin adlarını şarların üstünə yazıb onlara paylayır.
3. Şagirdlər müəllimin tapşırığının mahiyyətini dərhal başa düşürlər.
4. Uğur birgəfəaliyyətin nəticəsidir.
5. Şagirdlər müəllimin tapşırığını dərhal icra edirlər.

doğru: ________________ yanlış: _____________________

**7.** “Şarların köməyi” və “Pərvizin həyatı” əsərlərindəki müəllim obrazlarını müqayisə edin.

**8.** Sxem əsasında danışın.




**9.** Uyğunluğu müəyyənləşdirin.

| | |
|---|---|
| qayğı | ürəkdən bağlılıq |
| xoşbəxtlik | birinin rifahı üçün göstərilən diqqət |
| məhəbbət | həyatından son dərəcə razılıq, sevinc hissləri |

**10.** Bunlardan biri mətndə (səh. 32) qırmızı rəngdə verilmiş sözün izahıdır:

- sıxılmaq, bezmək, narahat olmaq;
- bir işi yerinə yetirmək, əldə etmək üçün ciddi çalışmaq, səy göstərmək;
- özünü darıxdırmaq, sıxılmaq.



LAYİHƏ

**11.** Nümunə əsasında sxemləri tamamlayın.




✓ *Sxemdəki sözləri cümlədə işlədin.*

**12.** Aşağıdakı cümlədə hansı sözlərdə vurğu düzgün qoyulmamışdır?

Ońda xoşbəxtliyí tez tápar, uğúra náil olarsínız.

**13.** Mətndə (səh. 32) göy hərflə verilmiş sözlərin nə üçün böyük hərflə yazıldığını izah edin.

## QAYDA

Xüsusi isimlər tək olması ilə fərqlənən sözlərdir. Cümlədəki yerindən asılı olmayaraq belə sözlər böyük hərflə yazılır.

Xüsusi isimlərə aşağıdakılar daxildir:

1. İnsan adları, soyadları: *Nigar, Uğur, Elşad, Abdullayev, Məmmədli* və s.
2. Ölkə, respublika, şəhər, kənd, qəsəbə adları: *Azərbaycan, Bakı, Gəncə, Mingəçevir, Qala, Mərdəkan* və s.
3. Astronomik adlar: *Mars, Venera, Günəş, Ay* və s.
4. Heyvanlara verilən adlar: *Toplan, Məstan, Qırat, Mərcan* və s.
5. Qəzet və jurnallara verilən adlar: *"İşıq", "Azərbaycan", "Füyuzat"* və s.
6. Restoran, kafe və s. verilən adlar: *"Çinar", "Şuşa", "Çənlibel"* və s.

Qəzet, jurnal, restoran, kafe, opera, balet, əsər və s. verilən adlar dırnaq içərisində yazılır.

*Məsələn:*

*"Ulduz" jurnalı, "Aygün" poeması, "Koroğlu" operası və s.*

Dırnaq işarəsi ilə yazılan xüsusi isimlərə şəkilçi artırıldıqda şəkilçi dırnaqdan sonra qoyulur.

*Məsələn:*

*"Koroğlu"ya baxdım.*

LAYİHƏ

**14.** Cümlələrdə xüsusi isimləri seçin. Onların yazılışına diqqət yetirin.

1. Azərbaycan dövləti demokratik, hüquqi, dünyəvi, unitar respublikadır.
2. Azərbaycanda 10 milyona yaxın **azərbaycanlı** yaşayır.
3. Sonanın sözü Mərdanın yadına bir çox şeyləri saldı. *(M.C.Paşayev)*
4. Üzeyir Hacıbəylinin 1907-ci ildə yazdığı "Leyli və Məcnun" operası ilk milli Azərbaycan operasıdır.
5. Min Qazaxda köhlən ata,
   Yalmanına yata-yata,
   At qan-tərə bata-bata
   Göy yaylaqlar belinə qalx,
   Kəpəz dağdan Göygölə bax. *(S.Vurğun)*

✓ *Azərbaycanlı sözü nə üçün kiçik hərflə yazılır?*

**15.** Cümlələrdə xüsusi və ümumi isimlərin yazılışı ilə bağlı səhvləri müəyyən edin. Onları seçib cədvəldə göstərildiyi kimi düzgün yazın.

1. "Xudafərin körpüsü" romanında Şah İsmayıl xətainin uşaqlıq və gənclik illəri, hakimiyyət uğrundakı mübarizəsi qələmə alınıb. 2. Mənə elə gəldi ki, ömründə bir dəfə də olsa, azad belə məsələlər haqqında düşünməmişdir (*M.İbrahimov*). 3. Biz Azərbaycan üfüqlərində işıqli bir Günəş doğduğunu hiss edirdik (*M.İbrahimov*). 4. İndiki sumqayıt şəhərinin yerində qədimdə Azərbaycanlılardan ibarət tayfa yaşayırmış (*"Sumqayıt" əfsanəsindən*). 5.Üzeyir Hacıbəylinin "koroğlu" Uvertürası 1937-ci ildə Dövlət mükafatına layiq görülmüşdür.

| Səhvdir | Düzgündür |
|---|---|
| xətai | Xətai |
| ... | ... |

**16.** Göy rəngdə verilmiş sözlərin böyük və kiçik hərflə düzgün yazıldığını əsaslandırın.

Güllər pianonun qapağını qaldırıb, orta barmağı ilə dillərdən birinə toxundu *(İ.Əfəndiyev)*. Axı bu güllər ən incə naxışlarına, ən mürəkkəb boyalarına qədər rəssama tanış idi *(İ.Əfəndiyev)*. Gələn bahar təpədə sarı tikanlı boz qanqallar bitdi *(İ.Əfəndiyev)*. Diqqətlə baxdıqda Bahar aşırımda bir sürü ceyran gördü *(M.Cəlal)*. Planet sisteminin işıq və istilik verən göy cismi Günəş kürə şəklindədir. Muğan günəşi adamı yandırırdı. Dəniz anasının üzünə baxıb xoş təbəssümlə gülümsədi. Qızmar Günəş altında "xumarlanan" dəniz onun şüalarını özündə əks etdirirdi.

✓ *Özünüz də belə nümunələr yaradın.*



LAYİHƏ

17. Məktəb mühitini səyahətə çıxmaq sizin üçün öyrədici oldumu? Nə kəşf etdiniz? Aşağıdakı mövzulardan birini seçməklə inşa (təqdimat da hazırlaya bilərsiniz) yazın.

1. *“Məktəbin mənim həyatımda rolu”*

3. *“Mən və müəllimlərim”*



2. *“Mənim məktəbin həyatında rolum”*

4. *“Xoşbəxtlik nədir?”*

*İnşa yazmaq üçün*

**İstiqamət:**

*İnşa üçün 15–20 cümlə kifayətdir.*

- Mövzu üçün açar sözlər müəyyən edin.
- Seçdiyiniz mövzuya uyğun açar sözlərdən istifadə etməklə bir neçə söz birləşməsi yaradın.
- Mövzu ilə bağlı söz və söz birləşmələrini cümlədə işlədin.
- Cümlələrdən abzaslar yaradın.
- Cümlələr arasında əlaqənin olmasına diqqət yetirin.
- Fikirlərinizin sadə və anlaşıqlı olmasına çalışın.

**Təlimat:**

1. Yazınızda atalar sözlərindən, tanınmış şəxslərin müdrik fikirlərindən epiqraf kimi istifadə edə bilərsiniz.
2. Seçdiyiniz epiqrafa münasibət bildirin.
3. Yazınızı başlamaq üçün mövzu ilə bağlı suallar hazırlayın. *Məsələn:* “Mən məktəbdə nə qazanmışam?”, “Mənim üçün müəllim kimdir?”, “Xoşbəxt olmaq üçün nə etmək lazımdır?” və s.
4. Hazırladığınız suallara cavab axtarın, onları yazılı şəkildə təqdim edin.
5. Fikirlərinizi həyatınızda baş vermiş hər hansı bir hadisə ilə təsdiqləyin.
6. Yekun fikir.

LAYİHƏ

# 6 ...

1. Verilmiş suallar ətrafında müzakirə aparın.

Bu hərəkətin şahidi kim *(kimlər)* olub?

Həyatda hansısa yanlış bir hərəkətə yol vermişsinizmi?

Sizi bu yanlış hərəkətdən necə çəkindirmişlər?

Sizi bu yanlış hərəkətdən kim çəkindirmişdir?

***Əziz dostlar! Sizi maraqlı bir müzakirəyə dəvət edirik.***

Siz yanlış hərəkətinizdən hansı nəticəni çıxarmışsınız?

Tez-tez səhv edirsiniz?

Siz kimisə yanlış bir hərəkətdən çəkindirmişsinizmi?



LAYİHƏ

Dinlədiyiniz mətn əsasında sualları cavablandırın.

*Mən sizə böyük Azərbaycan şairi Hüseyn Cavidlə bağlı maraqlı bir mətn danışacağam.*

1 Mətni adlandırın.

2 Mətnə əsasən sxemi tamamlayın.

| Tərbiyələndirici obraz | Tərbiyələnən obraz | Təsdiqləyici cümlə |
|---|---|---|
| ... | ... | ... |

3 Öz səhvini başa düşməyə oğlana nə kömək edir?

1. Cavidin onu selin ağzından alması
2. Cavidin Arifə verdiyi cavab

4 Mətnə əsasən Cavidin xüsusiyyətlərini sadalayın.

Cavid

5 Fikirlərdən biri mətnin məzmununa uyğundur:

a. Səhv insanlara ağıl öyrədir.
b. İnsan yalnız bilmədiyi şeydən qorxur, bilik isə hər cür qorxuya qalib gəlir.
c. Heç kəslə ədəbsiz danışma ki, sən.
Axırda utanıb üzr istəyəsən... *(Nizami)*
d. Bilməməkdən qorxma, səhv etməkdən qorx! Çünki bütün fəlakətlər ondan baş verir.

6 Mətndə hansı suala cavab yoxdur?

A) Cavid nə üçün heyvanların qorunmasını vacib hesab edirdi?
B) Oğlan nə üçün hərəkətindən peşman oldu?
C) Uşaqlar nə üçün yorulmuşdular?
D) Arif Cavidə nə dedi?

7 Mətnə aid 2 sual yazın.

1. ••• 2.•••

8 Aşağıda verilənlər mətnin hansı hissəsinə aiddir?

a. Selin daşması
b. Cavidin Arifə sərt cavab verməsi
c. Uçaqların boş vaxtlarını çay kənarında keçirməsi
giriş ••• əsas ••• nəticə •••

9 Şəkil mətnin hansı hissəsinə uyğundur?

giriş ••• əsas ••• nəticə •••



10 Mətndə hansı fəsildən söhbət gedir? •••

LAYİHƏ

Hansı düzdür?

| |
|---|
| *[oyunlar] – [oyunnar]* |
| *[zorla] – [zornan]* |

2-ci cümlədə *uşaq* sözünün sonunda mötərizədə verilmiş hərflərdən hansı yazılmalıdır?

Yazın qızğın günləri idi. Biz uşa(q,ğ,x)lar vaxtımızın çoxunu meyvə bağlarında keçirərdik. Gah yetişmiş meyvələri dərib yeyər, gah yuvalardan quş balalarını götürüb onlarla oynardıq. Hərdən də ana quşları tutardıq. Tamam bu pis hərəkətləri tərgitməyimiz üçün həmişə səy göstərərdi. Pis hərəkətlər etməyək deyə bizə cürbəcür oyunlar öyrədərdi.

Heç unutmaram. Bir gün bibimgilə getmişdim.



✓ *Şəklə əsasən bir neçə cümlə yazıb mətnə əlavə edin. Cümlələrarası əlaqəni gözləyin.*

Daha bibimə görünməyib evimizə qayıtdım. Həyətimizdə Tamama rast gəldim.

– Bibin sənə nə verdi? – deyə Tamam soruşdu.

– Heç nə, – deyə cavab verdim.

– Yalan söyləyirsən. Bibin səni çox istəyir. Yəqin, yenə də ciblərini konfetlə doldurub. Bax onun üçün də əllərini cibindən çıxarmırsan. Heç qorxma, zorla almayacağam. İstəsən, verərsən, istəməzsən, yox. Ancaq sözlərinin yalan olduğunu bu gün mənə sübut etdin, – deyə Tamam məni utandırdı.

Mən, həqiqətən, Tamamı çox istəyirdim və heç bir şeyi ondan əsirgəməzdim. Bunu özü də bilirdi. Lakin bu sözlərdən məqsədinin nə olduğunu anlamadım. Əlimi sol cibimdən çıxardıb dedim:



LAYİHƏ

– Özün bax. Gör cibimdə nəsə varmı?

– O biri əlini cibindən çıxart, konfet oradadır, – deyə Tamam dedi.

Əlacsız qalıb cibimdəki alacəhrəni çıxartdım, ona göstərdim və quşu necə tutduğumu söylədim.



– Mən bunu bilirdim. İndi mən sənə o anasız qalmış balaların halından bir neçə kəlmə söyləyəcəyəm. Qəlbin yanarsa, balaca quşcuğazlara yazığın gələrsə, analarını buraxarsan.

Tamam anasız qalmış quşcuğazların halını elə təsvir etdi ki, mən ixtiyarsız ovcumu açdım, quşcuğaz da şad bir səslə uçub getdi.

Tamam mənim gözlərimdəki yaşı görüb, "bundan sonra bir daha quşlara əziyyət verməyəcəyəm" sözlərini eşidib məni qucaqlayıb öpdü. Bundan sonra mən bu pis adəti tərk etdim.

*Süleyman Sani Axundov*

✓ *Dinləmə və oxu mətnlərini məzmun baxımından əlaqələndirin. Müqayisə nəticəsində hansı nəticəyə gəldiniz*

❯ Alacəhrə haqqında məlumatı oxuyun.



Alacəhrə sərçələr fəsiləsinə aiddir. O, kolluqlarda yaşayır. Xırda cücülərlə qidalanır. Azərbaycan Milli Elmlər Akademiyası Azərbaycan Ornitoloji Cəmiyyəti ilə birgə 20-dən çox quş növünün adının dəyişdirilməsi ilə bağlı ümumi rəyə gəlmişdir. Dəyişdirilən quş adlarından biri alacəhrə olmuşdur. Alacəhrə quşu alaçöhrə ("ala" qırmızı, "çöhrə" üz deməkdir) adlandırılmışdır.

Alaçöhrələrin müxtəlif növləri vardır.

*Ornitoloq –*
*quşları öyrənən mütəxəssis*

*Ornitologiya –*
*quşları öyrənən elm sahəsidir.*

LAYİHƏ

**2.** Mətni adlandırın. Seçiminizi əsaslandırın.

**3.** Mətnin tərkib hissələrini müəyyənləşdirin. Həmin hissələrdə nədən danışıldığını 1–2 cümlə ilə deyin.

giriş → ... əsas → ... sonluq → ...

**4.** Hadisələrin ardıcıllığı hansı cərgədə pozulmuşdur?

A) Uşaqların pis hərəkətləri tərgitməsi üçün Tamamın onlara oyun öyrətməsi
B) Oğlanın alacəhrəni yuvadan götürməsi
C) Oğlanın bibisigilə getməsi
D) Tamamın oğlana ibrət dərsi verməsi
E) Oğlanın quşları bir daha incitməyəcəyi ilə bağlı söz verməsi

**5.** Sizcə, nə üçün oğlan bibisinin gözünə görünmür?

**6.** Tamam nə üçün uşaqlara quşları incitməməyi tövsiyə edir?

**7.** Necə düşünürsünüz, ətrafdakıların sizə münasibəti nədən asılıdır? Yaxşı münasibət görmək üçün siz ətrafdakılarla necə rəftar etməlisiniz?

**8.** Sxemi tamamlayın.

*Mətndə problem*
...

*Problemi həll edən*
...

*Problemin həlli yolu*
...

*Sizin münasibətiniz*

**9.** Mətndəki əsas fikri müəyyənləşdirin.

**10.** Hikmətli fikirlərdən hansı mətnin ideyasına uyğundur?

A) Yaxşılıq etməyə gücün çatmırsa, pislik etmə. *(Aristotel)*
B) Qorxu adama yalan söylədər. *(Atalar sözü)*
C) Pislik etməkdən peşman olmağın ən yaxşı yolu yaxşılıq etməkdir. *(K.Brentano)*
D) Yalançının evi yandı, heç kəs ona inanmadı. *(Atalar sözü)*

✓ *Hikmətli fikirlərə münasibət bildirin.*

**11.** Mətndən səbəb-nəticə əlaqələrini *(əsas hadisələrlə bağlı)* müəyyən edin.

| Səbəb | Nəticə |
|---|---|
| *uşaqların cələ qurması* | *ana quşların ovlanması* |
| ... | ... |



LAYİHƏ

**12.** Yaxşı və pis hərəkətləri qruplaşdırın, fikirlərinizi izah edin.

| Sizin fikrinizcə | |
| --- | --- |
| yaxşı hərəkət | pis hərəkət |
| *sədaqət* | *vəfasızlıq* |
| ... | ... |

✓ *Xüsusiyyətlərdən hansı mətndə vardır?*

**13.** Birini seçməklə "Cəmiyyət nədir?" sualını cavablandırın. Seçdiyiniz cavabı izah edin və cəmiyyətdə öz yerinizi müəyyən edin.

✓ Minlərlə insanların bir yerə toplaşması
✓ Bir-biri ilə ünsiyyətdə olan insanlardan ibarət qrup

**14.** Verilmiş sözlərin qarşılığını mətndən tapın.

| | |
| --- | --- |
| yaddan çıxarmaq | ... |
| səy göstərmək | ... |
| gözünə sataşmaq | ... |

**15.** Mətndə altından xətt çəkilmiş sözləri yaxınmənalı sözlərlə əvəz edin.

**16.** *Hörmət*, *özünəhörmət* və *qarşılıqlı hörmət* ifadələrinin mənasını izah edin.




LAYİHƏ

**17.** Mətndə göy rəngdə verilmiş sözlərin vurğusunu deyin.

**18.** Verilmiş sözlərdən istifadə etməklə cümlələri tamamlayın.

Bu, ... ot bitkisidir. Gövdəsi 20 sm ... . Bir iri təpə ... var. ... boz-göyümtül rəngdədir. Çiçəklənməsi ... ayındadır. Kökümsov və ... vasitəsilə çoxalır. Quru, daşlı-çınqıllı ... və yovşanlı yarımsəhralarda ... . Dekorativ ... .

Bu gözəl bitkinin adı ... . O, ... yayılmışdır.

*Çoxillik, hündürlük, çiçək, yarpaqlar, iyun, toxum, yamaclar, bitmək, bitki, qəşəng süsən, Naxçıvan*



## Araşdırma

*Araşdırma üçün mövzuları təqdim edirik.*



Azərbaycanda quşlar



Quşların əhəmiyyəti nədir?
Onları nə üçün qorumaq lazımdır?



Quşları qorumaq üçün nə etmək lazımdır?



İstiqamət 1. Qruplara bölünün. Araşdırma mövzusunu seçin.

İstiqamət 2. Mövzu ilə bağlı məlumat toplayın.

İstiqamət 3. Topladığınız məlumatlardan sizə lazım olanları seçin.

İstiqamət 4. Şəkilli təqdimat hazırlayın.

Mətnlər və araşdırmam əsasında bu nəticəyə gəldim ki, ...



LAYİHƏ

**Müzakirə:** *“Təbiəti qorumaq Vətəni qorumaq deməkdir” fikri ilə razısınızmı?*

## Maraqlı rubrika

- *Seçim əsasında “Dekorativ quşlar”, “Qeyri-adi quşlar” və s. mövzularda inşa yaza və ya şəkilli təqdimat hazırlaya bilərsiniz.*
- *“Ən.... Ən... Ən...” başlıqlı rubrikada quşların həyatı ilə bağlı maraqlı faktları toplayıb qruplaşdıra bilərsiniz.*



Ən uca səs – *hind tovuzquşusuna* məxsusdur.

Onun səsi 1 km-lik məsafədən aydın eşidilir.





Ən iri quş (suda üzə bilən) – *imperator pinqvinidir.*

*Sizcə, “Ən...” başlığı altında topladığınız quşların təbiətə, ətraf mühitə faydası nədir?*

LAYİHƏ

19. Verilmiş sözlərdən istifadə etməklə 60-70 sözdən ibarət kiçik mətn qurun.

Mən, hörmət, birləşdirmək, qayğı, cəmiyyət, insanlar, qurmaq, ünsiyyət, və, tələbat, əlaqə, məqsəd, mübahisə, sevmək, diqqət, üçün, kobudluq, mehribanlıq, hamı, ayrı-seçkilik, özbaşınalıq

*Yazdığınızı adlandırmağı unutmayın.*

- ✓ *Əlavə sözlərdən də istifadə edə bilərsiniz.*
- ✓ *"Ailə cəmiyyətin özəyidir" (R.Taqor) kəlamından epiqraf kimi istifadə edə bilərsiniz.*
- ✓ *Verilmiş plandan istifadə edə bilərsiniz.*

## Plan:

- Cəmiyyət nədir?
- Cəmiyyət nə zaman yaranır?
- Sevgi və hörmət olmasa, nə baş verər?
- Üzərimizə düşəni etməsək, nə baş verər?

*Fikirlərinizi öyrəndiyiniz mətnlər, apardığınız müzakirələr, qarşılaşdığınız, şahidi olduğunuz hadisələrlə təsdiq edə bilərsiniz.*

20. Obrazları saxlamaqla mətnin (səh. 42–43) məzmununu fərqli şəkildə yazın (80-90 söz).

## İstiqamət

*təxminidir, əsas hadisələr fərqli canlılar vasitəsilə təqdim edilə bilər*

1. Təsvir ediləcək hadisəni müəyyən edin.
2. Hadisələrin baş verdiyi zaman və məkanı dəyişin.
3. Obrazlar seçin və onları adlandırın.
4. Hadisələrin ardıcıllığına, fikirlərin dolğunluğuna diqqət yetirin.
5. Cümlələr arasındakı əlaqəni gözləyin.
6. Hekayənizdə cəm və xüsusi isimlərdən istifadə edin.

LAYİHƏ

***1. Sxemə və başlıqlara diqqətlə baxın. İlk anda nə düşündünüz?***

***2. Sxem əsasında aşağıdakı mövzularda danışın.***

**Mənim ailədə yerim (hüquq və vəzifələrim)**

- *Ailəm mənə nə verdi?*

**Mənim sinifdə yerim (hüquq və vəzifələrim)**

- *Sinif mühiti mənə nə verdi?*
- *Müəllimim mənim üçün nə etdi?*
- *Müəllim bizim üçün nə etdi?*

**Mənim məktəbdə yerim (hüquq və vəzifələrim)**

- *Məktəb mənim üçün nə etdi?*
- *Məktəb bizim üçün nə etdi?*

**Mənim cəmiyyətdə yerim (hüquq və vəzifələrim)**

- *Dostlarım, yoldaşlarımla ünsiyyətdən nə qazandım?*
- *Kollektivlə birgəfəaliyyət mənə nə qazandırdı?*
- *Öyrəndiklərimin ailə, məktəb və cəmiyyətə töhfəsi nə oldu?*

***3. Sxemdə faydalı nə oldu?***

***4. Siz nə əlavə edərdiniz?***













LAYİHƏ

# LAYİHƏNİN YEKUNU



Mətnlərlə tanış olduqdan, müzakirələr apardıqdan sonra fikirlərinizi ümumiləşdirin və aşağıdakı plan əsasında danışın.

- *Ailə nədir?*
- *Nə üçün ailə bizə bu qədər əzizdir?*
- *Ailədə formalaşan nədir?*

**Yelkənli gəminin 1-ci yelkənindəki sual işarələrinin yerində nə yazıldığını öyrənmək üçün aşağıdakı tapşırıqları yerinə yetirin.**

4 qrupa bölünün.

- *Verilmiş sual və tapşırıqların cavablarını müəyyənləşdirin.*
- *Müəyyənləşdirdiyiniz sözlərdən istifadə etməklə cümlələr qurun.*
- *Sözləri əlaqələndirmək üçün yeri gəldikcə uyğun şəkilçilərdən istifadə edin.*

## I QRUP

**1.** “Dünya içində bir aləm” mətni üçün açar söz

**2.** “Dünya içində bir aləm” mətnində çərçivəyə alınmış söz

**3.** Nöqtələrin yerində hansı söz yazılmalıdır?

*... cəmiyyəti idarə edir, qoruyur və onun siyasi və ictimai quruluşunu təmin edir.*

*Alınan cümlə:* ______________

## II QRUP

**1.** İnsanın ilk təhsilini aldığı yer:

**2.** Ailədə verilir:

**3.** Şəkildə təsvir olunmuşdur:

*Alınan cümlə:* ______________



LAYİHƏ

## III QRUP

1. "Pərvizin həyatı" mətni üçün açar sözlər
2. Nöqtələrin yerində nə yazılmalıdır?

   *Sağlam ailə sağlam ... deməkdir. (V. Satir)*
3. "Şarların köməyi" mətnində yaşıl rəngdə verilmiş söz
4. Nöqtələrin yerinə verilmiş sözlərdən hansı yazılmalıdır?

   *dost, vətəndaş, sirdaş, qardaş*

   ..! Nə gözəl səslənir bu söz,  
   Yəni – bir Vətənin övladıyıq biz.  
   Anamız eynidir, qardaşıq demək,  
   Mən sənə arxayam, sən mənə kömək. *(B. Vahabzadə)*
5. Cümləni tamamlayın.

   *Qardaşım verilən tapşırıqları vaxtında yerinə ...*

*Alınan cümlə:* ______________

## IV QRUP

1. Ad bildirən sözdür, vurğusu 3-cü hecaya düşür, ümumi isimdir, insanın tərbiyə aldığı ilk yerdir.

2, 5. *Açıq* sözünə əks mənalı olan söz

3. "Şarların köməyi" mətnində çərçivəyə alınmış söz
4. "Dünya içində bir aləm" mətnində bütün hərfləri böyük yazılmış söz
6. *Ola bilməz* sözünün əksi

*Alınan cümlə:* ______________

Abzası tamamlayın.

*Mən səyahətə ailə və məktəbimdən başladım. Özümü tanıdım. Ailəmi tanıdım. Məktəbimi tanıdım. Öyrəndim ki, ... .*



LAYİHƏ

# VƏTƏN YOLU



Haradan başlanır Vətən? Yaşadığın evdənmi, məhəllədənmi, şəhərdənmi? İlk dəfə nəfəs aldığın məkandanmı? Yoxsa ilk dəfə ayaq açıb qədəm qoyduğun torpaqdanmı?

Görəsən, haradandır torpaqda bu qüdrət?

Bir ovuc torpaq da yaraya məlhəm olarmış...

Siz necə düşünürsünüz? Haradan başlanır Vətən?



Bəlkə, elə əcdadlarımızın uyuduğu torpaqdan başlayır Vətən. Bəlkə, ona görə bizə bu qədər əzizdir torpaq. Yoxsa, qapqara bir torpağa bu qədər dəyər verilərdimi?

LAYİHƏ

1. Daş adamlar
2. Azərbaycan bayrağı
3. İtirilmiş açar
4. Ataya məktub
5. Nişan üzüyü
6. Mən nə etdimsə,Vətən üçün etdim
7. Gözün aydın, Azərbaycan!

# LAYİHƏ

# 1 Daş adamlar *(əfsanə, ixtisarla)*

*Müzakirəmiz "insan hüquqları" mövzusundadır.*



İNSAN HÜQUQLARINA NƏ ÜÇÜN ƏMƏL OLUNMALIDIR?

LƏYAQƏTLƏ YAŞAMAQ ÜÇÜN NƏ ETMƏK LAZIMDIR?

İNSAN HÜQUQLARI NƏDİR?

HÜQUQUNUZ POZULARSA, NƏ EDƏRSİNİZ?

LAYİQLİ YAŞAMAQ ÜÇÜN NƏ NƏZƏRDƏ TUTULUR?

İNSAN HÜQUQLARI NƏ ZAMAN POZULUR?

HÜQUQLARI ÖYRƏNMƏYİN NƏ ƏHƏMİYYƏTİ VAR?

Mətndə mötərizədə verilmiş sözlərdən hansının yazılışı düzgündür?

Düzgün tələffüzü deyin.

| |
|---|
| *[yelkənli] – [...]* |
| *[ehtiyatla] – [...]* |
| *[insanlar] – [...]* |

Persey uzaq-uzaq ölkələrə səfər etməyi çox sevirdi. Hansı ölkəyə gedirdisə, evinə həmin yurdu xatırladacaq bu əşya gətirirdi. Əşyaları ayrıca otağa yığırdı. Evi sanki muzey idi.

Bir gün Persey yenə ağ yelkənli gəmisi ilə səyahətə çıxdı. Gəmi qəribə bir adanın sahilinə yan aldı. Ada saysız-hesabsız gözəl heykəllərlə dolu idi.

Adada sakitlik *(hökm, yoxsa hököm)* sürürdü. Bir adam gözə dəymirdi. Persey adanı gəzməyə başladı. Bir evə yaxınlaşıb sahibini səslədi. Qapını döysə də, açan olmadı. Dönüb getmək istəyəndə qapının öz-özünə açıldığını gördü. Ehtiyatla evə girdi. Daş yeməklər dü-

LAYİHƏ

zülmüş süfrədə daş heykəllər əyləşmişdi. Heyrətləndi. Başqa evlərə də baş çəkdi. Hər yerdə onu heykəllər qarşıladı. Adanın heyvanları da heykəldən idi.

Persey sahildə bir qoca ilə rastlaşdı. Bu qədər heykəllərin arasında insana rast gəldiyi üçün həm təəccübləndi, həm də sevindi. Qocadan adanın sirrini xəbər aldı. Sən demə, bu adanın sakinlərini özünü *(heykəltaraş, yoxsa heykəltəraş)* hesab edən Gorğan adlı *(sehrbaz, yoxsa sehirbaz)* daşa döndəribmiş. Tilsimin açılması üçün onun adaya qayıtması mütləq imiş.

Gorğan adamları tilsimləyəndə qoca okeanda, suyun altında gizlənibmiş. Persey Gorğanı tapmağı qərara aldı. Bundan xəbər tutan ən hündür Palma ağacı ona kömək etdi. Budaqlarını yerə əydi. Persey və Qoca budaqlardan möhkəm yapışdı, Palma budaqlarını göyə qaldırdı. Sən demə, Palmanın başından bütün dünyanı görmək olurmuş. Onlar ətrafı seyr etməyə başladılar. Qocanın diqqətini yeddirəngli papaq cəlb etdi. Bu papaq Gorğanın idi. Qoca onu Perseyə nişan verdi.

Persey Qocanın göstərdiyi şəhərə yollandı. Onu tapdı. Şirin dilə tutub adaya gətirdi. Gorğan ayağını gəmidən torpağa basan kimi tilsim açılmağa başladı. İnsanlar ...

*Əfsanə ƏLİYEVA*

*Sizcə, insanlar nə edəcəklər?*

✓ *Əfsanəni 2-3 cümlə ilə tamamlayın.*



LAYİHƏ

**1.** Mətnin tərkib hissələrini aşağıdakı sxem əsasında müəyyən edin.




**2.** Persey nə üçün tanımadığı yerin insanlarına kömək edir? Bu onun hansı xüsusiyyətindən irəli gəlirdi?

**3.** Perseyin hansı hərəkətləri onun digər xalqlara hörmətlə yanaşmasını sübut edir?

**4.** Sxem əsasında Perseylə Qocaya aid oxşar və fərqli cəhətləri mətndən istifadə etməklə təsdiq edin.






**TƏSƏVVÜR EDİN Kİ:**

- Gorğan erməni işğalçılarını təmsil edir.
- Siz isə düşmənə qarşı mübarizə aparan qəhrəmansınız.

LAYİHƏ

## Araşdırma

**5.** Gorğan adada yaşayanların hansı hüquqlarını pozur? Aşağıdakılar içərisindən seçin.

*1. Ana dilindən istifadə hüququ*

*2. Təhlükəsiz yaşamaq hüququ*

*3. Sağlamlığın qorunması hüququ*

*4. Seçki hüququ*

*5. İstirahət hüququ*

*6. Əmək hüququ*

*7. Yaşamaq hüququ*

*8. Təhsil almaq hüququ*

*9. Mənzil hüququ*

*10. Yaradıcılıq azadlığı*

*11. Sağlam ətraf mühitdə yaşamaq hüququ*

*12. Vətəndaşlıq hüququ*

✓ *Seçimlərinizi əsaslandırın.*

✓ *Sizcə, ermənilər işğal altında olan torpaqlarımızda yaşayan azərbaycanlıların hansı hüquqlarını pozmuşdur? Fikrinizi faktlarla əsaslandırın.*

*İşğalçıya qalib gəlmək üçün siz, ilk növbədə, nə etməlisiniz? Yəqin ki, "plan qurmaq lazımdır", deyəcəksiniz.*

*Planlı çalışmaq üçün nə etmək lazımdır?*

- *Bir işi gördükdə nə üçün plan qurmaq lazımdır?*
- *Hansı işləri gördükdə plan qurmaq lazımdır?*
- *Planı hazırlayarkən nəyə daha çox diqqət yetirmək lazımdır?*
- *Planlı fəaliyyət nəyə səbəb olur?*

LAYİHƏ



*Əziz dostlar!*

*Təqdim olunan xəritədə siz düşmənə qalib gəlməli, zirvəyə bayraq sancmalısınız. Bunun üçünsə müxtəlif maneələri keçməlisiniz.*

*Düzgün cavablandırılmış suallar maneələri aradan qaldırmaqda sizə yardımçı olacaqdır.*

LAYİHƏ



*Xəritə əsasında hekayə də tərtib edə bilərsiniz. Mətnin esse, inşa və ya hekayə olacağını özünüz düşünün.*

# İZAHATIN HAZIRLANMASI

***İzahat** ərəb dilindəki “izah” sözündən olub, mənası **açıq, aydın, ətraflı surətdə anlatma** deməkdir.*

Hesab edin ki, məktəbdaxili bir qaydanı pozmuşsunuz. Sizdən qaydanı pozmağınızın səbəbi *(səbəbləri)* haqqında ətraflı məlumat vermək tələb olunur. Yazacağınız bu məlumat **izahat** hesab edilir.

İzahat hər hansı bir məsələyə aydınlıq gətirmək üçün tələb olunur.

İzahat yazılı və şifahi olur. Rəhbər şəxsin tələbindən asılı olaraq izahat müxtəsər və ətraflı yazılır.

**1** İzahatın ünvanlandığı şəxsin vəzifəsi, adı, soyadı göstərilir.

**2** Müraciət edilən şəxsin adı yazılır.

**3** İzahatın sonunda onu yazan şəxsin adı, soyadı, imzası və tarix göstərilir.

**4** İzahat yazan şəxsin adı, soyadı, vəzifəsi göstərilir.

**5** Vərəqin ortasında “İzahat” sözü yazılır.

**6** Məzmun hissəsində baş vermiş hadisənin səbəbi göstərilir.

***Nümunə:***

*__________________ adına*

*_________ nömrəli məktəbin*

*direktoru _________________*

*VI sinif şagirdi _____________*

İZAHAT

*Hörmətli Gülay xanım! (Eyyub müəllim)*

*Yazıb bildirirəm ki, sinif otağındakı pəncərə şüşəsinin sınmasına səbəb ehtiyatsız hərəkət etməyim olmuşdur. Üzrlü hesab etməyinizi xahiş edirəm.*

*İmza: Əliyeva Yeganə*

*Tarix: 20.10.2021-ci il*

LAYİHƏ

**6.** *Ada* və *yarımada* sözlərinin mənasını və yerini düzgün müəyyənləşdirin.

**1. ADA** **2. YARIMADA**







1. ___ 2. ___

? ← AZƏRBAYCANDA → ?

**7.** Uyğunluğu müəyyənləşdirin.



**abidə**



**büst**



**heykəl**

- Heykəltəraş tərəfindən daşdan, tuncdan və s.-dən hazırlanmış insan və ya heyvan surəti
- Tarixi əhəmiyyəti olan bir hadisəyə və ya tarixi bir şəxsə xatirə olaraq ucaldılan tikili, qurğu, oxşadılan fiqur
- İnsan bədəninin beldən yuxarı hissəsinin heykəli

✓ ***Barelyef*** *sözünün izahını lüğətin köməyi ilə müəyyən edin.*

**8.** Məntiqi ardıcıllığı tamamlayın.

*uzaq* → *yaxın* *insan* → *adam* *alt* → ?

*gətirmək* → ? *xəbər* → ? *sakitlik* → ?

✓ *Hansı söz cütlüyü ad bildirir?*

LAYİHƏ

**9.** *k, g* samitlərindən uyğun olanını artırmaqla sözləri köçürün.

rən..., nəhən..., səhən..., ahən..., əhən.., tüfən..., qəşən..., pələn..., çələn...

**10.** Mətndə (səh. 54–55) qırmızı və yaşıl rənglərdə verilmiş sözlərə diqqət yetirin. Nə müşahidə etdiniz? Həmin sözlərin hansı nitq hissəsinə aid olduğunu deyin.

**11.** Mətndə (səh. 54–55) altından xətt çəkilmiş sözləri aşağıdakı hökmlərə uyğun qruplaşdırın. Nümunədən istifadə edin.

*İstiqamət:* ✓ *Sözlərə sual verin.*
✓ *Sözün vəzifəsini müəyyən edin.*

## *Nümunə:*

| SÖZ | SUALI | SÖZÜN VƏZİFƏSİ |
|---|---|---|
| müəllim<br>kompüter<br>Qarabağ | kim?<br>nə?<br>hara? | Əşyanın adını göstərir. |
| qızın *(çantası)*<br>pəncərənin *(şüşəsi)* | kimin?<br>nəyin? | İki əşya arasında aidlik bildirir. |
| oğlana<br>təyyarəyə<br>məktəbə | kimə?<br>nəyə?<br>haraya? | İş və əşyanın istiqamətini göstərir. |
| şairi<br>şeiri<br>muzeyi | kimi?<br>nəyi?<br>haranı? | Üzərində iş icra olunan əşyanı göstərir. |
| atada<br>televizorda<br>küçədə | kimdə?<br>nədə?<br>harada? | İş və əşyanın yerini göstərir. |
| əsgərdən<br>bayraqdan<br>Şuşadan | kimdən?<br>nədən?<br>haradan? | İş və əşyanın başlanğıc yerini göstərir. |

### QAYDA

İsimlər cümlədə digər sözlərlə əlaqəyə girir. Bu əlaqələnmə zamanı müxtəlif şəkilçilər qəbul edərək dəyişir.

dağı seyr etmək,
həyətdə oynamaq,
Şuşanın dağları,
Fatehin kitabı,
filmə baxış,
döyüşdən
qayıtmaq və s.

**12.** İsimlərə uyğun şəkilçilər artırmaqla cümlələri tamamlayın. Həmin şəkilçilərin altından xətt çəkin.

Qədim vaxtlar*(da, də)* Azərbaycan dövlət*(i,ı)* yadellilərə qarşı vuruş*(lar, lər)*, (da,də) zəifləmiş, xanlıqlar(a,ə) parçalanmışdı. Bu isə ölkəni zəiflədirdi.

Quba xan*(ı, i)* Fətəli xan xanlıq*(lar, lər)* arasındakı düşmənçiliy*(ə, a)* son qoymaq istəyirdi. O başa düşürdü ki, xanlıqlar birləşərsə, güclü bir dövlət yaranar.

Fətəli xan 30 il mübarizə apardı. Dərbənd, Bakı, Şirvan, Gəncə və başqa xanlıqlar*(i, ı)* birləşdirərək güclü bir dövlət yaratdı. Bu işdə Fətəli xan*(a, ə)* onun arvad*(i, ı)* Tuti Bikə kömək edir, ağıllı məsləhət*(lar, lər)* verirdi.

✓ *Mətndə altından xətt çəkilmiş sözlərin böyük hərflə yazılmasının səbəbini izah edin.*



LAYİHƏ

13. “Çətin vəziyyətdə ədalətli qərar qəbul etmək” mövzusunda inşa yazın.

- ✓ *Əziz dostlar! Çətin vəziyyətə həyatın müxtəlif sahələrində rast gəlinir. Siz inşa yazarkən qarşınıza çıxan (eşitdiyiniz, oxuduğunuz, gördüyünüz) çətinlikləri təsvir edə bilərsiniz.*
- ✓ *Nümunə kim verilmiş plandan istifadə edin.*
- ✓ *Planı öz təsvirlərinizə uyğun olaraq qura bilərsiniz.*



***Yazıda sözlərin bir-biri ilə əlaqələnməsinə diqqət yetirin.***

## Plan



*“A” ölkəsində zəlzələnin baş verməsi*



*Zəlzələnin yaratdığı problemlər*



*Problemin hər bir insan, ailə və cəmiyyət üçün nəticələri*



*Dövlət tərəfindən görülən tədbirlər*



*“A” ölkəsinə yardım etmək üçün görülən tədbirlər*

?

*Mənim təkliflərim*

## İstiqamət

- Ad, əlamət, say, hərəkət bildirən sözlərdən istifadə
- Cəm isimlərdən istifadə
- Xüsusi isimlərdən istifadə

**İdeya:** *Dövlət tərəfindən lazımi həyat səviyyəsinin təmin edilməsi*

LAYİHƏ

# 2 Azərbaycan bayrağı *(ixtisarla)*

Persey gəzdiyi ölkələri xatırlatmaq üçün oradan bir əşya gətirirdi. Bu ona nə üçün lazım idi?

✓ *Sizcə, dövləti tanıdan nədir? Dövlətin müstəqilliyini sübut edən nədir?*

MEHMET AKİF ƏRSOY

> “*O mənim millətimin ulduzudur, parlayacaq;*
> *O mənimdir, o mənim millətimindir ancaq.*”

✓ *Şeiri cəngi sədaları altında intonasiya ilə oxuyun. Sözlərin tələffüzünə və vurğuya diqqət yetirin.*

Hansı yazılış düzdür?

*əbədiyət, yoxsa əbədiyyət?*

Şənini vəsf etməyə yetər, qüdrətim, yetər.
Ulduzunu, ayını göydə mələklər öpər.
Hər rəngində ya qazi, ya şəhid, bir mən bitər
Sən ey istiqlalımın əbədi...ət sancağı –
Azərbaycan bayrağı!



QANUN

AZƏRBAYCAN RESPUBLİKASININ
**KONSTİTUSİYASI**

*Maddə 23. Azərbaycan dövlətinin rəmzləri*

I. Azərbaycan Respublikasının dövlət rəmzləri Azərbaycan Respublikasının Dövlət bayrağı, Azərbaycan Respublikasının Dövlət gerbi və Azərbaycan Respublikasının Dövlət himnidir.

II. Azərbaycan Respublikasının Dövlət bayrağı bərabər enli üç üfüqi zolaqdan ibarətdir. Yuxarı zolaq mavi, orta zolaq qırmızı, aşağı zolaq yaşıl rəngdədir və qırmızı zolağın ortasında bayrağın hər iki üzündə ağ rəngli aypara ilə səkkizguşəli ulduz təsvir edilmişdir. Bayrağın eninin uzunluğuna nisbəti 1:2-dir.

III. Azərbaycan Respublikası Dövlət bayrağının və Azərbaycan Respublikası Dövlət gerbinin təsviri, Azərbaycan Respublikası Dövlət himninin musiqisi və mətni Konstitusiya qanunu ilə müəyyən edilir.

LAYİHƏ

*Şair nə üçün bayrağın sancıldığı yeri ucalıq adlandırır?*

*Bayraq nə üçün and yeri hesab edilir?*

*Şair nə üçün Şuşada bayrağın sancıldığı daşı pir hesab edir?*

Yağının min hiyləsi küydən, kələkdən keçər,
Sən sancılan ucalıq min-min ürəkdən keçər,
Dağlar yerindən oynar, daşlar ələkdən keçər.
Göylərin nur yağmuru, yerlərin göy qurşağı –
Azərbaycan bayrağı!

Cəngidə cövlan yerim, cövlanda can yerimsən,
Barışda gül çələngim, savaşda qan yerimsən,
Sən mənim and yerimsən, mənim iman yerimsən,
Dalğalı ləngərlərin yelpiklənən yarpağı –
Azərbaycan bayrağı!

Sənsən Azadlıq eşqim, sənsən hürr deyəcəyəm,
Ən son nəfəsimdə də sənə şeir deyəcəyəm,
Şuşada sən qonduğun daşa pir deyəcəyəm.
Çəkəcəyəm gözümə kölgən düşən torpağı –
Azərbaycan bayrağı!
Azərbaycan bayrağı!

*Ramiz Qusarçaylı*

*Azərbaycan Respublikası Dövlət bayrağının istifadəsi qaydaları haqqında*

QANUN

AZƏRBAYCAN RESPUBLİKASININ
**QANUNU**

9.3. Azərbaycan Respublikasının Dövlət bayrağı bütöv olmalı və solğun görünməməlidir.

9.4. Azərbaycan Respublikasının Dövlət bayrağı ya bayraq dirəyi, ya da xüsusi tutqaclara bərkidilən dəstək üzərində qaldırılır.

9.5. Azərbaycan Respublikasının Dövlət bayrağı elə qaldırılmalıdır ki, onun parçasının aşağı tərəfi yerdən azı üç metr hündürlükdə olsun.

*Maddə 10. Azərbaycan Respublikası Dövlət bayrağının istifadəsinə dair məhdudiyyətlər*

Azərbaycan Respublikasının Dövlət bayrağı masaların və ya kürsülərin üstünə örtük kimi sərilə bilməz, oturulan və ayaq basılan yerlərə qoyula bilməz.

*Maddə 11. Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında qanunvericiliyin pozulmasına görə məsuliyyət*

Azərbaycan Respublikası Dövlət bayrağının bu Qanunun tələblərinə zidd istifadəsi, habelə Azərbaycan Respublikasının Dövlət bayrağı barədə təhqiredici hərəkətlər Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq məsuliyyətə səbəb olur.

LAYİHƏ

# RİTM VƏ TEMP



**Ritm** *(ahəng) bir hadisənin (hərəkət, səs, söz) eyni vahidlərinin bir qaydada* ***təkrarlanmasına*** *deyilir.*

**Temp** *təkrar edilən hadisənin (hərəkət, səs, söz) sürət dərəcəsidir.*

*Musiqi olmadan mahnını oxuya bilərsinizmi? Bunu necə həyata keçirə bilərsiniz? Sizcə, nə üçün qədim zamanlarda insanlar ağır bir iş görərkən müxtəlif səslər çıxarmış, ritmdən istifadə etmişlər?*

Ritm hələ qədim zamanlarda insanlar arasında birlikdə görülən iş prosesində özünü göstərmişdir. Bu səs, söz təkrarları hamı tərəfindən eyni zamanda, ritmik surətdə deyilirdi. İnsanların əmək prosesində söylədikləri bu emosional təkrarlar ahəngdar şəkil alır və iş prosesini asanlaşdırırdı.

Bu ritmik səs və sözlər əmək nəğmələrinin, mahnıların, bayatıların yaranmasına başlanğıc vermişdir.

Şeirdə sətirlər müəyyən ritmlə qurulur. Burada həm məzmun, həm də müəyyən texniki şərtlər olmalıdır. Yəni birinci sətrin quruluşu, söz və ifadələrin tərkibi nə şəkildədirsə, sonrakı misralarda da bu, nəzərə alınmalıdır.

Cən-gi-də cöv-lan ye-rim, cöv-lan-da can ye-rim-sən, 14
Ba-rış-da gül çə-lən-gim, sa-vaş-da qan ye-rim-sən, 14
Sən mə-nim and ye-rim-sən, mə-nim i-man ye-rim-sən, 14
Dal-ğa-lı lən-gər-lə-rin yel-pik-lə-nən yar-pa-ğı – 14
Azərbaycan bayrağı!

Təkrarlanan sözlər

Səslənmə baxımından yaxın olan sözlər

Hər bənddə təkrarlanan ifadə

LAYİHƏ

**1.** Şair bayrağını necə tərənnüm edir? Şeirdə onun hansı arzuları ifadə olunmuşdur?

**2.** *Hər rəngində ya qazi, ya şəhid, bir mən bitər* misrasının mənasını necə başa düşürsünüz? Fikrinizi əsaslandırın.

**3.** Şeirə əsasən sxemi tamamlayın.




✓ *Sənin üçün bayraq nədir?*

**4.** Şair şeirdə düşməni necə təqdim edir?

**5.** Şeirdə əsas fikri tapın. Bunun üçün hər bənddə ifadə olunan fikirləri müəyyən edin.

**6.** Şeirdə daha yüksək intonasiya tələb edən ifadəni və yüksək intonasiya tələb etməsinin səbəbini qarşısında yazın.

... → *1* ____________________
*2* ____________________

**7.** Sonuncu bəndin məzmunu ilə bağlı üç sual tərtib edin.

*1* ____________ *2* ____________ *3* ____________

**8.** “Sualları cavablandırın.

Əgər şair olsa idin, bayrağı necə tərənnüm edərdin?
Əgər yazıçı olsa idin, bayrağı necə təsvir edərdin?
Əgər rəssam olsa idin, bayrağı necə çəkərdin?

✓ *Fikirlərinizi 4-5 cümlə ilə ifadə edin.*

**9.** Aşağıdakı cümlələrdə altından xətt çəkilmiş sözləri elə yaxınmənalı sözlərlə əvəz edin ki, misranın mənası dəyişməsin.

Sən ey istiqlalımın əbədiyyət sancağı
... Yağının min hiyləsi küydən, kələkdən keçər,

**10.** Şeirdə yaşıl rəngdə verilmiş cümlədə yaxınmənalı sözləri tapın, mənasını izah edin.

**11.** *Barışda gül çələngim, savaşda qan yerimsən* misrasında *barış* hansı sözün əvəzində işlənmişdir?

**12.** *Qazi* və *şəhid* sözlərinin mənasını izah etməklə cümlədə işlədin. Həmin sözlər arasındakı fərqi izah edin.

LAYİHƏ

**13.** Uyğunluğu müəyyənləşdirin.

a *Öz dövlətinin qanunları ilə müəyyən edilmiş bütün tələbləri yerinə yetirməyə borclu olan şəxs*

1 *mübariz*

d *Yüksək amal, məslək, əqidə, inanc uğrunda ölən, canını fəda edən adam*

3 *şəhid*

2 *igid*

b *Müqəddəs iş uğrunda mübarizə aparan*

e *Bir hadisəni, əhvalatı öz gözü ilə görmüş adam*

5 *vətəndaş*

4 *şahid*

c *Döyüşdə qocaqlıq, cəsarət göstərən*

ə *Özünə məlum iş haqqında ifadə vermək üçün məhkəməyə çağırılan şəxs*

✓ *Bu sözlər hansı halda böyük hərflə yazıla bilər?*

**14.** Mətndə (səh. 64–65) altında xətt çəkilmiş sözlərdə vurğunun yerini müəyyən edin.

**15.** Şeirin (səh. 65) son bəndində *azadlıq* sözü nə üçün böyük hərflə yazılmşdır?

**16.** Mətndə (səh. 65) göy hərflə verilmiş sözlərin sonundakı *(şəkilçiyəqədərki hissə)* son hərfi müəyyən edin.

**Nümunə:** bayrağı – bayraq

**17.** Sualları cavablandırın.

- Müstəqilliyimizin atributu nədir?
- Ağacın gövdəsindən ayrılan hissə nə adlanır?

✓ *Cavab üçün istifadə etdiyiniz sözlərin tələffüzünü yazın.*

✓ *Həmin sözlərə a, ı və ya ın şəkilçilərindən birini artırın. Hansı dəyişiklik baş verdi?*

LAYİHƏ

## QAYDA

Dilimizdə sonu ***q*** samiti ilə bitən çoxhecalı sözlərə saitlə başlanan şəkilçi artırdıqda ***q*** samiti ***ğ*** samiti kimi yazılır.

*Məsələn*:

uşaq + → a → uşağa
uşaq + → ın → uşağın
uşaq + → ı → uşağı

qoruq+u=qoruğu; bulaq+a=bulağa; qulaq+ın=qulağın.

Belə sözlərə samitlə başlanan şəkilçi artırdıqda sözün sonunda ***q*** samiti olduğu kimi qalır.

*Məsələn*: qoruqçu, bulaqdan, qulaqcıq və s.

Sonu ***q*** ilə bitən elə sözlər var ki, onlarda ***q***→***ğ*** əvəzlənməsi baş vermir, yəni onlara saitlə və ya samitlə başlanan şəkilçi artırdıqda sözün sonunda ***q*** hərfi dəyişmir. *Şərq, üfüq, şəfəq, əxlaq, vərəq, ittifaq, xalq, irq* və s. belə sözlərdir.

*Məsələn*: şərq+in=şərqin; şərq+də=şərqdə.

**18.** Mötərizədə verilmiş samitlərdən uyğun olanını seçib yazın.

1925-ci ildə yaradılan Göygöl qoru*(q,ğ)*u Qafqazın şimal-şər*(q,ğ)* yamaclarında Göygöl rayonunun ərazisində yerləşmişdir. Azərbaycanda yaranan ilk qoru*(q,ğ)*dur. Qoru*(ğ,q)*un yaradılmasında məqsəd meşələrin subalp çəmənliklərini və 1139-cu ildə Gəncə zəlzələsi nəticəsində yaranmış dağlar gözəli Göygöl, Maralgöl, Qaragöl, Ağgöl, Zəligöl və s. təbiət abidələrinin zənginliyini, flora və fauna ehtiyatlarını qoruyub saxlama*(q,ğ)*dır. Meşəlikdə qonur dağ-meşə, çəmənlikdə dağ-çəmən torpa*(q,ğ)*ları mövcuddur. Floranın tərkibini 420 növ bitki, o cümlədən 76 növ ağac və kollu*(q,ğ)*lar təşkil edir. 1100–2200 m hündürlükdə yarpa*(q,ğ)*lı ağaclar: şərq fısdı*(ğ,q)*ı, şərq palıdı, vələs ağacları mövcuddur. Palıdı torpa*(q,ğ)*a malik olan yamaclarda Eldar şamı meşəliyi yerləşir.

**19.** Verilmiş sözləri aşağıdakı cədvələ əsasən qruplaşdırın.

İttifaq, vərəq, qonaq, hüquq, qatıq, bolluq, əxlaq, maraq, natiq, ulaq, qovluq, papaq, şərq, budaq, şəfəq, qayıq, qaymaq, istintaq

| *Saitlə başlanan şəkilçi artırdıqda* | |
|---|---|
| *q→ğ əvəzlənməsi baş verən sözlər* | *q→ğ əvəzlənməsi baş verməyən sözlər* |
| ... | ... |

✓ *Sözlərdən bir neçəsini cümlədə işlədin.*

**20.** “Qürurla dalğalan, bayrağım” adlı təqdimat hazırlayın.

LAYİHƏ

# 3 İtirilmiş açar *(ixtisarla)*



1. Şəkildə gördüklərinizi təsvir edin. Şəklin mətnin məzmunu ilə əlaqəsi haqqında ilkin təxminlərinizi söyləyin.
2. Şəkildə nə düzgün çəkilməmişdir?
3. Mətni oxuduqdan sonra təsvirlərinizi məzmunla əlaqələndirin.
4. Mətni oxuyarkən mötərizədəki sözlərdən uyğun olanı seçin.

Biri vardı, biri yox idi, bir qız vardı. Qız ağlayırdı. Özü də hıçqırtı ilə *(ağlayırdı, kövrəlirdi)*. Evlərinin açarını itirmişdi. Açarı bulaqdan su *(gətirəndə, götürəndə)* itirmişdi.

Anası, atası işdə idi. Qız qapılarını bağladı, səhəngi götürüb **kəndin başındakı** Soyuqbulağa yollandı. Bütün yol boyu açarı ovcunda bərk-bərk tutmuşdu. Açarı səki daşının üstünə qoyub səhəngi axan suyun altına qoydu. Səhəngi doldurub geri döndü.

Qapını açmaq istəyəndə açarı tapmadı. Hər yeri axtardı, açar yoxa çıxmışdı. Xoşbəxtlikdən anası bu gün tez gəldi. Anası onun göz yaşlarını silib, başını tumarladı:

– Ağlama, qızım, ağlama. Bu saat açarı taparıq.

Qız sakit oldu və dedi:

– Bəlkə, **bulağın başında** qoymuşam açarı? Gəl gedək, baxaq.

Bulaq başında açarı çoxları görmüşdü. Götürüb baxmış, yerinə qoymuşdular. Yəqin, sahibi çıxar, – demişdilər.

Onlar bulağa yetişəndə qızcığaz açarı görüb çox sevindi.

Həmin hadisədən sonra qızcığaz açarı özü ilə *(götürmürdü, aparmırdı)*, eyvanda gözə görünməyən yerdə gizlədirdi.

... Bir gün qızın da, kəndlərinin də bu sakit və xoşbəxt günləri *(pozuldu, dağıldı)* İllərlə qonşuluq etdikləri, süfrələrinin qırağını kəsdirən ermənilər bircə gündə düşmən kəsildi onlara. Elə həmin vaxtdan da qanlı-qadalı günləri başladı.



LAYİHƏ

*Gördüyünüz oxuduqlarınızla necə əlaqələndi?*

*Bir müdhiş gecədə isə yer göylə qarışdı. Qulaqlarının dibində hamını şirin yuxudan oyadan dəhşətli gurultular qopdu.*

Atəş səsləri yaxından gəlirdi. Atası tələsik geyinib çıxdı.

*Cümlələr arasında rabitə yaratmaq üçün dialoqun əvvəlinə 2-3 cümlə artırın.*

– Ana, biz hara gedirik, – dedi.

– Qaçırıq, qızım, qaçırıq.

– Nə geyinim?

– Əlinə nə keçdi, geyin.

Qızcığaz **stolun başındakı** paltarını tələsik əyninə keçirib eyvana çıxdı. Anası qapıları bağlayıb açarları qıza verdi.

– Al, bərk saxla, itirmə, – dedi.

Sonra da qalın yun şalını onun başına saldı, uclarını arxadan bərk-bərk çəkib bağladı.

Onlar küçəyə çıxan kimi məhəllənin adamlarına qoşulub kəndin aşağı tərəfinə doğru qaçdılar. Kənddən xeyli aralanıb meşənin içində dayandılar. Hamı bir-birini axtarırdı. Hamı bir-birini qorumağa çalışırdı.

Qızcığaz anasının əlindən bərk-bərk tutub buraxmaq istəmirdi. Bir əlində isə evlərinin açarlarını tutmuşdu və tez-tez anasına deyirdi:

– Ana, açarları itirməmişəm.

Ana isə nəvazişlə: “Əhsən, mənim balam”, – deyirdi.

Ancaq ananın qəlbindən qara qanlar axırdı. Ana düşünürdü ki, görəsən, bir də evlərinə dönə biləcəklərmi, bir də qızının ovcunda bərk-bərk tutduğu açarla qapılarını aça biləcəklərmi? Görəsən, xoşbəxtlik geri dönəcəkmi?

Qızın isə ananın bu dərdli düşüncələrindən xəbəri yox idi. Onun yeganə təsəllisi ovcunda bərk-bərk tutaraq itirmədiyi açarları idi.

*Əli Səmədli*

*✓ Mətndə hansı faktlar vardır?*

*✓ Şəkil məzmuna uyğundurmu? Şəkil niyə belə çəkilmişdir?*



# FAKT. FAKTLARIN SEÇİLMƏSİ



*İlk növbədə, faktın nə olduğunu öyrənək.*

Faktları müəyyən etmək üçün
YADDAŞ

Fakt həqiqətən olmuş hadisə və əhvalatdır.

Fakt nə üçün lazımdır?

**Verilmiş sözlərdən cümlə düzəldin, faktın nə üçün lazım olduğunu müəyyən edin.**



əhvalat, | dəqiq | məlumata | Fakt | haqqında | hər hansı | bir hadisə, | baş verənlər | reallıqda | malik olmaqdır.

FAKTI NECƏ SEÇMƏLİ?

*Faktı seçmək üçün lazımdır:*

*1. Mətni diqqətlə oxumaq*

*2. Məzmununu mənimsəmək*

*3. Mətni abzaslara bölmək*

*4. Hər abzası diqqətlə oxumaq*

*5. Abzasdakı cümlələrin məzmununa diqqət yetirmək*



LAYİHƏ

“İtirilmiş açar” mətnindən götürülmüş bu abzasda fakt vardır.

*Mətndən abzas*

*Faktdır, çünki*

Bir gün qızın da, kəndlərinin də bu sakit və xoşbəxt günləri pozuldu. **İllərlə qonşuluq etdikləri, süfrələrinin qırağını kəsdirən ermənilər bircə gündə düşmən kəsildi onlara.** Elə həmin vaxtdan da qanlı-qadalı günləri başladı.

*ermənilər 1992-ci ilin sonlarından başlayaraq, Qarabağa hücum etmiş, dinc əhaliyə qarşı silah işlətmiş, torpaqları işğal etmişlər.*

- Fakt dəqiq və etibarlı mənbəyə əsaslanmalıdır.
- Faktlardan mətnlər, məqalələr, inşa və ya esse yazarkən istifadə etmək mümkündür.
- Faktlardan yerində və düzgün istifadə etmək lazımdır.

*✓ “İtirilmiş açar” mətnində daha hansı fakt var?*

*Hadisə və faktı fərqləndirin.*

Məşhur alim İbn Sina məktəbdə riyaziyyat dərslərini çox da yaxşı qavramırdı. Bir gün səhrada gəzərkən bir quyu gördü. Quyudan su içmək istədi. Vedrəni quyuya saldı. Quyunun ağzındakı mərmər qapaq vedrəni çəkən ipin sürtünməsi səbəbi ilə aşınmışdı. Oğlan düşüncələrə daldı: “Yumşaq bir ip mərmər kimi çox sərt daşı kəsir. Deməli, çətin də olsa, bir işdə müvəffəq olmağı bacarmağın sirri qətiyyətli olmaq, səy göstərmək, səbirlə və əzmlə çalışmaqdır. Madam ki riyaziyyatı başa düşə bilmirəm, deməli, israrla çalışmalıyam”.

Çinin şimalında yaşayan döyüşkən hun tayfaları Çin ərazilərinə ardıcıl hücumlar təşkil edirdilər. Çin orduları çevik və sürətli hun süvariləri qarşısında aciz qalmışdı. Hökmdar Sin Şi Xuandi vəziyyətdən çıxış yolunu sədd tikilməsində gördü. E.ə. 214-cü ildə Böyük Çin səddinin tikintisinə başlanıldı.



*✓ Qızın açarı itirməsi hadisə, yoxsa faktdır? Fikrinizi nə ilə sübut edərsiniz?*

LAYİHƏ

**5.** Mətnin (səh. 70–71) adına münasibət bildirin. Ad məzmuna uyğundurmu? Əgər mətnin adını dəyişmək istəsə idiniz, hansı adı təklif edərdiniz?

**6.** Mətndə hansı hadisələrdən danışılır? Həmin hadisələr haqqında nə bilirsiniz?

**7.** Sizcə, ana nə üçün açarı saxlamaq üçün qızına verir? Necə düşünürsünüz, onlar öz qapılarını aça biləcəkdilərmi?

**8.** Hekayədə təsvir edilmiş hadisələr hansı fəsildə baş verir? Mətndəki hansı cümlələr fikrinizi təsdiq edə bilər?

**9.** Mətn əsasında cədvəli öz mülahizələrinizə uyğun tamamlayın.




**10.** Mətndəki hansı cümlələr azərbaycanlıların dinc yanaşı yaşamasını, başqasının malına göz dikməməsi fikrini təsdiqləyir?

1. Bulaq başında həmin açarı çoxları görmüşdü. Götürüb baxıb, yerinə qoymuşdular. Yəqin, sahibi çıxar, – demişdilər.
2. Onlar küçəyə çıxan kimi məhəllənin adamlarına qoşulub kəndin aşağı tərəfinə doğru qaçmağa başladılar.
3. Hamı bir-birini axtarırdı.

**11.** Mətndə səbəb-nəticə əlaqələrini müəyyən edin.

| Səbəb | Nəticə |
|---|---|
| ... | ... |
| ... | ... |

**12.** Mətndə təsvir edilən hadisələr Qarabağda baş vermiş hansı tarixi faciəni yada salır? Niyə belə hesab edirsiniz?



LAYİHƏ

**13.** Sxem əsasında ana obrazlarını müqayisə edin.




✓ *Özünüz davam etdirin.*

**14.** Altından xətt çəkilmiş sözün mətndəki (səh. 70) mənasına uyğun işlənən cümləni seçin:




**15.** Mətndə tünd şriftlə verilmiş ifadələrdəki *baş* sözü hansı mənaları ifadə edir? Həmin sözü fərqli mənada cümlədə işlədin.

**16.** Mətndə kursivlə verilmiş cümlələrin məzmununu saxlamaqla sadə şəkildə yazın.

**17.** *Al, bərk saxla, itirmə, – dedi* cümləsində *bərk* sözünü elə sözlə əvəz edin ki, cümlədə məna dəyişməsin. Həmin sözü fərqli mənada cümlədə işlədin.

LAYİHƏ

**18.** Məntiqi ardıcıllığı tamamlayın.

*yeganə* → *tək* → *çox*     *dərdli* → ... → ...

*geri* → ... → ...

✓ *Mətndən sözlər seçib belə nümunələr yaradın.*

**19.** Mətndə qırmızı rəngdə verilmiş sözün niyə böyük hərflə yazıldığını izah edin. Həmin söz niyə bitişik yazılmışdır?

**20.** Mətndən mürəkkəb sözləri seçib yazın. Həmin sözləri ad və əlamət bildirməsinə görə qruplaşdırın. Hansı mürəkkəb söz bölgüdən kənarda qaldı?

**21.** Mətndən cəm şəkilçili sözləri seçib cədvələ əsasən qruplaşdırın.

| *-lar* | *-lər* | *İzahı* |
|---|---|---|
| gurultular | | Sözün kökündə qalın sait olduğu üçün -*lar* artırılmışdır. |
| ... | ... | ... |

**22.** Nöqtələrin yerinə müvafiq sözlər əlavə edin.

*dağlara, kəndlərinin, meşələrə, 1988-1989-cu illərdə, məktəbə, evlərinə, Noyabrın sonlarında, çıxıb getməsini, əhali, ərzaq malları*

.............................. ermənilər azərbaycanlıların ................... basqın edir, onların ..................... tələb edirdi. Uşaqlar ................... buraxılmır, mağazalarda azərbaycanlılara satılmırdı. ................... ermənilər Azərbaycan ................ üzərinə hücuma keçdilər. ...... qışın şaxtasında ........., .......... üz tutdu.

**23.** Mətni oxuyun, tapşırıqları yerinə yetirin.

✓ *Nöqtələrin yerinə buraxılmış hərfləri əlavə edin.*

✓ *Mətndən mürəkkəb sözü seçin.*

✓ *1-2 cümlə ilə mətni tamamlayın. Sizcə, hadisələr necə davam edəcək? Fikrinizi əsaslandırın.*

I. Mən da...da hündür bir ...ayanın üstündə dayanmışdım. Ətrafa baxırdım. .. öydə ...artallar uçurdu. Birdən onlardan biri sürətlə aşa...ı şığıdı. Bu zaman gördüm ki, bir dağkeçisi on metr hündürlükdən aşağıda otlayan sürünün keşiyini çəkir. Sürüdə balaca oğla...lar var idi. Qartal onlardan birini aparmaq istəyirdi.

II. Dağkeçisi qartala tərəf ...açdı, ona hücum etdi. ... .



LAYİHƏ

## *Araşdırma*. TORPAQ NƏDİR?

Siz torpaq dedikdə nə başa düşürsünüz? Torpaq nə üçün sərvət hesab edilir?

"Dədə Qorqud" filmində Dədə Qorqud gənclərə deyir:

"Torpağı əkib-becərməsən, onu qorumağa dəyməz. Qorumasan, əkib-becərməyə dəyməz"

✓ *Siz bu fikirlə razısınızmı? Niyə?*

Araşdırma üçün sizə plan təqdim olunur.

✓ *Planı aparacağınız araşdırmaya uyğun olaraq özünüz də tərtib edə bilərsiniz.*

### Plan

1. *Torpaq nədir?*
2. *Torpağın funksiyası hansılardır?*
3. *Torpaq nə üçün mühafizə olunmalıdır?*
4. *Torpağı necə mühafizə etmək olar?*



Araşdırmanız əsasında təqdimat hazırlayın.

**24.** Mətnin sonluğunu I Qarabağ müharibəsi ilə əlaqələndirərək genişləndirin. Fikrinizi faktlarla əsaslandırın.

İlk növbədə, I Qarabağ müharibəsi haqqında məlumat toplayın.

Topladığınız məlumatları aşağıdakı plan əsasında sistemləşdirin.

### Plan

✓ *I Qarabağ müharibəsinin başlanmasının səbəbi* — *3-4 cümlə*
✓ *Qaçqın və köçkün düşən qarabağlılar* — *2-3 cümlə*
✓ *I Qarabağ müharibəsinin nəticəsi* — *1-2 cümlə*

LAYİHƏ

# 4 Ataya məktub *(ixtisarla)*







Salam, ata! Artıq uzun illərdir ki, səni görmürəm. Sənin üçün çox darıxmışam. İndi buraya qış gəlib, soyuqdur. Amma məni qışın şaxtasından da çox sənsizlik üşüdür. Bu illər ərzində sənsiz yaşamaq, bu acı həsrətin yükünü çəkmək mənə bir *(dərd, kədər)* olub. Başa düşürəm, bu məktubu oxumaq sənin üçün çox ağırdır.

Atacan, bilirsən, bizi bir-birimizdən ayırdıqdan sonra məni yad dilində danışmağa məcbur edirlər. Ətrafımdakılar mənə bu dilin doğma dilim olmasını və onun mənim genlərimdə olduğunu iddia edirlər. Lakin mən onlarla razılaşmıram və nə qədər çətin olsa da, hələ susuram. Bu sükut çox ağrılı olsa da, hər şeyə dözürəm. Bircə mənim bu *(halımı, vəziyyətimi)* görsəydin...

Vaxt var idi, deyirdin ki, sən mənim ən gözəl, ən sevimli, ən istedadlı balamsan. İndi o vaxtlar gözlərimdə *(xəyal, təxəyyül)* kimi canlanır. Səninlə birgə olduğum vaxtlar üçün çox darıxıram. Səndən ayrıldıqdan sonra hər gecə sənli yuxular görürəm. Bu yuxularımda səninlə bərabər dərdləşir, doğma ana dilimizdə danışırıq.



1. Şəkildə gördüklərinizi təsvir edin. Şəkillərin mətnin məzmunu ilə əlaqəsi haqqında ilkin təxminlərinizi söyləyin.
2. Mətni oxuduqdan sonra təsvirlərinizi məzmunla əlaqələndirin.
3. Mətni oxuyarkən mötərizədəki sözlərdən uyğun olanı seçin.



LAYİHƏ

Dinlədiyiniz mətn əsasında sualları cavablandırın.

1. Mətndə hansı savaş anından danışılır?
2. Nə üçün vətən oğulları səfərbər olmağa çağırılır?
3. Mətn əsasında cümləni tamamlayın.

*Mahnıda oğullar ..., qızlar ... hesab edilir*

**QK**

Kaş, kaş ki bu yuxuda gördüklərimi həyatda görəydim, yuxuda yox!

Ata, mən sənə demək istəmirdim. Amma mənim adımı da dəyişmək istəyirlər. Yaxşısı budur, yazmayım o adı. Yazsam, dərdinin üstünə dərd gələr. Onlar mənim üzərimdə *(izlər, ləpirlər)* qoymaq istəyirlər ki, sonra: "baxın, bu bizimdir", – desinlər.

Qorxuram ki, bu ayrılıq uzun çəkər. Amma bu qorxu ilə bərabər, içimdə bir ümid də var. Ümid edirəm ki, sən məni yenidən qoynuna alacaqsan. Bu ümiddir məni yaşadan, ata, sənə – Azərbaycana qovuşmaq ümidi...

***İmza:*** Sənin oğlun ...

✓ *Sizcə, nöqtələrin yerinə hansı söz yazılmalıdır? Fikrinizi mətndən götürülmüş nümunələrlə əsaslandırın.*

*Aytəkin Xəlilova*



**4.** Məktubun yazılma səbəbini izah edin.

**5.** Sizcə, bu məktub hansı illərdə yazıla bilərdi?

**6.** Mətndən faktları seçin.

**7.** Necə düşünürsünüz, övladın ümidləri doğruldumu?



LAYİHƏ

# 5 Nişan üzüyü *(ixtisarla)*

✓ *Sizcə, mətndə nədən danışılacaq? İlkin fikirlərinizi bildirin.*

J.LAKORDER

*"Azadlıq uğrunda hər cür müharibə müqəddəsdir, işğalçılıq isə lənətə layiqdir."*



**MÜHARİBƏ** nədir?

**MÜHARİBƏDƏ** insanların hansı hüquqları pozulur?

**MÜHARİBƏNİN** ətraf mühitə və sağlamlığa nə kimi ziyanı var?

**MÜHARİBƏDƏ** qələbə qazanmağın hansı yolları vardır?

**1.** Mətni oxuyarkən mötərizədəki sözlərdən uyğun olanı seçin.

Əminə xalanın gözləri yol çəkirdi. Dünəndən oğlundan gələn məktubu *(neçə, çox)* nəfərə oxutmuşdu.

"...Ana! Dünən çox vuruşduq. Düşmənin sayı bizdən beş dəfə çox olardı. Onların pulemyotları yağış kimi güllə yağdırırdı. Mən komandirimizin sol tərəfində durmuşdum. O, *(sərt, bərk)* yaralandığına baxmayaraq, bizə ürək-dirək verirdi. Mənə də tez-tez: "Qorxma, Salman, – deyirdi, – gözlə, lap yaxına gələndə atarsan". Mən əlimdəki qumbaranı hazır tutub düşmənin daha da *(yaxınlaşmasını, gəlməsini)* gözləyirdim. Onlar sürünə-sürünə qabaqkı dikdirə çıxdılar.

Mən, az qala, nəfəs almayıb komandirin əmrini gözləyirdim. Komandir əli ilə "Səbir et!" işarəsini verdi. O, gözlərini düşmən gələn tərəfdən çəkmirdi. Birdən

LAYİHƏ

düşmənlər ayağa qalxıb üstümüzə şığıdılar. Mən əlimdəki qumbaranı atdım. Bilmirəm, dördümü, beşimi toz-torpağa qarışıb qaldı. Ana! Mənim gülləm qurtarmışdı. Süngü davası başlandı. Gərək özün burada olub görəydin. Yalan olmasın, hərəmiz bir aslana dönmüşdük. Vuruşurduq, nə vuruşurduq... Düşmənlər zərbəmizə dözməyib geri qaçdılar. Ax, ana, bu vaxt pulemyotumun bircə daraq gülləsi olaydı, gör onda heç biri də qaçıb qurtula bilərdimi?!"



*Bu məktuba əsasən əsgərin xüsusiyyətlərini söyləyin.*

Əminə xalanın gözləri yol çəkirdi. Onun xəyalında ancaq bu sözlər dolanırdı: "Bircə daraq güllə... Neyləyim?.. Bu iş əlimdən gəlmir, oğul... Yoxsa bir daraq nədir, lap yüz daraq yollardım. *(Qalın, enli)* corab deyil ki, gündə üç cüt toxuyam. Neyləyim?.."

...Əminə xalanın işlədiyi corab arteli fəhlələrinin yığıncağı uzun çəkdi. Çıxışlar qurtarandan sonra kimsə xəbər aldı:



– Bəs Əminə xala müdafiə fonduna bir şey vermir?..

Əminə xala irəli gəldi, ovcunda yaylığa bükülü nəsə vardı.

– Dava qurtaranacan hər ay beş günlük məvacibim, bir mis qazan, bir mis samovar... Bir də ki bu üzük... Oğlumun nişan üzüyü...Yaz!..

Müdir razı olmadı:

– Yox, onu saxla. Axı o sənin üçün çox qiymətlidir, xala.

Əminə xala dedi:

– Yox, bundan da qiymətli olan var...

– O nədir, xala?

Əminə arvadın səsi birdən titrədi. O, indi bir ana kimi cavab verdi:

– Oğlum! Ona güllə lazımdır... Bildin?

*Mehdi Hüseyn*

LAYİHƏ

2. “Vətəndaş” şeirini oxuyun.

3. “Nişan üzüyü” hekayəsindəki ananı bir vətəndaş kimi dəyərləndirin.

*(ixtisarla)*

Vətəndaş! Nə gözəl səslənir bu söz,
Yəni – bir Vətənin övladıyıq biz.
Anamız eynidir, qardaşıq, demək,
Mən sənə arxayam, sən mənə kömək.

Vətəndaş! Nə gözəl səslənir bu söz,
Yəni – iki canda bir ürəyik biz.
Gücsüzük, bir heçik sən də, mən də tək,
Vətənə güvənib olduq Vətəndaş.
Mənim ürəyimi qanatsın gərək,
Sənin dırnağına dəyən çırtma daş.

Vətəndaş! Nə gözəl səslənir bu söz,
Yəni – bir qaynaqdan su içmişik biz.
O su qəlbimizdə coşdu, qaynadı,
Eyni bir ad ilə tanıtdı bizi.
Vətənin ünvanı, Vətənin adı
Bizə xatırlatdı vəzifəmizi!

Vətəndaş! Nə gözəl səslənir bu söz,
Vətən əbədidir, gedəriyik biz.
İnsan qüvvətlidir öz vətənində.
Bilirik, dünyaya biz niyə gəldik.
O bizi yaradan, biz ona bəndə,
Yaradan uğrunda ölməyə gəldik.

*B.Vahabzadə*

4. Sxem əsasında danışın.




✓ *Sizin vətəndaş kimi borcunuz nədir?*

*Şair insanı nə üçün öz vətənində qüvvətli hesab edir?*

5. *Vətəndaş kimdir?* sualına 3-4 cümlə ilə cavab yazın.

## Araşdırma

✓ *Bu tarixlərdə nə baş verdi?*


27 sentyabr 2020


3 oktyabr


4 oktyabr


9 oktyabr


17 oktyabr



LAYİHƏ

6. Nə üçün hekayə “Nişan üzüyü” adlandırılmışdır? Fikirlərinizi əsaslandırın.

7. Ananın hərəkətinə münasibət bildirin. Siz onun yerində olsa idiniz, necə hərəkət edərdiniz?

8. Komandir obrazının xüsusiyyətlərini sadalayın. Fikirlərinizi nə ilə əsaslandırarsınız?

9. Oğul obrazını necə qiymətləndirirsiniz? Sizcə, əsgəri anasına məktub yazmağa nə məcbur edir? Anası ona kömək edə biləcəkmi?

10. Oğulu əsgər və vətəndaş kimi dəyərləndirin.

11. Ana, komandir və oğulun ümumi cəhətlərini tapın.

12. “Nişan üzüyü” mətnindəki əsas fikri tapın.

13. “Ana əsl Azərbaycan vətəndaşıdır” mövzusunda dialoq qurun. Bir neçə ifadəsi verilmiş cümlələri tamamlamaqla dialoqu genişləndirin.




Hansı hadisələr baş verdi?
Hadisələrə kim rəhbərlik edirdi?

**27 SENTYABRDA:**

Hadisələrdə kimlər iştirak edirdi?
Həmin hadisələrin nəticəsi nə oldu?
Hadisələrə sənin münasibətin.



20-22 oktyabr | 25 oktyabr | 8 noyabr | 20 noyabr | 25 noyabr | 1 dekabr

LAYİHƏ

**14.** Vətən müharibəsi (27 sentyabr–8 noyabr 2020-ci il) dövründə xalqın cəbhəyə köməyi haqqında danışın.

**15.** Bu fikirlərdən biri mətnlə səsləşmir:

A) Ordu ilə xalqın həmrəyliyi qələbəni təmin edir.
B) Arxa cəbhənin köməyi olmadan da qələbəni təmin etmək olar.
C) El gücü, sel gücü.
D) Birlik dirilikdir.



**16.** "Fikirlərinizi əlavə etməklə cümlələri tamamlayın və kiçik mətn tərtib edin.

Ali Baş Komandan İlham Əliyev planlı iş gördü, çünki ... . Ona görə də ... .
Rəşadətli Azərbaycan Ordusunun planlı fəaliyyəti ... .
Torpaqlarımız ... . 17 oktyabr 2020-ci il tarixdə ... .
... . Cəbrayıl ... . ... .

**17.** Verilmiş sözləri ifadə etdiyi mənaları ilə birləşdirin.

| | |
|---|---|
| gözləri yol çəkmək | yadına salmaq |
| ürək-dirək vermək | həsrətlə yol gözləmək |
| xəyalında dolanmaq | cəsarətləndirmək, bir işə ruhlandırmaq |

**18.** *Daraq* və *dirək* sözlərini mətndəkindən fərqli mənada cümlədə işlədin.

**19.** *Yığıncaq* sözünü hansı sözlə əvəz etsəniz, cümlədə məna dəyişməz?

**20.** Bunlardan biri *məvacib* sözünün izahıdır:

maaş alan
əmək və iş əvəzində alınan pul
maaşı çox olan



LAYİHƏ

**21.** Sxemdə verilənləri tamamlayın.

SÖZÜN İFADƏ ETDİYİ MƏNANI DEYİN.

...

ŞƏKLİ BİR SÖZLƏ İFADƏ EDİN.

...



SÖZÜN TƏLƏFFÜZÜNÜ DEYİN.

...

SÖZ BİRLƏŞMƏSİNİ CÜMLƏDƏ İŞLƏDİN.

...

HƏMİN SÖZÜ CÜMLƏDƏ İŞLƏDİN.

...

SÖZ BİRLƏŞMƏSİ YARADIN.

...

✓ *Hərblə bağlı hansı sözləri bilirsiniz?*

**22.** *Çəkmək* sözünü aşağıdakı mənalarda cümlələrdə işlədin.

- özünə və ya başqasına tərəf yaxınlaşdırmaq
- rəsm etmək
- davam etmək, vaxt aparmaq
- sığallamaq
- çəkisini müəyyənləşdirmək
- örtmək
- yeməyi qablara qoymaq
- kanal, yol və s. düzəltmək
- davam etmək, vaxt aparmaq



LAYİHƏ

**23.** Aşağıdakı sualları cavablandırın.

- Undan bişirilən qida məhsulunun adı nədir?
- Havanın üfüqi istiqamətində baş verən təbiət hadisəsi nə adlanır?

✓ *Cavab üçün istifadə etdiyiniz sözlərin tələffüzünü yazın. Nə müşahidə etdiniz?*

✓ *Həmin sözlərə a, i və ya in şəkilçilərindən birini artırın. Hansı dəyişiklik baş verdi?*

**24.** "Vətəndaş" şeirində qırmızı rəngdə veilmiş sözləri seçib dəftərinizə köçürün. Həmin sözləri şəkilçisiz yazın.

Nümunə: *çiçəyin – çiçək*

✓ *Sizcə, sözlərdə baş verən dəyişikliyin səbəbi nədir?*

## QAYDA

Dilimizdə sonu *k* samiti ilə bitən çoxhecalı sözlərə saitlə başlanan şəkilçi artırdıqda *k* samiti *y* samiti kimi yazılır.

*Məsələn*:

kəpənək +ə =kəpənəyə

ipək+in= ipəyin; ürək+i =irəyi

Belə sözlərə samitlə başlanan şəkilçi artırdıqda sözün sonunda *k* samiti olduğu kimi qalır.

*Məsələn*:

kəpənəklər, ürəkli, ipəkçi və s.

Sonu *k* ilə bitən elə sözlər var ki, onlarda *k*→*y* əvəzlənməsi baş vermir, yəni onlara saitlə və ya samitlə başlanan şəkilçi artırılmasından asılı olmayaraq sözün sonunda *k* hərfi yazılır.

*Məsələn*:

iştirak, əmlak, şərik, həlak və s.

**25.** Mətndə (səh. 80–81) qırmızı rəngdə verilmiş sözlərin defislə yazılmasının səbəbini izah edin.

**26.** *Daraq, tank* sözlərinə əvvəlcə samitlə, sonra saitlə başlayan şəkilçi artırın. Hansı sözdə dəyişiklik əmələ gəldi? Əmələ gələn dəyişikliyi izah edin. Həmin sözləri cümlədə işlədin.

**27.** Atalar sözlərində nöqtələrin yerinə buraxılmış hərfləri deyin.

**1.** Ehtiyat igidin yaraşı...ıdır. **2.** Söz ...ılıncdan itidir. **3.** Aslanın erkə... i, dişisi olmaz. **4.** Acı...ın axırı peşmançılı...dır. **5.** Öz...əyə ...uyu qazan özü düşər. **6.** Daldan atılan daş topu...a dəyər. **7.** İstəyirsən, bol çörə..., al əlinə bel-kürə... . **8.** Bir qorxa... bir ordunu bada verər.

✓ *Özünüz də bir neçə nümunə yazın.*



LAYİHƏ

**28.** Köçürün, sözlərin sonuna *k, q* samitlərindən uyğun gələn samiti artırın.

tan..., bula..., xörə..., uşa..., balı..., köpə..., ələ..., şəri...

**29.** Nöqtələrin yerinə uyğun söz və ifadələri artırın.

*Suqovuşan su anbarı, Madagiz, Suqovuşan, 3 oktyabr 2020-ci il, tarixi adı, su ilə təmin etmək, memarlıq abidəsi, Azərbaycan Silahlı Qüvvələri*

Tərtər rayonunda bir kənd var. İşğal dövründə ... adlanırdı. Kənd ... tarixində Qarabağda gedən döyüşlər zamanı ... tərəfindən azad edilmişdir. Azərbaycan Respublikası Prezidenti İlham Əliyev tərəfindən ... bərpa edilmiş, ... adlandırılmışdır.

Suqovuşan kəndi ərazisində üç ... var. Tərtərçay üzərində yerləşən ... kənd təsərrüfatı torpaqlarını ... üçün 1975-ci ildə istifadəyə verilmişdir.

✓ *Qarabağda olan su hövzələrindən bir neçəsi haqqında məlumat toplayın.*



**30.** Döyüşən əsgərə məktub yazsa idiniz, ona nə deyərdiniz? Fikrinizi 5-6 cümlə ilə ifadə edin. Sizcə, əsgərə teleqram vurmaq olar? Niyə?

**31.** Əsgərin anaya yazdığı məktubun məzmununu dəyişin.

**İstiqamət:**

- *Məktub cəbhədən yazılsın.*
- *Baş vermiş hadisələr əks olunsun.*
- *Məktubda şad xəbər verilsin.*
- *Məktubun yığcam olmasına çalışın (10-12 cümlə).*



*Məktubu yazdıqdan sonra düşünün: Məktubun məzmununu 1 cümlə ilə necə ifadə edərsiniz?*

LAYİHƏ

# 6 Mən nə etdimsə, Vətən üçün etdim



Əziz dostlar! Dialoqu tamamlamaqda bizə kömək edin.

*Vətən müharibəsində ••• qazandıq.*

*Torpaqlarımız ••• azad edildi.*

**NİZAMİ GƏNCƏVİ**

“ *Mərdliklə seçilir hər mərdin işi.* ”

**Düzgün tələffüzü seçin:**

| | |
|---|---|
| [torpaxlar] | [torpaqlar] |
| [əsgər] | [əskər] |
| [üçrənkli] | [üçrəngli] |

***Necə yazılmalıdır?*** **q, x, yoxsa ğ?**

gər...in   iş...al   qız...ın

## I HİSSƏ

Füzulinin, Cəbrayılın bir çox kəndləri artıq iş(ğ, x)aldan azad edilmişdi. Amma hələ də döyüşlər davam edirdi. Azərbaycan əsgəri cəsarətlə döyüşür, mənfur düşməni torpaqlarımızdan qovurdu. Döyüşlər artıq Qubadlı ərazisində gedirdi. Ağır artilleriyadan atılan mərmilər qorxunc səslər qoparırdı. Ətrafı bürümüş toz-duman qarşı tərəfi görünməz edirdi.

Vətən torpağının hər qarışı uğrunda gər(q, g)in mübarizə gedir, ölüm belə əsgərlərimizi qorxutmurdu. “Təki Vətən yaşasın!”, “Təki Vətən sağ olsun!” şüarları onların dillərinin əzbəri olmuşdu. Kiçik bir qələbə belə onları ruhlandırır, Ali Baş Komandanın “İrəli!” əmri Azərbaycan əsgərinin tez bir zamanda qalib olmaq istəyini daha da gücləndirirdi.

Azərbaycan ordusunun əsgərləri yeni-yeni əraziləri azad etmək üçün fədakarlıq göstərir, az qala, hər təpəyə, hər zirvəyə üçrəngli müqəddəs bayrağı sancmaq arzusu ilə alışıb yanırdılar.

Xanoğlan döyüş yoldaşları arasında cəsarəti ilə fərqlənir, döyüşün ən qız(ğ,q)ın olduğu yerlərdə vuruşurdu. Komandir onların qarşısında döyüş tapşırığı qoymuşdu: Bu gün yüksəklik alınmalı, orada üçrəngli bayrağımız əzəmətlə dalğalanmalıdır!

Dəstə yola düşdü, ağır döyüşlər başladı. Hər iki tərəf döyüşürdü: Birinci tərəf neçə illər həsrətində olduğu, doğma insanlarının yolunu gözləyən torpaqlarını azad etmək üçün vuruşur, digər tərəf hiyləgərcəsinə zəbt etdiyi, viran qoyduğu əraziləri heç cürə əldən vermək istəmirdi. Düşmən odlu silahlarını işə salmışdı.

LAYİHƏ

*Bu qələbəmizi ••• təmin etdi.*

*Bir çox əsgərlərimiz ••• .*

*İşğaldan azad edilmiş ••• ••• dalğalanmağa başladı.*

*••• döyüşçülərimiz ••• düşmən əlinə keçməsinə •••.*



## II HİSSƏ

Xanoğlan qəfildən snayper gülləsinə tuş gəldi. Güllə ayağına dəymişdi. Mərmi qəlpələri onun çiynini və qolunu sındırmışdı. Ağrı get-gedə güclənsə də, dayanmaq bilmir, daha çox düşmən məhv etmək istəyirdi. Sanki güllələrə meydan oxuyurdu. Geriyə çevriləndə yanında döyüşən dostunun can verdiyini gördü. Döyüşçü xeyli qan itirsə də, gülümsədi: "Boş şeydir, yüngül yaradır!" Xanoğlan kömək etmək istəsə də, onu ölümün pəncəsindən almağa can atsa da, nail ola bilmədi. Bir neçə dəqiqədən sonra dostu artıq əbədi olaraq gözlərini yumdu, müqəddəsliyə qovuşdu.

Erməni ordusu hücuma keçmiş, müvəqqəti olsa da, üstünlük qazanmışdı. Xanoğlan ermənilərdən fərqli olaraq, torpaqlarını işğaldan azad etmək üçün həyatını qurban vermiş şəhidini mənfur düşmənə təslim etməyi ağlına belə gətirmədi. Çətinliklə olsa da, onu çiyninə qaldırdı. Yaralarından axan qana, dözülməz ağrılara fikir vermədən beləcə xeyli yol gəldi. Hər addım atdıqca sanki torpaqdan güc alır, doğma torpaq igidini əyilməyə qoymur, ona dayaq olurdu.

Arada bir neçə dəfə yıxılsa da, daxilindəki inam və əyilməz iradə onu ayağa qaldırır, addım atmağa məcbur edirdi. Ancaq qanaxma Xanoğlanda yeriməyə taqət qoymamışdı: başı gicəllənir, gözləri qaralırdı. Belə getməyin mümkün olmadığını görüb dostunun botinkasının ipini öz ayağına bağladı, sürünməyə başladı.

İtirilən qan, halsızlıq, sürünməyi çətinləşdirən nəş, eyni zamanda, çətin relyef ••• . Xanoğlan huşunu itirdi. Huşu özünə qayıdanda •••

*Təxəyyülünüzə əsasən cümləni tamamlayın.*

✓ *Sizcə, hadisələr necə davam edəcək?*

***İlkin təxminim: ...***

***İpucu:*** Xanoğlan 36 saat komada qaldı.

*Əslində:* QK

LAYİHƏ

**Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının**
**“Cəbrayılın azad olunmasına görə” medalı ilə təltif edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının Cəbrayıl rayonunun işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak edərək şəxsi igidlik və şücaət nümayiş etdirmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin aşağıdakı hərbi qulluqçuları “Cəbrayılın azad olunmasına görə” medalı ilə təltif edilsinlər:

Mehdiyev İlham İsmayıl oğlu – general-leytenant
Mirzəyev Hikmət İzzət oğlu – general-leytenant
Nağıyev Əfqan Vəli oğlu – general-leytenant
Vəliyev Kərim Tofiq oğlu – general-leytenant
Bağırov Ramin Sabir oğlu – general-mayor

• • •

Mikayılov Xanoğlan Əhməd oğlu – gizir

Mikayılov Orxan Zülfüqar oğlu – gizir

• • •

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

*Bakı şəhəri, 24 dekabr 2020-ci il.*
*N°3568*

*Vətən müharibəsində şəhid və qaziləri, hərbçiləri, döyüşən ordunun əsgərlərini təltif etmək üçün daha hansı medallar təsis edilmişdir?*




“Cəbrayılın azad olunmasına görə” medalı Vətən müharibəsində qələbə münasibətilə təsis edilmişdir.

Bu medalla Azərbaycan Respublikasının Cəbrayıl rayonunun işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak etmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçuları təltif edilir.

“Cəbrayılın azad olunmasına görə” medalının əsasnaməsi Azərbaycan Respublikasının 2020-ci il 26 noyabr tarixli Qanunu ilə təsdiq edilmişdir.

LAYİHƏ

**1.** Mətnin (səh. 88) adı ilə bağlı fikirlərinizi bildirin.

**2.** Mətnə əsasən Azərbaycan ordusunun əsgərini xarakterizə edin.

| Azərbaycan əsgəri | |
|---|---|
| **Xüsusiyyətləri** | **Təsdiqləyici cümlə** |
| ... | ... |
| ... | ... |

**3.** *Xanoğlan əsl Azərbaycan əsgəridir* fikrini mətndəki hansı cümlələr təsdiq edir? Həmin cümlələri seçib yazın.

**4.** Sizcə, Xanoğlan və minlərlə onun kimi əsgərləri cəsarətli edən nədir?

**5.** Mətndə hansı suala cavab yoxdur?

A) Xanoğlan nə üçün mərd hesab edilir?
B) Xanoğlanın huşunu itirməsinə nə səbəb olur?
C) Növbəti döyüş tapşırığı ilə hansı yüksəkliyin alınması əmr edilmişdi?
D) Hansı ərazilər işğaldan azad edilmişdi?
E) Azərbaycan əsgərinin ən böyük arzusu nə idi?

**6.** Mətnin (I və II) giriş, əsas və nəticə hissələrini müəyyən edin, hər hissədə nədən danışıldığını 1-2 cümlə ilə yazın.

| | I hissədə | II hissədə |
|---|---|---|
| Giriş hissə | ... | ... |
| Əsas hissə | ... | ... |
| Nəticə | ... | ... |

✓ *Giriş, əsas və nəticə hissələrdə təsvir edilən hadisələr sizə nə öyrətdi?*

**7.** “Azərbaycan bayrağı” şeirindən götürülmüş *“Hər rəngində ya qazi, ya şəhid, bir mən bitər”* misrası ilə mətn arasında hansı əlaqəni görürsünüz? Daha hansı misraları mətnlə əlaqələndirə bilərsiniz?

**8.** “Ataya məktub” mətninin məzmununu xatırlayın. *“Kaş ki bu yuxuda gördüklərimi həyatda görəydim, yuxuda yox”* deyən oğulun arzusu reallaşdımı? Azərbaycan əsgəri oğulun arzusunu həyat keçirmək üçün nə etdi?

LAYİHƏ



## Müzakirə

*Əziz dostlar! Yəqin ki, Vətən müharibəsi dövründə Ali Baş Komandan tərəfindən veriləcək qələbə xəbərlərini siz də gözləmişsiniz.*

*Hər qələbə xəbəri sizdə hansı təəssüratlar yaradıb? Özünüzü bir qəhrəman kimi, Azərbaycan ordusunun döyüşən əsgəri kimi təsəvvür etmisinizmi? Həmin anda nə etmək istəmisiniz?*

*Xanoğlanın vətənpərvər ruhda böyüməsində ailə və məktəbin rolu varmı?*

*Bölmənin əvvəlində sizə ünvanlandığımız "Vətən haradır?" sualına necə cavab verərdiniz?*

**9.** Mətndə (səh. 88–89) altından xətt çəkilmiş ifadələri elə sözlərlə əvəz edin ki, cümlənin məzmunu dəyişməsin.

**10.** Mətndə (səh. 88–89) göy rəngdə verilmiş sözlər hansı sözləri əvəz etmişdir?

11. İlk cümləsi və ilk ifadəsi verilmiş cümlələri tamamlayın.

Mətni oxuduqdan sonra bu fikrə gəldim ki, Prezidentimiz •••.



Azərbaycan əsgəri •••

bayraq •••

torpaq •••

Doğma Vətən •••

Azərbaycan ordusu •••

✓ *Vahid mətn alındımı?*

12. Vətən müharibəsi haqqında məlumat *(bu, konkret ərazi, döyüşçü, şəhid və s. haqqında da ola bilər)* toplayıb inşa *(təqdimat da ola bilər)* yazın (həcm 20-25 cümlə).



LAYİHƏ

# İYİRMİ YANVAR GECƏSİ!

Ana Vətən oda düşdü,
İyirmi yanvar gecəsi!
Elimə qan-qada düşdü,
İyirmi yanvar gecəsi!

Sinəmizə güllə doldu,
Neçə ömrün gülü soldu.
Mərd oğullar şəhid oldu,
İyirmi yanvar gecəsi!

Qəm libası geyilmədi,
Geri duraq deyilmədi.
Polad sındı, əyilmədi,
İyirmi yanvar gecəsi!

Boğulsa da xalqın ünü,
Haqqa tərəf oldu yönü!
Azadlığın doğum günü:
İyirmi yanvar gecəsi!

*Qurban Təbiətoğlu*



**13.** 20 Yanvar hadisələri ilə bağlı hekayə yazın.

## Plan:

*1. 20 Yanvar 1990-cı il hadisələri*

*2. Həmin tarixdə baş verən hadisələrin səbəbləri*

*3. Bu tarixi günün iştirakçıları*

*4. Tarixi günün nəticələri*

## Təlimat:

*1. Hekayəniz üçün ideya seçin.*

*2. 20 Yanvar 1990-cı il hadisələri haqqında informasiya toplayın.*

*3. İnformasiyaları emal edin, sizə lazım olan məlumatları seçin.*

*4. Obrazlar yaradın, onları adlandırın.*

*5. Hadisələri yığcam təqdim edin.*

## İstiqamət:

1. Ümumi və xüsusi isimlərdən istifadə
2. Cəm isimlərdən yerinə görə düzgün istifadə
3. Sözləri əlaqələndirərkən şəkilçilərdən düzgün istifadə
4. Durğu işarələrindən düzgün istifadə etmək tövsiyə olunur.

✓ *Yazdığınız hekayəni dostlarınızla müzakirə edin.*

✓ *Ehtiyac yaranarsa, düzəliş və əlavələri daxil edin.*

LAYİHƏ

# 7 Gözüna ydın, Azərbaycan!

*(ixtisarla)*

*Sizcə, nə üçün şair Azərbaycana göz-aydınlığı verir?*

Gözün aydın, uca xalqım,
Gözün aydın, məmləkətim,
Od millətim, odlar yurdum!
Şirürəkli cəsur ordum
Tariximin səhifəsinə
"Biz qalibik" kəlməsini yaza bildi.
"Qaçqın","Köçkün" sözlərini
yaddaşlardan poza bildi.
Yürüdükcə addım səsi
Düşmənimin ürəyini silkələdi.
Od sıçradı. Odlar oğlu od elədi.
Yağı düşmən sinəsində od qaladı,
Otuz ilin həsrətini, qubarını
pərən saldı, parçaladı.
Yuvasından ayrı düşən
yuvasına sahib oldu.
Dünənimdə məğlub olan
Bu günümdə qalib oldu.
Arzularım, diləklərim çiçək açdı,
Al Günəşim Vətənimin üfüqündən işıq saçdı,
Nur çilədi torpağıma.
..."Kimsə durmaz önümüzdə" deyənlərin
Önlərində dura bildik.

Bu iki misrada hansı fikir ifadə olunmuşdur?

- ✓ *Cavab üçün göy rəngdə verilmiş sözlərə diqqət yetirin.*
- ✓ *Fikirlərinizi 6-7 cümlə ilə bildirin.*



LAYİHƏ

Qalibiyyət imzasını çəkə bildik,
Qalibiyyət möhürünü vura bildik.

Gözün aydın, Oğuz elim,
Gözün aydın, Çənlibelim,
Gözün aydın, Qarabağım.
Yağı düşmən həmləsinə şax dayandıq.
Qəlbimizdə vətən eşqi, vətən andı.
Bizim olan bizim oldu,
Şanlı vətən bayrağımız zirvələrdə dalğalandı.
Gözün aydın, öz oğlunu
bu vətənçün qurban verən anam mənim,
Öz ərini bu torpaqçün qurban verən
bacım mənim, sonam mənim.

Gözün aydın, atasını itirənim,
Oğlum mənim, qızım mənim,
Qundağında dil açmayan körpəm mənim,
Balım mənim, duzum mənim.
Sinəmizə dağ çəkənin
sinəsində dağ yaratdıq.
Şimşək olduq düşmənlərin ürəyində
arzuları külə döndü,
Göz yaşımı tökənlərin
göz yaşları gölə döndü.
Qobustandan "Ana zağa" kahasından
babam gəlsin,
Qavaldaşı döyəcləsin,
Ellərimi haraylasın,
Dədəm Qorqud söz söyləsin,
Boy boylasın...

Gözün aydın, ana yurdum,
Gözün aydın, Azərbaycan!

*Zaur İlhamoğlu*



✓ *Bu şeir əsasında şəkil çəksəniz, hansı elementlərdən istifadə edərdiniz?*

*Əgər oğula ("Ataya məktub") məktub yazsa idiniz, ona cavabınız nə olardı? Ona hansı xəbəri verərdiniz? Ataya ("Ataya məktub") gözaydınlığı vermək üçün məktub yazın.*

**1.** Şairə görə, Azərbaycan ordusu bunları etdi (şeir əsasında):

*1.* •••    *2.* •••

**2.** *Dağ* sözünün şeirdə ifadə etdiyi mənanı müəyyən edin. Həmin sözü fərqli mənada cümlədə işlədin.

**3.** Azərbaycanla bağlı arzularınızı yazın.

LAYİHƏ

# LAYİHƏNİN YEKUNU



Mətnlərlə tanış olduqdan sonra aşağıdakı plan əsasında danışın.

- *Vətən nədir?*
- *Nə üçün Azərbaycanımız bizə bu qədər əzizdir?*
- *Nə üçün insan öz vətənində azad hesab edilir?*
- *İnsan nə üçün öz yurduna bağlı olur?*

**Yelkənli gəminin 2-ci yelkənində sual işarələrinin yerində nə yazıldığını bilmək üçün aşağıdakı tapşırıqları yerinə yetirin.**

4 qrupa bölünün.

- *Verilmiş sual və tapşırıqların cavablarını müəyyənləşdirin.*
- *Müəyyənləşdirdiyiniz sözlərdən istifadə etməklə cümlələr qurun.*
- *Sözləri əlaqələndirmək üçün yeri gəldikcə uyğun şəkilçilərdən istifadə edin.*

## I QRUP

1. “Daş adamlar” mətnində daşa dönən obyektlərdən biri
2. “İtirilmiş açar” mətnində çərçivəyə alınmış söz, *bədbəxtlik* sözünün əksi
3. Azərbaycan əlifbasının 30-cu və 7-ci hərfləri
4. Nöqtələrin yerində yazılmalıdır:
   Sənsən ... eşqim, sənsən hürr deyəcəyəm ... *(R.Qusarçaylı)*
5. “Vətəndaş” şeirində insanın güc, qüvvə aldığı məkan kimi təqdim edilir: ...
6. Cümləni tamamlayın:
   Qız açarı bulaq başında ...

*Alınan cümlə:* _____________

## II QRUP

1. “Vətəndaş” şeirində insana vəzifələrini xatırladan obyekt kimi təqdim olunur.
2. Nöqtələrin yerinə sözlərdən uyğun gələnini yazın.
   *Doğmalarımızın, əcdadımızın, babalarımızın, atamızın*
   Vətən – ... mədfənidir,
   Vətən – övladımızın məskənidir. *(Abbas Səhhət)*
3. “Ataya məktub” mətnində çərçivəyə alınmış söz
4. Azərbaycan əlifbasının 30-cu və 7-ci hərfləri
5. “İtirilmiş açar” mətnində yaşıl rəngdə verilmiş söz
6. İzahı verilmiş sözü lüğətin köməyi ilə müəyyən edin.
   Bir adamın sakin olduğu, oturduğu yer

*Alınan cümlə:* _____________



LAYİHƏ

## III QRUP

1. Azərbaycan əlifbasının 2-ci və 28-ci hərfləri
2. Nöqtələrin yerinə uyğun ifadəni yazın.
   Azərbaycan əsgərləri ... bayrağı zirvəyə sancmaq arzusu ilə alışıb yanırdılar.
3. "Mən nə etdimsə, Vətən üçün etdim" mətnində Xanoğlan Mikayılova mənəvi güc verən obyekt.
4. Mən, sən, o birlikdə ... adlanır.
5. "Gözün aydın, Azərbaycan" şeirində qırmızı rəngdə verilmiş söz
6. İzahı verilmiş sözü lüğətin köməyi ilə müəyyən edin.
   Nəyi isə saxlamaq üçün birinə inanıb tapşırma ...

*Alınan cümlə:* ____________

## IV QRUP

1. "Mən nə etdimsə, Vətənim üçün etdim" mətnində çərçivəyə alınmış söz
2. Azərbaycan əlifbasının 30-cu və 7-ci hərfləri
3. "Daş adamlar" mətnində bənövşəyi rəngdə verilmiş söz.
4. Nöqtələrin yerinə hansı söz yazılmalıdır?
   Ən əziz duyğudur Vətən ...
5. ... birlikdə *valideyn* adlanır.
6. *Nifrət* sözünün əksi
7. Əlifbadakı hərflərin ardıcıllığına uyğun olaraq sözü müəyyən edin.
   17 7 5 7 24
8. "Ataya məktub" mətnindən götürülmüş "... doğma ana dilimizdə danışırıq" cümləsindəki doğma sözünü hansı sözlə əvəz etsəniz, məna dəyişməz?

*Alınan cümlə:* ____________

*Bu səyahətim zamanı maraqlı hadisələrlə qarşılaşdım.*
*Öyrəndim ki, ...*
*Vətən ... başlayır.*
*Vətən ona görə müqəddəsdir ki, ... .*




LAYİHƏ

# MƏNƏVİ DÜNYAM

*Biz öz milli-mənəvi dəyərlərimizlə fəxr etməliyik. Milli-mənəvi dəyərləri olmayan millət həqiqi millət, həqiqi xalq ola bilməz.*

***Ümummilli lider Heydər Əliyev***

*Mən sizinlə birlikdə mənəvi dəyərlər aləminə səyahət edəcək, bu aləmdə mənəvi keyfiyyətlərin nə olduğunu öyrənəcəyəm.*

*Sizi "Baxmaq, görmək, tətbiq etmək" adlı maraqlı bir səyahətə dəvət edirik.*



*Bir şeyi edə biləcəyinizə inandığınız zaman ağlınız onu etmək üçün yollar axtarmaqda sizə kömək edəcəkdir!*

*Bu səyahətimizdə milli-mənəvi dəyərlər aləmi ilə tanış olacaqsınız. Sağlam, təhlükəsiz mühitdə yaşamaq üçün lazım olan keyfiyyətləri müəyyən edəcəksiniz. Hər mətnin sonunda isə "Dəyərlər ağacı"nda müəyyən etdiyiniz müsbət keyfiyyətləri qeyd edəcəksiniz. Bunun əsasında siz "Mənəvi dəyərlər" (izahı verilməklə) adlı kataloq tərtib edə bilərsiniz.*

*Hazırsınızmı? Elə isə davam edək!*

LAYİHƏ

# LAYİHƏ

1. Baxmaq, görmək və tətbiq etmək...
2. Nəsihət xəzinəsi
3. Qızıma məktub (ixtisarla)
4. Mavi don (ixtisarla)
5. Tək hərəkət
6. Fleyta (ixtisarla)
7. Limon ağacı
8. Üç mirvari (ixtisarla)

# 1 Baxmaq, görmək və tətbiq etmək...



Hər şey adi bir diqqətdən başlayır. Əslində, ən böyük ixtiraların da, ən böyük kəşflərin də kökündə məhz diqqət vardır.



Məsələn; çaydanın qapağına baxan buxar maşınını görən baxışdır.





Tonqalın alovuna baxan həm də hava şarını görən baxışdır.

Yeri də hamı görür, ancaq yerdəki cazibə qüvvəsini müəyyən etmək Nyutona nəsib olmuşdur.

Suyu hamı görür, ancaq sudakı qaldırıcı qüvvəni hər kəs görmür. Bunu ilk dəfə Arximed görmüşdür.



Qurbağanı yükə qoşmaq olmaz. Ancaq Qalvani onun ayağındakı gücü kəşf etmiş, bu isə elektrik batareyalarının kəşfinin başlanğıcı olmuşdur.



Penisillini kəşf edən Fleminq kiflərin ətrafında mikrobun yaşamadığını görmüş və məşhur dərmanını kəşf etmişdi.

Halbuki o vaxta qədər qurbağanı da, kifi də milyonlarla insan görmüşdü.



Alp dağlarında gəzən Leonardo da Vinçinin tapdığı adi bir balıqqulağı ilə paleontologiya elminin əsası qoyulmuşdur.

Ağacın suda üzməsi qayıqların, gəmilərin hazırlanmasına kömək etmişdir.

LAYİHƏ

Məşhur ingilis fiziki Faradey uşaqlıqda bir cildçinin yanında şagird işləyirdi. Bir gün Faradey “Britaniya ensiklopediyası”nı cildləyərkən elektrik bəhsi mövzusu gözünə sataşdı. O gündən Faradey özündə elmə qarşı böyük bir maraq hiss etdi. Bu maraq onu dövrünün ən böyük alimlərindən birinə çevirdi.



Meduzaların suda hərəkəti reaktiv raketlərin hazırlanmasına başlanğıc verdi.



Samuel Braun Tvid çayı üzərində körpü tikmək istəyirdi. Bir gün həyətində bir hörümçək toru gördü. Artıq o, dəmir iplərdən və zəncirlərdən asma körpünü necə çəkəcəyini yaxşı bilirdi.



Klayd çayının altından su borusu keçirmək lazım idi. Bir gün Ceyms Vatt süfrəyə gətirilən bir dəniz xərçənginin qabığına diqqət yetirdi. Onun qabığı müşahidə etməsi və öyrənməsi dəmir borunun icad edilməsinə səbəb oldu.

*“Ailəm” jurnalı*

LAYİHƏ

Dinlədiyiniz “Lotos bitkisi” mətni əsasında sualları cavablandırın.



1 Lotos bitkisi çirkli mühitdə bitsə də, nə üçün yarpaqları təmiz olur?

2 Lotos bitkisi yarpaqlarını necə “təmizləyir”?
1. yarpaqlarını yığmaqla
2. yağış suyunun köməyi ilə
3. yarpaqlarını yellətməklə
4. toz zərrəciklərini hərəkət etdirməklə
5. yarpaqlarını suya sallaması ilə

3 “Lotos bitkisinin fəaliyyəti” nəyə başlanğıc vermişdir?

4 Bu fikirlərdən biri mətndə yoxdur:
1. Lotos bitkisi təmizliyin simvoludur.
2. Lotos bitkisi müqəddəsdir.
3. Çirkli mühitdə yaşayan lotos həmişə təmiz qalır.

5 Fikrə münasibət bildirin və cümləni tamamlayın:
Lotos bitkisini təmizliyin simvolu hesab etmək olar, çünki ... .

6 Uyğunluğu müəyyənləşdirin:



| | | |
|---|---|---|
| a səki | 1 *palçıqlı* | c mühit |
| b su | 2 *çirkli* | d yol |

**1.** Müşahidə etmək nədir? Nəyisə müşahidə etmisinizmi? Müşahidələriniz sizə nə vermişdir?

**2.** Sizin ətrafa baxıb fərqli görə biləcəyiniz hadisə varmı? Fikrinizi nümunələrlə izah edin.

**3.** Mətndə hansı suala cavab yoxdur?
1) Dəmir borunun icadı necə baş vermişdi?
2) Hörümçək torunun quruluşundan istifadə edərək Samuel Braun nə yaratdı?
3) Meduza nəyin başlanğıcına səbəb olmuşdur?
4) Göy cisimlərini hansı alim öyrənmişdir?
5) Elektrik batareyasının kəşfi kim tərəfindən olmuşdur?

LAYİHƏ

7 Aşağıdakılardan hansı mətndə istifadə olunmuş *maddə* sözünün izahı ola bilər?

1) hər hansı bir sənəddə bölgü, paraqraf
2) fiziki cisimlərin əsasını təşkil edən şey

A) 1    B) 1, 2    C) 2

8 *Lotos* sözünün əvvəlinə əlamət bildirən hansı sözlər artırmaq olar?

______________________________

9 Şəkildə gördüklərinizi 3 cümlə ilə təsvir edin.

1) ____________  2) ____________  3) ____________






10 Şəkil əsasında 5-7 cümlədən ibarət mətn tərtib edin.

**4.** Mətndən çıxan əsas nəticə hansı bənddə verilmişdir?

A) Hər gördüyünü deməlisən.
B) Gözlə görüb qulaqla eşitməlisən.
C) Baxmaq heç də görmək demək deyil.
D) Hər bir işdə uğur var.

**5.** Mətnin ideyasını bir cümlə ilə ifadə edin.

______________________________

______________________________

**6.** Kəşflər və ixtiralar cəmiyyətə nə verir?

LAYİHƏ



*Mətnləri yaxşı başa düşmək üçün onların lüğət tərkibini və sözlərin qrammatik mənasını bilmək lazımdır.*

**7.** “Baxmaq, görmək və tətbiq etmək” mətni üçün açar sözlər seçin və fikrinizi əsaslandırın.

**8.** Sözlərin ifadə etdiyi mənaları müəyyənləşdirib oxla birləşdirin.

| | |
|---|---|
| Görmək | nəzərini bir şeyə dikmək |
| Baxmaq | gözləri ilə qavramaq |

**9.** Mətndə (səh.101) çərçivə daxilində verilmiş sözün yerinə uyğun mənasını şərh edib yazın.

| *Söz* | | *Mənasının şərhi* |
|---|---|---|
| | → | |

✓ *Sizə maraqlı gələn və mənasını bilmədiyiniz sözü seçib mənasını izah edin.*

**10.** Aşağıdakı cümlələrdə mavi rəngdə olan sözlərin yazılışı ilə bağlı düzgün variant hansıdır?

1) Qurbağanı yükə qoşma... olmaz.
2) Anca... Qalvani onun aya...ındakı gücü kəşf etmişdi.
3) Samuel Braun Tvid çayı üzərində körpü çəkmə... istəyirdi.

A) q, ğ, ğ, k B) q, q, ğ, k C) ğ, ğ, q, k D) k, ğ, q,q

**11.** Verilmiş sözlərə onun əlamətini bildirən bir neçə söz artırın.

.................... → qurbağa
.................... → qurbağa
.................... → qurbağa

.................... → tonqal
.................... → tonqal
.................... → tonqal

**12.** Mətndən xüsusi isimləri seçərək dəftərinizə yazın. Onları nə üçün xüsusi isim hesab edirsiniz?

LAYİHƏ

## *Araşdırma* "TƏBİƏTDƏ MARAQLI KƏŞFLƏR"

**13.** Araşdırma apararaq bildiyiniz və maraqlı hesab etdiyiniz kəşflər haqqında məlumat toplayıb təqdimat hazırlayın.

- *Təqdimatı qrup şəklində də hazırlaya bilərsiniz.*
- *Təqdimatın daha maraqlı olması üçün forma düşünün.*
- *Təqdimata cəlbedici məlumatlar daxil edin.*
- *Təqdimata maraqlı və rəngarəng şəkillər əlavə edin.*
- *Təqdimatı məlumat və şəkillərə uyğunlaşdırın.*

Qeyd. *Sözlərin düzgün yazılmasına, cümlələrin yığcam olmasına, bir-biri ilə düzgün əlaqələnməsinə diqqət yetirin.*

*Hazırladığınız maraqlı təqdimatları sosial şəbəkədə yerləşdirin. Həmyaşıdlarınızla fikir mübadiləsi aparın.*



*Yəqin ki, siz də nə vaxtsa maraqlı kəşflərin müəllifi olacaqsınız.*

***Sorğu.*** ***Məktəbinizdə "Diqqət nədir?" adlı sorğu keçirin.***

- *İlk növbədə, sorğu üçün suallar tərtib edin.*
- *Suallarla yoldaşlarınıza müraciət edin.*
- *Sorğunun nəticələrini ümumiləşdirin və təqdim edin.*

Hədəf qrupları:
***5-6-cı siniflər***
*Sorğunu evdə valideynlərinizlə, yaşadığınız yerdə yaşıdlarınızla da keçirə bilərsiniz.*

**14.** Sorğunun əsasında "Diqqət nədir?" mövzusunda mətn tərtib edin.

*Mətndə öyrəndiyiniz hansı keyfiyyəti dəyərlər ağacında qeyd edərdiniz?*






LAYİHƏ

# 2 Nəsihət xəzinəsi



Nizami XII əsrdə yaşamış Azərbaycan şairidir.

O, yazdığı 5 poema ilə ədəbiyyata bir çox yeni fikirlər, yeni obrazlar gətirmiş, zəngin söz xəzinəsi yaratmışdır.

Nizami vətənini, doğma yurdunu çox sevmişdir. Əsərlərində gənclərə tövsiyələr vermiş, onları vətəni sevməyə, qorumağa, faydalı və yaxşı işlər görməyə çağırmışdır.



**1. YEDDİ GÖZƏL**

*İnsan yem dalınca qaçmasın gərək,*
*Quşdan ayıq olsun, zirəkdən zirək.*

**2. YEDDİ GÖZƏL**

*Yaxşı ad qazanmış gözəl dost ara,*
*Onda yetişərsən ağ günə, vara.*
*Xoş ətirli bir dost yaxşıdır, inan,*
*Hərzə-hərzə durub danışanlardan.*

**3. LEYLİ VƏ MƏCNUN**

*Bir dostun da olsa eyibli əgər,*
*Yüzünün adına ləkə yetirər.*
*Çox gözəl olsa da, eybi gizləmək,*
*Dost dostun eybini örtməsin gərək.*

**4. YEDDİ GÖZƏL**

*Ehtiyatsız bir quş düşərsə tora,*
*Başqa yüz quşu da sürüklər ora.*





LAYİHƏ



### 5. LEYLİ VƏ MƏCNUN

*Bir olsa yoldaşın, dostun əməli,*
*Daşdan su çıxardar onların əli.*
*Nifaq olan yerdə fəlakət də var,*
*Səadət günəşi birlikdən doğar.*

### 6. SİRLƏR XƏZİNƏSİ

*Məslək, inam, dəyanət*
*Gərək hər bir insana.*
*Sədaqəti töhfətək*
*Verək hər bir insana.*



### 7. LEYLİ VƏ MƏCNUN

*Bacarsan, hamının yükünü sən çək,*
*İnsana ən böyük şərəfdir əmək.*
*Sən də əldən düşüb yorulsan əgər,*
*Sənin də yükünü bütün el çəkər.*

### 8. YEDDİ GÖZƏL

*Çalış, öz xalqının işinə yara,*
*Geysin əməlinlə dünya zərxara.*

### 9. LEYLİ VƏ MƏCNUN

*Səadət kamalla yetişir başa,*
*Xalqa xidmət elə, ədəblə yaşa.*



### 10. YEDDİ GÖZƏL

*Quyuya salsan da yaxşılığı, bil,*
*Yenə qayıdacaq, o itən deyil.*



**1.** Dahi şairimiz Nizami Gəncəvinin yazdığı kəlamlara uyğun atalar sözləri deyin.

**2.** Verilmiş aforizmlərin ideyasını bir cümlə ilə ifadə edin.

**3.** Şairin aforizmlərindən hansını "Baxmaq və görmək" mətni ilə əlaqələndirmək olar? Niyə belə hesab edirsiniz?

**4.** "Eşitməmisənmi bu məhşur sözü,
Hər kim quyu qazsa, düşəcək özü" – verilmiş misralara uyğun gələn bənd hansıdır? Həmin bəndi seçin.

**A)** Dünyanın işini yaxşı düşün sən,
Nə əksən, onu da sən biçəcəksən.
Yaxşı iş də görsən, pis iş də, inan,
Unutmaz onları bu qoca dövran.

**B)** Pisdən yaxşılıqla qorunmaq mümkün
Dünyada yaxşılıq hər şeydən üstün.

✓ *Aforizmlərdə ifadə olunan fikirlərə münasibət bildirin.*

**5.** Nizami hikmətli kəlamları ilə gənclərə hansı məsləhət və tövsiyələri verir?

**6.** Nizaminin aforizmlərini ifadə etdiyi ideyaya görə aşağıdakı cədvəl əsasında qruplaşdırın.

| zəhmət, əmək | yaxşı dost | dostluq | birlik | ağıl | xalqa xidmət | ətrafa hörmət | insanlara yardım | sədaqət, etibar | |
|---|---|---|---|---|---|---|---|---|---|
| 7 | ... | ... | ... | ... | ... | ... | ... | ... | ... |

✓ *Hansını müəyyən edə bilmədiniz?*

✓ *Sonuncu xanada nöqtələrin yerinə nə yazardınız?*

## Müzakirə

- *Yaxşılıq nədir?*
- *Kiməsə yaxşılıq etmisinizmi?*
- *Yaxşılıq etdiyiniz kim olub?*
- *Etdiyinizi nə üçün yaxşılıq hesab edirsiniz?*
- *Sizə hansı yaxşılıq edilib?*
- *Nə üçün sizə edilənin yaxşılıq olduğunu düşünürsünüz?*
- *Həmin hadisəni və fikirlərinizi dostlarınızla bölüşün.*



LAYİHƏ

**7.** 6-cı aforizmdə *sədaqət* sözünü hansı sözlə əvəz etmək olar?

**8.** 5-ci aforizmdə hansı sözlər eyni mənanı ifadə edir?

**9.** 9-cu aforizmdə *kamal* sözünü hansı sözlə əvəz etsən, məzmun dəyişməz?

**10.** 3-cü aforizmdə sonuncu misranı tələffüz qaydasına uyğun şəkildə yazın.

**11.** 2 və 4-cü aforizmlərdə ad və əlamət bildirən sözləri qruplaşdırın.

**12.** 9-cu aforizmdə hansı sözlər xüsusi isim kimi işlənə bilər? Niyə?

**13.** 10-cu aforizmdə hansı sözdə q ⟶ ğ əvəzlənməsi baş vermişdir?

**14.** İlk cümləsi verilmiş mətni davam etdirin.

Nizaminin nəsihətlərini oxuyub bu nəticəyə gəldim ki, biz ...

✓ *Nizami Gəncəvinin müxtəlif mövzulara həsr olunmuş aforizmlərini toplayın.*

✓ *Aforizmlərə uyğun şəkillər çəkin.*

✓ *Məktəbdə hazırladığınız materialların sərgisini təşkil edin.*

*Mətndən öyrəndiyiniz hansı keyfiyyəti "Dəyərlər ağacı"nda qeyd edərdiniz?*




LAYİHƏ

# 3 Qızıma məktub *(ixtisarla)*



I HİSSƏ

*Ailədə bizə qayğıkeşlik, insanlara hörmət, Vətənə, doğma dilimizə sevgi öyrədilir.*

*Gözəl qızım!*

Başını dizimə qoyub yatırsan. Sənə baxdıqca, ipək saçlarını oxşadıqca qəlbimə xoş hisslər dolur. Körpəliyin, şən qığıltıların, atdığın ilk addım, sözlərin, boynuma sarılmağın və daha nələr yadıma düşür. Gülümsəyirəm, həm də kövrəlirəm. Mən səninlə bağlı hər şeyi ürəkdən istəyərək etdim. Sən ağlayan kimi yanına ilk qaçan özüm olmağa çalışdım. Birlikdə oyunlar oynadıq, toza bulaşdıq, bir-birimizi su ilə islatdıq, küçələrdə qaçdıq, bəzən dəlicəsinə nəyəsə güldük.

... Böyüyürsən. İllər tez keçir, qızım. Sən böyüdükcə sənlə bağlı xəyallarım da dəyişir!

Son zamanlar oxuduğum hər uğur hekayəsi məni uzaqlara apardı. Səni düşündüm, oxuduqlarımı səninlə əlaqələndirdim. Səni gah ağ xalatda, gah sinif otağında, gah da laboratoriyalarda təsəvvür etdim. Adının qarşısına fəxri adlar düzdüm... Bunların hamısı mənim xəyalımdır. Yaxşı bilirsən, seçiminə qarışan deyiləm. Qəlbinin səsini dinləyərsən, düşüncənin səni apardığı yerə gedərsən. Mən də bacardığım qədər sənə dəstək olacağam. Amma bir şeyi unutma! Harada olmağından, hansı peşəni seçməyindən asılı olmayaraq, insanları sev, insanlığa töhvə verməyə çalış. Elə yaşa ki, bir gün iş yerini dəyişməli olsan, insanların nəzərindəki yerin dəyişməsin. **Haqsızlıq** etmə, xeyir-dua və alqış qazanmağa çalış!

Sən böyüsən də, mənim üçün həmişə balacasan. Amma sən böyü, qızım. Qəlbindəki dünya böyüsün, uğurlarının miqyası böyüsün, amma nifrətin, kinin, qəzəbin böyüməsin. Qəlbin bir günəş olsun, bacardığın qədər hər yeri isit. Mən sənin elə bu cür olacağına ürəkdən inanıram.

LAYİHƏ

Dinlədiyiniz “Oğluma nəsihət” mətni əsasında sualları cavablandırın.

1 Sxemi tamamlayın.




2 Mətnlə bağlı fikirlərdən hansı düzdür?

A) Nizami bu fikirləri yalnız oğluna deyir.
B) O, oğluna papaqçılıq sənətini tövsiyə edir.
C) Şair oğluna ata adından fayda götürməyi tövsiyə edir.
D) Nizami bu nəsihətləri təkcə oğluna deyil, bütün gənclərə deyir.

3 *Səadət kamalla yetişir başa,*
*Xalqa hörmət elə, ədəblə yaşa* – misralarında ifadə olunan fikri 1-2 cümlə ilə yazın.

______________________________________________

4 *Bir insan əliboş gəzməsin gərək* misrasını necə başa düşürsünüz? Şair bu misralarla nə demək istəyir?

5 *Səadət kamalla yetişir başa* misrasındakı *yetişir* sözü hansı mənada işlənmişdir? Həmin sözü fərqli mənada cümlədə işlədin.

6 Sizcə, mətndən hansı ibrət dərsini götürmək olar? Fikrinizi konkret nümunələrlə əsaslandırın.

7 Verilmiş sözləri tələffüz qaydalarına uyğun yazın.

məndən [ .................... ]
vicdan [ .................... ]
yarımçıq [ .................... ]

LAYİHƏ

## II HİSSƏ



Səninlə fəxr etdiyim məqamlar daha çox olub! Yadımdadır, bir dəfə uşaq əyləncə mərkəzlərinin birində növbəyə durmuşdun. Əlində mənim verdiyim pul vardı, özün üçün oyun kartı alacaqdın. Kassanın yanında isə bir yardım qutusu qoyulmuşdu. Üstündə də gülümsəyən azyaşlı bir qız şəkli vardı. Şəklin altına vurulmuş kağızda qızcığazın ağır xəstəlikdən əziyyət çəkdiyi deyilir, sağalması üçün insanların köməyinə ehtiyacı olduğu bildirilirdi. Sən yazını oxudun. Mən kənardan sənə göz qoyurdum, nə edəcəyini gözləyirdim. Oxuyub qurtaran kimi əlindəki pulu qutuya atıb yanıma gəldin, artıq oyuna həvəsin qalmadığını dedin. Bu hadisəni həyatımın sonuna kimi unutmayacağam, qızım. Həmin an səni kəşf etmişdim, həssas bir qəlbinin olduğunun şahidi olmuşdum. Yeni planet kəşf edən bir alim məni görsəydi, öz kəşfini unudar, sevincimə qibtə edərdi. Sən həmişə belə ol, hiss edərək yaşa, bir təbəssümlə də olsa, məlhəm olmağa çalış.

Bu gün məktəblisən! Dərsdə yeni nələrsə öyrənməyə çalışırsan. Tez böyüməyi arzulayırsan. Bir hissəsi dəyişən, bəzisi dəyişməz qalan xəyalların var. O xəyalların sənin saflığının göstəricisidir. Orada hər şey mükəmməldir. Sevdiklərin də yanındadır. Ancaq həyatda çətinliklər də var. Çətinliklərdən necə çıxacağın bu gün öyrəndiklərindən, müşahidələrindən asılıdır. Sən həmişə doğru bildiyini et.

Sən yaradanın mənə ən böyük hədiyyəsisən, qızım... Bil ki, yaşadığım müddətcə səni ürəkdən sevəcək və səndən tükənməz sevgi gözləyəcəyəm.

*Vüqar Adil*

LAYİHƏ

**1.** Məktubu bəyəndinizmi? Nə üçün? Sizə belə məktub yazılsa idi, əlavə nələri eşitmək istərdiniz?

**2.** Mətndə qızın saf qəlbli, insansevər olması hansı cümlədə ifadə olunmuşdur?

**3.** Atanın məsləhəti qızında hansı dəyərləri formalaşdıra bilər?

**4.** Atanın qızına verdiyi nəsihətlər Nizaminin hansı misraları ilə eyni fikri ifadə edir?

**5.** Nizami Gəncəvinin "Oğluma nəsihət" şeiri və Vüqar Adilin "Qızıma məktub" mətnindəki hər iki ata obrazının oxşar və fərqli cəhətlərini müəyyənləşdirin.

oxşar cəhətlər

Qızına nəsihət verən ata



Oğluna nəsihət verən ata

**6.** Ailədə qarşılıqlı inam, etibar, hörmət, sevgi olmasa, nə baş verər? "Dünya içində bir aləm" mətnində ailənin necə təqdim olunduğunu xatırlayın və müqayisə aparın.

**7.** Hər iki ata nə üçün peşə seçimini övladının ixtiyarına buraxır? Sizcə, sevmədiyin peşə ilə məşğul olmaq, bu peşədə çalışmaq hansı nəticələrə gətirib çıxarar? Fikirlərinizi nümunələrlə əsaslandırın.

**8.** Sxem əsasında danışın.

*Ana* → *"Nişan üzüyü" hekayəsində*; *"İtirilmiş açar" hekayəsində*

*Ata* → *"Qızıma məktub" mətnində*; *"Oğluma nəsihət" mətnində*

✓ *Hər bir əsərdə valideyn övladı üçün narahatdır. Bu narahatlığın səbəbi nədir?*

**9.** Sizcə, insan niyə tərbiyəli olmalıdır? İnsanın tərbiyəsi, sağlam ruhda böyüməsi istiqamətində sizə verilən məsləhətlərdən hansıları səsləndirə bilərsiniz? Həmin məsləhətlərə əməl etməklə hansı nəticəni əldə etdiyinizi söyləyin.

**10.** "Cəmiyyət və insanlıq üçün yararlı olmaq" dedikdə nə başa düşürsünüz? Hər iki mətndə bu fikirlər necə təqdim olunur?

✓ *Sualı cavablandırmaq üçün "Şarların köməyi", "Pərvizin həyatı", "Daş adamlar" və digər mətnlərdən də istifadə edə bilərsiniz.*

LAYİHƏ

**11.** Bu izah mətndə altından xətt çəkilmiş hansı sözün ifadə etdiyi mənadır?

*Bir şəxsin və ya əşyanın insan təsəvvüründə canlanan surəti*

## Müzakirə

*Xəyal nədir?*
*Xəyallarınız varmı?*
*Xəyallarınızı bölüşmək istərdinizmi?*



**12.** Verilmiş sözlərə yaxınmənalı sözlər deyin.

*ürək* → ( ) → ( )

*istək* → ( ) → ( )

*dəstək* → ( ) → ( )

✓ *Sözləri cümlədə işlədin. Sizcə, həmin sözlər bir-birini əvəz edə bilərmi?*

**13.** Mətndə (səh. 112) göy rəngdə verilmiş sözlərə əks mənalı sözlər müəyyən edin. Həmin sözləri cümlədə işlədin. Nə hiss etdiniz?

**14.** Mətndə (səh. 110, 112) qırmızı rəngdə verilmiş ifadələri elə sözlərlə əvəz edin ki, cümlənin məzmunu dəyişməsin.

**15.** *Təbəssüm, gülümsəmək, gülmək, qəhqəhə çəkmək* sözləri arasında məna fərqi varmı? Fikrinizi nümunələrlə əsaslandırın. Sözləri şəkillərlə uyğunlaşdırın.




**16.** Nə üçün mətndə xüsusi isimlər yoxdur?

**17.** Mətndə bir neçə cümlənin sonunda nida işarəsi qoyulmuşdur. Sizcə, niyə?



LAYİHƏ

**18.** Cümlələrdən fərqləndirilmiş sözləri çıxarın. Sonra hər iki cümləni oxuyun. Nə dəyişiklik baş verdi?

- Sənə baxdıqca, *yumşaq* saçlarını oxşadıqca qəlbimə *xoş* hisslər dolur.
- Səni gah *ağ* xalatda, gah *geniş* sinif otağında, gah da *böyük* laboratoriyalarda təsəvvür etdim.

## QAYDA

Dilimizdə ad bildirən sözlərlə işlənib, onların əlamət və keyfiyyətini bildirən müxtəlif sözlər vardır. Belə sözlərə **sifət** deyilir.

Sifət *necə? nə cür? hansı?* suallarından birinə cavab olur.

*səxavətli insan, yuxarıdakı həyat, dadlı yemək* və s.

**19.** Mətndə (səh. 110, 112) altından xətt çəkilmiş sözlərin əvvəlinə sifət artırın.

**20.** Şəkil əsasında 10 cümlədən ibarət kiçik mətn tərtib edin.

✓ *Sizcə, Nizaminin hansı aforizmi (səh. 106–107) yazınıza uyğun gələr?*

✓ *Niyə belə hesab edirsiniz?*



**21.** “Qızıma məktub” mətnindən Nizaminin “Həyatda faydalı bir elm axtar” misrasına uyğun gələn cümləni seçib yazın. Hər iki cümlədən çıxış edərək mövzu ilə bağlı öz fikrinizi yazın.

*Mətndən öyrəndiyiniz hansı keyfiyyəti “Dəyərlər ağacı”nda qeyd edərdiniz?*




LAYİHƏ

*Biz sizinlə essenin yazılma qaydasını öyrənəcəyik.*



## ESSEnin yazılması

Essenin strukturu

- Giriş hissə
- Əsas hissə → İki və daha artıq abzasdan ibarət olur.
- Nəticə

**Esse** *fransız sözü olub, mənası* ***sınaq, təcrübə*** *deməkdir.*

**Giriş hissə** → *Yazıda nədən danışılacağı barədə ümumi məlumat verilir. Hər hansı bir fikir irəli sürülür.*

**Əsas hissə** →

*Bu hissədə fikirlər inkişaf etdirilir.*

*Onlar sübutlarla, faktlarla əsaslandırılır.*

*Söylənilən fikirlər nümunələr və təsvirlərlə zənginləşdirilir.*

*Əsas ideyanı müəyyənləşdirmək üçün fikirlər öz əksini tapmalıdır.*

**Nəticə** → *Bu hissədə fikirlər ümumiləşdirilir, həm də sübutlar gətirməklə lazım olan fikirlər təqdim edilir. Fikirləri təsdiq etmək üçün fakt, hadisə və s. istifadə edilməlidir.*



LAYİHƏ

**Nümunə** DOĞMA DİLİM

Giriş hissə

Dil ünsiyyət vasitəsidir. İnsanlar dilin vasitəsilə bir-biri ilə danışırlar. Onlar fikirlərini çatdırır, hisslərini, düşüncələrini bölüşürlər.

Dil bizi yaxınlaşdırır, səmimi münasibətlər yaradır.

Əsas hissə

Mənim ana dilim Azərbaycan dilidir. Azərbaycan dili müstəqil respublikamızın dövlət dilidir. Bu dildə söz ustaları əsərlər yazır, bəstəkarlar mahnılar bəstələyirlər.

Dilimizin tarixi çox qədimdir. Bu dildə çoxlu bayatılar, nağmələr, atalar sözləri, nağıllar yaranmışdır. Bu nümunələr xalqımızın tarixi, babalarımızın, nənələrimizin həyat tərzi, adət-ənənəsi haqqında bizə məlumat verir.

Azərbaycanlılar müxtəlif ölkələrdə yaşayırlar. Dilimiz bizi birləşdirən ən vacib amildir. Bu dil “azadlıq”, “qələbə”, “Azərbaycan bayrağı”, “Yaşasın Azərbaycan xalqı” söz və ifadələrini qürurla səsləndirdiyimiz dövlət rəmzimizdir.

Nəticə

Ana dilimiz bizim şərəfimizdir. O, babalarımızdan bizə qalan qiymətli mirasdır.

Ailədə də, məktəbdə də bizə aşılanan dəyərlərdən biri məhz ana dilimizə olan sevgi və hörmət hissidir.

Biz onu sevməli, qorumalıyıq.

**İstiqamət:**
Esse yazarkən

Həcm 15–25 cümlə

1. Sadə cümlələrdən istifadə edin.
2. İsim və sifətlərdən yerində istifadə edin.
3. Xüsusi isimlərin yazılışına diqqət yetirin.

LAYİHƏ

# 4 Mavi don *(ixtisarla)*

*Mətndə göy rəngdə verilmiş sözlərdə hansı hərf yazılmalıdır?*



**... Səidin atası Qarabağ döyüşlərində vəfat etmişdi.** O, Şəhidlər xiyabanında dəfn edilmişdi. Anası tez-tez onları xiyabana aparırdı. Ailə məzarı ziyarət edərək qəbrin üstünə gül qoyurdu. Səid hər dəfə ora gedəndə ürəyi bərk-bərk döyünür, bədəni əsirdi. O, həyəcanını gizlətmək, nə vəziyyətə düşdüyünü anasına və bacısına bildirməmək üçün arxada gəlirdi.

Atasını itirdikdən sonra onların həyatı xeyli dəyişdi. Güzəranları çətinləşdi. Yaxşı adamlar anasını işə düzəltdikdən sonra hər şey çətinliklə olsa da, qaydasına düşdü. Onlar hər səhər birlikdə evdən çıxırdılar. Səid məktəbə, anası isə bacısı Leylanı bağçaya qoyub işə gedirdi.

Səid özünü evin kişisi sayır, anası bazara gedəndə zənbilləri daşıyır, bütün ağır işləri özü görməyə çalışırdı. O, ailəyə kömək etmək üçün işləmək istədiyini bidirsə də, anası ona qəti etirazını bildirmişdi:

– Necə, işləyəsən? A(ğ,q)ıllı balam, hələlik işlərimiz o qədər də pis deyil. Yaşamaq üçün hər şeyimiz var. Sən də, bacın da əvvəl oxuyacaqsınız. Sonra işləyəcəksiniz. Hər şey yaxşı olacaq.

(G,Q)özəl bir yaz axşamı idi. Ailə geyinib evdən bir qədər aralıda salınmış təzə parka yollandı. Hava artıq qaralmışdı. Onlar gəzintidən razı halda yavaş-yavaş evə qayıdırdılar. Rən(g,k)li işıqlarla bəzədilmiş böyü(k,y) vitrinin qarşısından keçərkən Leyla birdən dayandı və dedi:

– Nə gözəl dondur! Səid, bax! Ana, ana, bir bax!

Zərif krujeva və xırda bantlarla bəzədilmiş mavi rəngli uşaq paltarı, doğrudan da, çox qəşəng idi. Leyla bu paltara baxmaqdan heç doymurdu. Səid bacısını soyuq şüşədən güclə ayırdı.

O gündən bir həftə keçmişdi. Ancaq Leyla paltarı unutmurdu. Bu mavi don onun üçün əlçatmaz arzuya çevrilmişdi.

Bir gün Səid dərsdən qayıdırdı. Yolu həmin mağazanın yanından düşdü. İçəri keçib mağazanın müdirinə yaxınlaşdı:

– Bəlkə, mənə bir iş verəsiniz? Pul qazanmaq istəyirəm.

– Yaxşı, valideynlərin sənin işləmək istədiyini bilirmi? Bəs qazandığın pulu neyləyəcəksən?

Səid barmağın mavi dona tuşlayıb qətiyyətlə dedi:

– O paltarı bacıma almaq istəyirəm.

LAYİHƏ



Mağazanın müdiri bir az fikirləşdi. Nəhayət, o, Səidə dedi:

– Ehtiyac olduqca bizə kömək etsən, paltarı götürüb apara bilərsən.

– Elə indi başlayım?

Kişi başını tərpətdi...

*Reyhan Yusifqızı*

✓ *Sizcə, hadisələr necə davam edəcək? Səid paltarı bacısına ala biləcəkmi?*

✓ *Siz Səidin yerində olsa idiniz, nə edərdiniz?*

**1.** Mətnin sonluğu ilə bağlı təxminlərinizi bildirin. Təxminləriniz əsasında hekayənin ardını yaza bilərsiniz.

**İstiqamət:**

- *Hekayəni yazmaq üçün plan hazırlayın.*
- *Plan əsasında hekayəni yazın.*
- *Hekayəni qruplara bölünərək yaza bilərsiniz.*

"Mavi don" mətnini müəllimin ifasında dinləyin.

✓ *Yazılarınızla hekayəni tutuşdurun. Üst-üstə düşən fikirlər oldumu?*

QANUN

UŞAQ HÜQUQLARI HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASININ

## QANUNU

***Maddə 24. Uşağın əmək hüquqları***

*Uşaqların yaşına, səhhətinə, ümumtəhsil və peşə hazırlığı səviyyəsinə uyğun olaraq əmək hüququ vardır.*

*Uşaqların əmək hüququnun yaranmasının və həyata keçirilməsinin şərtləri Azərbaycan Respublikasının əmək qanunvericiliyi ilə müəyyən edilir.*

***Maddə 42. Əmək müqaviləsinin tərəfləri***

*3. On beş yaşına çatmış hər bir şəxs işçi kimi əmək müqaviləsinin tərəfi ola bilər. Qanunvericiliklə müəyyən edilmiş qaydada fəaliyyət qabiliyyəti olmayan şəxs hesab edilmiş şəxslə əmək müqaviləsi bağlanıla bilməz.*

***Maddə 248. Yaşı 18-dən az olan şəxslərin işə düzəlməsində təminatları***

*Yaşı 18-dən az olan şəxslərin azyaşlı olduğuna və ya əmək vərdişlərinin, yaxud peşəkarlıq səviyyəsinin aşağı olmasına görə işə qəbul olunmasından imtina edilə bilməz.*

***Maddə 249. İşə qəbul zamanı yol verilən yaş həddi***

*1. Yaşı 15-dən az olan şəxslərin işə qəbul edilməsinə yol verilmir.*

***Maddə 250. Yaşı 18-dən az olan işçinin əməyinin tətbiqi qadağan olunduğu işlər***

*Əmək şəraiti ağır, zərərli olan iş yerlərində, habelə yeraltı tunellərdə, şaxtalarda və digər yeraltı işlərdə, əxlaqi kamilliyinə mənfi təsir göstərən yerlərdə, ... həyatına, sağlamlığına və ya mənəviyyatına təhlükə törədə bilən digər işlərdə yaşı 18-dən az olan şəxslərin əməyinin tətbiq edilməsi qadağandır. İcbari ümumi orta təhsil haqqında qanunvericiliyin şamil edildiyi yaşı 18-dən az olan şəxslərin bu təhsilini tam həcmdə almaq imkanından məhrum edə bilən işlərə götürülməsi qadağandır.*

LAYİHƏ

DEBAT

*Müdir Səidə zəhmətlə qazanılanın daha şirin olduğunu başa salır.*

**2.** Müdir haqqındakı fikirlərdən hansı düzdür?

1) aqressivdir. 2) tərbiyəedicidir. 3) yardımsevərdir.

**3.** Sxem əsasında müqayisə aparın.

*Səidə bənzər xüsusuyyətlərim* →  ← *Səiddən fərqli xüsusiyyətlərim*

**4.** Mətnin ideyasına uyğun atalar sözünü müəyyən edin.

A) Özgəsinə quyu qazan özü düşər.
B) Ağıl yaşda deyil, başdadır.
C) Nə əkərsən, onu biçərsən.
D) Niyyətin hara, mənzilin ora.
E) İstəyirsən bal-çörək, al əlinə bel-kürək.

**5.** Verilmiş cümlələri tamamlayın və səbəb-nəticə əlaqələrinə aid iki cümlə əlavə edin.

1) Səid bu fikirdə idi ki, nə isə bir iş görmək, zəhmət çəkmək, xeyir vermək lazımdır, çünki ...
2) Ana Səidin işləməsinə etiraz edirdi, çünki ...
3) Səid özünü evin kişisi sayırdı, çünki ...

**6.** Verilən hadisələri cədvəldə mətndəki ardıcıllığa görə sıralayın.

a. Atasını itirdikdən sonra onların həyatı dəyişdi.
b. Mağazanın sahibi mağazada kömək etməyi Səidə tapşırdı.
c. Səidin atası Qarabağ müharibəsində şəhid olmuşdu.
d. Mavi don Leyla üçün əlçatmaz bir arzu idi.

| I | II | III | IV |
|---|---|---|---|
| | | | |

**7.** Uyğunluğu müəyyən edin.

| | |
|---|---|
| *Zərf* | *İncə, ürəyəyatan* |
| *Zəif* | *gücsüz, əldən düşmüş, qətiyyətsiz* |
| *Zərif* | *İçərisinə hər hansı bir kağız qoyub harasa göndərmək üçün xüsusi kağız qab* |



LAYİHƏ

**8.** Mətndə tünd şriftlə verilmiş cümlədə hansı söz düzgün işlənməmişdir?

**9.** Yaşıl rəngdə verilmiş cümlələrdə hansı söz eyni mənanı ifadə edir?

**10.** *Düşmək* sözünü aşağıdakı mənalarda cümlədə işlədin.

yerə enmək ...  yıxılmaq ...  aşağı enmək ...

**11.** Verilmiş birləşmələrə diqqət yetirin. Əlamət bildirən sözlərin ifadə etdiyi mənanı müəyyən edin.

soyuq su – soyuq rəftar  gözəl paltar – gözəl münasibət
böyük bina – böyük arzu

✓ *Özünüz də belə birləşmələr yaradın. Birləşmələri cədvəl əsasında qruplaşdırın.*

*Nümunə:*

| Həqiqidir | Həqiqi deyil |
|---|---|
| daş heykəl | daş ürək |
| ... | ... |

✓ ***Daş ürək, soyuq münasibət*** *və s. birləşmələrin nitqdə istifadəsi nə üçün lazımdır?*

**12.** Əgər rəssam olsaydınız, mətnin hansı hissəsinin şəklini çəkərdiniz? Seçiminizi əsaslandırın. Öz seçiminiz əsasında mətnin müəyyən bir hissəsinin şəklini çəkin.

**13.** Mətnə əsasən Leyla haqqında 10-12 cümləlik esse yazın.
Ona münasibətinizi bildirin.

*Mətndən öyrəndiyiniz hansı keyfiyyəti "Dəyərlər ağacı"nda qeyd edərdiniz?*




LAYİHƏ

# 5 Tək hərəkət



Dinlədiyiniz mətn əsasında sualları cavablandırın.

**1** Mətndə hansı suala cavab yoxdur?

a) Leonard Oskar nə üçün özünü “terminator” adlandırır?
b) Jurnalistlər idmançıya hansı adı vermişlər?
c) Oskara yaşamağa, həyatda öz yerini tutmağa kim kömək edir?
d) Oskar 400 metrlik məsafəni neçə saniyəyə qət edir?

**2** Fikirlərdən biri mətnə aid deyil?

a) Oskar səylərinin nəticəsində uğur qazanır.
b) Zəhmət və bacarıq insanın qələbəsini təmin edir.
c) Ailə və müəllimlərinin dəstəyi onun həyatda inamla yaşamasına şərait yaradır.
d) Daim öz üzərində çalışmaq bacarıqları vərdişə çevirir.

**3** Birini seçməklə cümləni tamamlayın.

*Oskarın 400 metrlik məsafəni 46 saniyəyə qət etməsinin əsas səbəbi ...*

1. çalışqanlığı
2. müəlliminin təkidi
3. daim öz üzərində çalışması
4. qaçdığı məsafələri daim ölçərək müqayisə etməsi

**4** Əlamət bildirən sözlərdən istifadə etməklə cümləni tamamlayın.

Mənim nəzərimdə Oskar ..., ..., ..., ... insandır.

Mətndə qırmızı rəngdə verilmiş sözlərdə nöqtələrin yerinə hansı hərf yazılmalıdır?
*ü*, yoxsa *u*

Yaponiyada bir uşaq on yaşında ikən avtomobil qəzasında sol qolunu itirir. Onun böyük bir arzusu vardı. Oğlan c...do idman növü üzrə yaxşı idman ustası olmaq istəyirdi. Sol qolunu itirdikdən sonra bütün xəyalları alt-üst olur.

*Qəzaların baş verməməsi üçün nə etmək lazımdır?*

**Uşaq** getdikcə özünə qapanırdı. Valideynləri ona kömək etmək qərarına gəlir. Atası Yaponiyanın ən məşhur idman ustalarından birinin yanına gedir. Əhvalatı ona danışır. Atanı diqqətlə dinləyən **idmançı** uşağı onun yanına gətirməsini xahiş edir.

LAYİHƏ





**5** Sözləri uyğun cümlələrə yerləşdirin.

*doğramaq, amputasiya etmək, kəsmək*

1. Ağacın qurumuş budaqlarını ...
2. Əti ... üçün iti bıçaq gətirdilər.
3. Müalicəsi mümkün olmadığına görə xəstənin qolunu ...

**6** Bunlardan biri mətndə işlənən *ülgüc* sözünün izahıdır:

- Tük qırxmaq üçün iti bıçaq
- Müxtəlif alətlərin kəsici tərəfi, bıçağı
- Ortadan bənd edilərək bir-birinə çarpaz şəkildə olan iki hissədən ibarət kəsici alət

**7** Məntiqi ardıcıllığı tamamlayın.

*qəhrəman* → *qorxaq* → *igid*          *müxtəlif* → ... → ...

... → *köhnəlik* → ...          ... → ... → *kiçik*

**8** Mətni → bəyəndim, → çünki → ...
Mətni → bəyənmədim, → çünki → ...

Ata evə gəlir. Baş verənləri oğluna danışır. İdmançının sabah onları gözlədiyini bildirir. Uşaq dodaqlarını büzərək ağlayır: “Bu tək qolumla nə edəcəyimi düşünmüsənmi, ata!”

Ertəsi gün ata çətinliklə də olsa, **oğlunu** yola gətirib müəllimin yanına aparır. Müəllim uşağı məktəbə dəvət edir. Uşaq əvvəlcə etiraz edir, lakin müəllimin fikrinin ciddi olduğunu görüb məktəbə daxil olur. Müəllim onu məşq otağına gətirir. İsinmə hərəkətlərindən sonra müəllim ona bir hərəkət göstərir və deyir:

– Bütün günü bu hərəkəti məşq edəcəksən.




LAYİHƏ

Uşaq bütün gün deyil, bütün həftə ərzində yalnız bu hərəkət üzərində işləyir. Sonra müəllimdən soruşur:

– Müəllim, bir həftə ərzində eyni hərəkəti məşq etmişəm. Üzərində işləyib öyrənmişəm. Artıq başqa bir hərəkətə keçə bilərikmi?

Müəllimin cavabı çox qısa və konkret oldu:

*Təxminim:*

Sizcə, müəllimin cavabı necə olacaq?

*Əslində*

Bir müddət sonra uşaq yenə də eyni xahişlə müəlliminə müraciət edir. Müəllim cavabında deyir:

– Dünyada bu hərəkəti ən s...rətlə edən idmançı sən olmadıqca başqa hərəkətə keçə bilmərik!

Növbəti aylarda da uşaq yorulmadan eyni hərəkət üzərində çalışır. Bir gün müəllim bildirir ki, o, ölkə daxilində keçirilən milli cüdo çempionatında iştirak edəcək və ilk dəfə olaraq döyüşə çıxacaq. Uşaq əvvəlcə eşitdiklərinə inanmır. Sonra həyəcanlı bir səslə müəlliminə deyir:

– Həm bir qolum yoxdur, həm də bildiyim yalnız tək hərəkət var. Ölkə çempionatında qalib olmağa axı heç bir şansım yoxdur.

Müəllim onun etirazını qəbul etmir və keçiriləcək yarışda onun iştirak edəcəyini, qələbənin onun özündən asılı olduğunu deyir.





**1.** Mətnin adı məzmunu ilə əlaqələnirmi? Sizcə, oğlanın qələbəsini nə təmin edir?

**2.** Mətndə altından xətt çəkilmiş cümlədə oxuculara hansı fikirlər aşılanır? Bu fikirlə razısınızmı?

**3.** Aşağıdakı fikirlərdən hansını düzgün hesab edirsiniz?

1. Ailə və müəllim oğlanın qələbəsini təmin edir.
2. Ailə və müəllimin birgə fəaliyyəti oğlanın qalib gəlməsinə səbəb olur.
3. Oğlanın özünə inamı onun qələbəsini təmin edir.
4. Atanın və müəllimin təkidləri onun qalib gəlməsinə səbəb olur.

LAYİHƏ




Çempionatın ilk günündə uşaq həyəcanla rinqə çıxır. Döyüş başlayan kimi cəld bildiyi tək hərəkəti s...rətlə işlədir və qalib gəlir. Beləcə, yarımfinala kimi rəqiblərini məğl...b edir. Finalda bütün m...sabiqələrin qalibi olan ən güclü cüdoçu ilə qarşılaşmalı olur. Oğlan müəlliminə deyir:

– *Müəllim, təsadüfən bu yerlərə qədər qalib çıxdıq, ancaq rəqibimə baxın!* Mən onunla yarışa bilmərəm. Bu yerə qədər gəlmək məni qane edir. İcazə verin, yarışmadan geri çəkilim!

– Olmaz! Özünə inan, çıx və döyüş! Sən bunu bacaracaqsan! Məğlub olsan da, qürurlu ol, ancaq meydandan geri çəkilmə! – deyə müəllim onu qələbəyə ruhlandırır.

Uşaq çarəsiz bir şəkildə rinqə çıxır. Fürsət düşdüyü an bildiyi **fəndi** işlədərək rəqibinə qalib gəlir və çempion olur. Kuboku alan kimi müəlliminin yanına qaçır:

– Müəllim, axı mənim bir qolum yoxdur və bildiyim tək hərəkət var. Necə oldu ki, mən qalib gəldim?

Müəllim ona belə cavab verir:

– Bax, oğlum! Bir ildən artıqdır ki, tək hərəkət üzərində məşq edirdin. O qədər çox çalışdın ki, bu hərəkəti səndən daha yaxşı edən olmadı. Bu isə sənin səbirli olmağının, səylə çalışmağının, həm də özünə güvənməyinin nəticəsidir. İnsanların əskik hesab etdiyi bəzən onların ən güclü tərəfləri ola bilər.

Müəllimin **sözləri** və məsləhətləri uşaq üçün bir həyat dərsi oldu.

*Həyatda belə hadisə ilə qarşılaşmısınızmı? Kimdəsə özünəinam yaratmısınızmı? Yaxud əksinə, özünüzə güvənmək üçün kimsə sizə yardım edibmi? Nəticəsi nə olub?*

**4.** Mətnə əsasən doğru fikirləri müəyyənləşdirin.

1. Fiziki qüsur həyatda uğur qazanmağa əngəl ola bilməz.
2. Müəllim təkid etsə də, uşağın səyi nəticəsiz qaldı.
3. Özünəinam həyatın qüvvəsidir.
4. Səbir və cəsarət insanı qələbəyə doğru aparan müsbət keyfiyyətlərdəndir.
5. Uşaq birinci yarışdan sonra bir daha rinqə çıxmadı.
6. Məğlub olmaq hər şeyin sonu deməkdir.

A) 1,4,5 B) 1,3,4 C) 3,4,6 D) 1,2,6

LAYİHƏ

**5.** Mətndə kursivlə işlənmiş cümlədə ifadə olunan fikrə münasibət bildirin. Necə bilirsiniz, oğlanın qələbəsi təsadüf idimi? Niyə belə hesab edirsiniz?

**6.** Müəllim obrazlarını müqayisə edin.

| "Şarların köməyi" | "Pərvizin həyatı" | "Tək hərəkət" |
|---|---|---|
| ... | ... | ... |

✓ *Müəllim obrazları arasında fərq və ya eynilik nə oldu? Niyə belə hesab edirsiniz?*

**7.** Nizami Gəncəvi hikmətlərindən (səh. 106–107) hansı müəllim obrazına uyğun gəlir?

**8.** Mətnin ideyasını müəyyən edin və ona uyğun atalar sözü yazın.

**9.** Oğlan tək hərəkəti uzun müddət məşq etməklə xəyallarını həqiqətə çevirə bilir. Siz arzu və xəyalların gerçəkləşməsi üçün nə etməlisiniz? Aşağıdakı sxemi tamamlamaqla fikirlərinizi bölüşün.




**10.** Öyrəndiyiniz mətnlər əsasında sxemi tamamlayın.




**11.** Mətnə əsasən nöqtələrin yerinə uyğun gələn sözləri yazmaqla tamamlayın.

Oğlanda ... valideynləri tərbiyə edir.
Oğlanda ... müəllimi yaradır.
Oğlanın qələbəsini ... təmin edir.



LAYİHƏ

Şəkillər əsasında danışın.



3 dekabr Beynəlxalq Əlilliyi olan Şəxslər Günü kimi qeyd olunur. 1992-ci il oktyabrın 14-də BMT 3 dekabr "Əlil İnsanların Beynəlxalq Günü" kimi qeyd olunması haqqında Bəyannamə qəbul etmişdir. Bu günün məqsədi cəmiyyəti əlillik problemlərinin həllinə cəlb etmək, əlilliyi olan bütün insanların hüquqlarını qorumaqdır.



*Əziz dostlar!*

*Ətrafınızda sizin yardımınıza və qayğınıza ehtiyacı olanların olduğunu unutmayın.*

Unutmayın ki, sağlamlıq imkanı məhdud uşaqların daxilində böyük bir potensial yatır. Siz bu potensialdan faydalana bilərsiniz.

- *Eramızdan əvvəl XIII minillikdə Nil çayının daşması Misir kimi güclü bir dövlətin yaranmasına səbəb olur. Herodot Misiri "Nilin töhfəsi" adlandırır.*
- *Gəncədə baş verən zəlzələ bir-birindən gözəl göllərin yaranmasına səbəb olur.*

*Bildiyiniz faktları siz də deyin.*

LAYİHƏ

**13.** Nöqtələrin yerinə uyğun gələn sözləri seçib cümlələri tamamlayın.

*qələbə* *sevincli* *iradəli* *səliqəli* *bacarıqlı*

1. Yarışa başlamaq üçün ... olmaq lazımdır.
2. Azərbaycan Vətən müharibəsində ... çaldı.
3. ... olmaq üçün səbir, dözüm, zəhmət vacib şərtlərdəndir.

**14.** Mətndəki *döyüş* sözü hansı mənada işlənmişdir?

**15.** Sözlərin mənasını müəyyən edin.

| | |
|---|---|
| *çempionat* | *İdman yarışlarında qələbə qazanan şəxs və ya komandaya verilən ad* |
| *çempion* | *Hər hansı bir idman növü və idman oyunları üzrə birincilik yarışları* |

**16.** Mətndən idman sahəsi ilə bağlı sözləri seçib yazın.

**17.** Sözlərin əks mənasını yazın.

*qalib* → *?*    *tək* → *?*    *eyni* → *?*

**18.** Mətndə yaşıl rəngdə verilmiş sözlərdə vurğunun yerini müəyyən edin.

**19.** Mətndə göy rəngdə verilmiş sözlərə sual verin. Həmin sözlərin əlamət, yoxsa keyfiyyət bildirdiyini deyin.

## QAYDA

Sifətlər əşyanın əlamət və keyfiyyətini bildirir.

*Məsələn:*

*əlamət bildirir,* ***necə?*** *sualına cavab verir* ← qırmızı → **çiyələk** → *(ad bildirir,* ***nə?*** *sualına cavab verir)*
dadlı → *(keyfiyyət bildirir,* ***necə?*** *sualına cavab verir)*

*əlamət bildirir,* ***necə?*** *sualına cavab verir* ← hündür → **bina** → *(ad bildirir,* ***nə?*** *sualına cavab verir)*
təmirli → *(keyfiyyət bildirir,* ***necə?*** *sualına cavab verir)*

*əlamət bildirir,* ***necə?*** *sualına cavab verir* ← ucaboy → **qız (oğlan)** → *(ad bildirir,* ***kim?*** *sualına cavab verir)*
ağıllı → *(keyfiyyət bildirir,* ***necə?*** *sualına cavab verir)*



LAYİHƏ

**20.** Mətndə tünd şriftlə verilmiş isimlərin əvvəlinə sifət artırın. Nə dəyişdi?

**21.** Aşağıdakı mətndən sifətləri seçin, onları aid olduğu isimlərlə birlikdə yazın.

Məktəbimizin bağçasında ucaboylu, cavan bir yasəmən ağacı vardı. Yaz gələndə bütün ağaclar kimi o da çiçək açırdı. Bağçadakı ağ-çəhrayı çiçəkli alça, armud, şaftalı və ərik ağacları arasında bu yasəmən ağacının qəribə bir gözəlliyi vardı.

Yasəmən ağacını Aslan müəllim əkmişdi. O hər səhər əkdiyi bu ağacın yanına gələr, budaqları əyib salxım gülləri iyləyər və dayanıb ağacın gözəlliyinə tamaşa edərdi.

... Bir gün ağacda salxım-salxım sallanan güllər arasında çör-çöpdən və palçıqdan düzəlmiş bir yuva gördüm. Dərsdən sonra ağacın yanına gəldim. Cəld ağaca dırmaşdım. Ağacın gövdəsi ağırlığıma davam gətirməyib şaqqıltı ilə sındı. Mən yıxıldım, yuva da uçub töküldü.

- ✓ *Necə bilirsiniz, ağaclar da əlil olurmu? Onların budaq və yarpaqlarının qırılmasının təbiətə, insanlara nə kimi ziyanı vardır? Fikirlərinizi necə əsaslandıra bilərsiniz?*
- ✓ *Yasəmən ağacının bir budağının qırılması hansı xoşagəlməz hadisələrə səbəb olur?*
- ✓ *Əgər oğlan zədə alsa idi, məsuliyyəti kim daşıyacaqdı?*

**22.** “Azərbaycan Respublikasında əlil idmançılara xüsusi dövlət qayğısı var” başlığı altında kiçik mətn hazırlayın. Mətni hazırlayarkən Azərbaycan Respublikasının paraolimpistlərinin həyatını araşdırın, əldə etdiyiniz məlumat və faktlardan istifadə edin. Məlumatlarınızın düzgünlüyünə əmin olduqdan sonra mətni sosial şəbəkələrdə paylaşın.

**23.** Məzmunu saxlamaqla “Tək hərəkət” mətni əsasında yığcam, fərqli hekayə yazın.

*Mətndən öyrəndiyiniz hansı keyfiyyəti “Dəyərlər ağacı”nda qeyd edərdiniz?*




LAYİHƏ

# 6 Fleyta *(ixtisarla)*

*Heç də taleyindən gileylənmə sən,*
*Təmiz əməlinlə yaşa gülər, şən.*
*Hər kəsin taleyi öz əlindədir,*
*Zəhmətlə səadət taparsan hökmən.*

**Hansı düzdür?**

vəziyyət – vəziyət
nəhayyət – nəhayət

**Hansı düzdür?**

| | |
|---|---|
| [tənbəl] | [təmbəl] |
| [sünbül] | [sümbül] |
| [nəhəng] | [nəhənk] |

Birdən-birə **sirli** şəkildə varlanan yoxsul kəndli Marsi Egey dənizinin sahilində yaşayırdı.

Marsi çox tənbəl idi, işləməyi sevməzdi. Heç nə düşünmək istəmirdi. Günü musiqi alətləri düzəltmək və onları çalmaqla keçirdi. Ən sevdiyi aləti fleytanı isə həmişə özü ilə gəzdirirdi. O, ecazkar musiqilərini Egey dənizinin sahilində ifa edirdi.

Dənizin dərinliyində Afina adlı gözəl bir pəri yaşayırdı. Afina musiqinin səsi ilə yuxuya gedir, bu səslə də oyanırdı.

Afina Marsinin yoxsul olduğunu bilirdi.

Bir axşam Marsi yenə Egey dənizinin sahilinə endi. Nəhəng dalğalar sahilə çırpılır, sahil qumunu yuyub aparırdı. Gecəyə qədər fleyta çaldı. Yorulub yatdı. Onu üz-gözünə, üst-başına çırpılan dəniz suyu yuxudan oyatdı. Gözlərini açmışdı ki, qarşısında uzun saçlı, buz taclı, yosun libaslı Afinanı gördü. Marsi heyrət içində ayağa qalxdı.



LAYİHƏ

Afina gülümsəyib fleytanı Marsidən aldı. Fleytanı dənizin köpüyündə yuyub dedi:

– Get və mahnılarını tarlada ifa et. Amma hər gün bura gəlib mənim üçün çalmağı da unutma.

Marsi tarlaya getdi. Fleytanı çalmağa başladı. Marsi çaldıqca tarla sünbüllərlə doldu. Buğda sünbüldən ayrılıb təpələr yaratdı. Dəyirman işə düşüb buğdanı üyütdü. Üyüdülmüş buğda kisələrə doldu. Un kisələri yan-yana düzüldü.

Marsi un dolu kisələri kəndin çörək bişirənlərinə payladı. Əvəzində çörək, süd, qatıq, pendir, yumurta və başqa ərzaqlar aldı.

Marsinin vəzi...əti yaxşılığa doğru dəyişirdi. Artıq onun inəyi, toyuqları var idi. İnək hər gün süd verir, toyuqlar yumurtlayırdı.

Marsi minnətdarlıq əlaməti olaraq hər gün dənizin sahilinə gedib fleyta çalırdı. O, kasıblara da əl tuturdu. Ona görə də camaat onu sevməyə başlamışdı.

Hamını bir şey düşündürürdü. Çox qəribədir, Marsi bütün günü musiqi ifa edir. Məhz bu qədər ağır işləri nə zaman görürdü? Axı bu işlər xeyli vaxt və zəhmət tələb edirdi. Heç kəs bu qəfil qoçaqlığın sirrindən baş aça bilmirdi.

Sən demə, Efialt Marsini izləyirmiş ki, **sirrini** öyrənsin. Nəha...ət, o, fleytanın **sirrini** öz gözləri ilə görür. Efialt kasıb deyildi. Sadəcə, var-dövlət hərisi olan orta yaşlı adam idi.

Efialt gecə Marsinin fleytasını oğurladı. Özünün heyva bağına gəldi. Fleytanı çalmağa başladı.

*Sizcə, nə baş verəcək?*

- *Bağdakı bütün ağacların meyvələri töküləcək, Efialt fleytanı sındıracaq.*
- *Bağdakı bütün ağaclar bol meyvə verəcək, Efialt sevincindən fleytanı qorumaq üçün gizlədəcək.*
- *Bağdakı bütün ağaclar quruyacaq, Efialt hirsindən fleytanı dənizə atacaq.*

Marsi sübh tezdən oyandı. Hər tərəfi axtarsa da, fleytanı tapmadı. Kor-peşman yenisini düzəltməyə başladı. Bir neçə gündən sonra Marsi dənizin sahilinə getdi, çox gözlədi, amma Afina sahilə çıxmadı ki, çıxmadı.

Afina ondan incimişdi. Əslində, Efialtın dənizə atdığı fleytanı özü götürmüşdü. Ancaq elə düşünürdü ki, fleytanı dənizə Marsi atıb. Musiqiçi kədərini dağıtmaq üçün yeni düzəltdiyi fleytasını çalmağa başladı.

*Əfsanə Əliyeva*

- *Sizcə, Afina Marsini bağışlayacaqmı? Niyə belə hesab edirsiniz?*
- *Mətnin ardını təxəyyülünüzə əsasən davam etdirin.*
- *Mətnə əsasən Afinanı müdrik hesab etmək olarmı?*

LAYİHƏ

1. Mətnin məzmununa əsasən cədvəli tamamlayın.

| Problem | Problemin həlli yolu |
|---|---|
| ... | ... |
| ... | ... |

✓ *Siz bu problemi necə həll edərdiniz?*

2. Klasteri mətnə əsasən tamamlayın.




3. Afina nə üçün Marsiyə *"Amma hər gün bura gəlib mənim üçün çalmağı da unutma"* deyir? Sizcə, o, Marsini unutqan hesab edirdimi? Unutqanlıq nəyə səbəb ola bilər?

4. Hansı oxun istiqamətini düzgün hesab etmək olar? Niyə?




5. Aşağıdakı fikirlərdən hansı düzdür?
   a) Afina yaxşılıq edir.
   b) Afina mərhəmət göstərir.
   c) Afina xeyirxahlıq edir.
   d) Afina tərbiyə edir.

6. Sizcə, Marsi fleytanın köməyi ilə əldə etdiklərini itirə bilərmi? Niyə belə düşünürsünüz?

7. Nə üçün Afina Efialtı və Marsini "cəzalandırır?"

8. Cümləni tamamlayın:

   *Afinanın Marsidə tərbiyə etdiyi keyfiyyət ...*

9. Sxem əsasında danışın.






LAYİHƏ

**10.** Mətnin əvvəlində verilmiş epiqrafı mətnin məzmunu ilə əlaqələndirin. Nizami Gəncəvinin hansı aforizmi (səh. 106–107) mətnlə səsləşir? Niyə belə hesab edirsiniz?

**11.** Mətndə təsvir edilən hadisələrin ardıcıllığı harada pozulmuşdur?

1. Marsinin Egey dənizinin sahilində yatması
2. Fleytanın oğurlanması
3. Kənd camaatına kömək
4. Marsinin minnətdarlıq əlaməti olaraq fleyta çalması

**12.** Mətndə çərçivəyə alınmış hissədə hansı cümlə artıqdır? Niyə belə heab edirsiniz?

**13.** Təsəvvür edin ki, Marsi Afinaya teleqram vurur. Sizcə, o, teleqramda nə yaza bilər?

**14.** Marsi Afinaya minnətdarlığını bildirmək üçün hansı sözlərdən istifadə edə bilər?

**15.** Verilənlərin əksi olan sözləri yazın.

*tənbəl* → ?    *təpə* → ?    *yoxsul* → ?

*dolu* → ?    *sevmək* → ?    *sübh* → ?

**16.** Verilən ifadələri bir sözlə yazın.

*yuxuya getmək* → ?    *əl tutmaq* → ?    *baş aça bilməmək* → ?

**17.** Uyğunluğu müəyyən edin.

| | |
|---|---|
| *həris* | bir şeydən təəccüblənmək, çaşqın qalmaq |
| *heyrət* | möcüzələr yaradan, hər kəsi heyrətə salan |
| *ecazkar* | bir şeyə həddindən artıq can atmaq, istəmək |

**18.** 1) *Marsi fleyta <u>çalırdı</u>.*

2) *Qartal qanad <u>çalıb</u> uçdu* cümlələrində altından xətt çəkilmiş sözlər hansı mənada işlənmişdir?

1. ______________________    2. ______________________

✓ *Həmin sözü daha hansı mənada işlətmək olar?*

LAYİHƏ



KROSSVORDU HƏLL ETMƏKLƏ BİZ ƏN VACİB MƏNƏVİ KEYFİYYƏTLƏRDƏN BİRİNİN ADINI ALMIŞ OLARIQ.

**19.** Verilmiş krossvordu həll edin və işarələnmiş yerdə alınan sözü cümlədə işlədin.

1. Dövlət atributi
2. Efialtın qurutduğu ...
3. *Pis* sözünün əksi
4. Müəllim bu əşya vasitəsilə şagirdlərə ibrət dərsi verir
5. *Kamal* sözünün sinonimi
6. Tərbiyənin ilk ocağı
7. Respublikamızın paytaxtı
8. Atanın məktub yazdığı şəxs



**20.** Mətndə altından xətt çəkilmiş cümlədə isimlərin əvvəlinə sifət artırıb yazın. Hansı sözlərin əvvəlinə sifət artıra bildiniz?

**21.** Mətndə qırmızı hərflərlə verilmiş sözlərin sifət olduğunu əsaslandırın.

**22.** Mətndə tünd şriftlə verilmiş sözlərin yazılışına diqqət yetirin. Həmin sözləri şəkilçisiz yazın. Hansı fərqi müşahidə etdiniz?

## QAYDA

Dilimizdə sonu qoşa samitlə bitən sözlər var. Həmin sözlərə samitlə başlanan şəkilçi artırdıqda dəyişiklik baş verir. Yəni sözün sonundakı samitlərdən biri yazılır. *Fənn, haqq, sirr, xətt, hiss* və s. belə sözlərə aiddir.

*Məsələn:*

sirr + li → sirli
sirr + daş → sirdaş

xətt + siz → xətsiz
xətt + keş → xətkeş
xətt + li → xətli

**Qeyd:** *Hiss* sözü bu qaydaya tabe olmur. Çünki həmin söz bir “s” ilə yazıldıqda başqa məna verir.

*Məsələn:*

*Hisdən qaralmış şüşə* – burada: his yanan bir şeydən çıxan xəfif tüstünün əşyaların üzərinə qondurduğu qara çöküntü

*Hisslərin səmimiliyi* – burada: hiss öz hissləri, təəssüratları əsasında bir şeyi qavrama, dərk etmə, başa düşmə qabiliyyəti

*Hiss* sözünə -*sız*[4] şəkilçisi artırıldıqda sözünü kökündəki *s* samitlərindən biri yazılır.
hiss+siz – hissiz



LAYİHƏ

**23.** Cümlələrdə mötərizədə verilmiş sözlər necə yazılmalıdır?

1. Pərviz riyaziyyat *(fənnini, fənini)* çox sevirdi.
2. O, *(haqlı, haqqlı)* olduğunu bildiyi üçün əminliklə danışırdı.
3. Deyilən sözlər onun sevinc *(hislərini, hisslərini)* ifadə edirdi.
4. Günəşin batmasını müşahidə etmək istəyən uşaqlar şüşəni *(hisdə, hissdə)* qaraltdılar.
5. Nərmin mənim ən yaxın *(sirdaşımdır, sirrdaşımdır)*.

**24.** Egey dənizini səyahətə çıxın. Məlumatlarınızın əsasında təqdimat hazırlayın.

*Təqdimat* hazırlamaq üçün müəyyən edin:

- Dənizin yerləşdiyi ərazi
- Dənizin sahəsi, dərinliyi, suyun tərkibi
- Dənizdə yaşayan canlılar və s.

*İstiqamət:*

- Təqdimatınıza fotoşəkillər əlavə edin.
- Təqdimatlarınızı müzakirə edin.
- İrad və təklifləri qəbul edin. Düzəlişlər aparın.

*Təqdimatınızın maraqlı olduğuna əmin olduqdan sonra sosial şəbəkələrdə yerləşdirin.*

*Mətndən öyrəndiyiniz hansı keyfiyyəti "Dəyərlər ağacı"nda qeyd edərdiniz?*




LAYİHƏ

# 7 Limon ağacı

✓ *Mətni intonasiya ilə oxuyun.*

✓ *Mətni oxuyarkən mötərizədəki sözlərdən uyğun olanını seçin.*



NİZAMİ GƏNCƏVİ

*“Su kimi aləmə həyat ver, can ver,*
*Hər rəngə uyğunlaş, dərdə dərman ver.”*

Bir bağçada yan-yana əkilmiş iki limon *(ağacı, kolu)* vardı. Limon ağaclarından biri qollu-budaqlı, digəri daha cılız və meyvələri dadsız idi. Ona görə də böyük ağac fürsət düşdükcə onu acılayır, ona yuxarıdan aşağı baxardı. Ev sahibi də kiçik boylu limon ağacından ümidini kəsmişdi. Kiçik ağacın bir müddətdən sonra quruyacağını düşünürdü. Ona görə də ağaca yaxşı qulluq etmir və vaxtlı-vaxtında sulamırdı.

Bir gün əsən küləklər uzaq-uzaq diyarlardan bağçaya xeyli çiçək toxumu gətirdi. Toxumlar üçün yalnız limon ağaclarının altında yer var idi. Toxumlar limon ağaclarının yanına gələrək onların altında yerləşmək üçün icazə istədilər. Böyük ağac özünü dartaraq: “Əsla qəbul etmərəm! Əgər dibimdə *(məskən, yer)* salsanız, suyu çəkib məni qurudarsınız. Mən susuzluğa tab gətirə bilmərəm”, – dedi.

Əslində, ...



*Cümləni tamamlamaq üçün hansı cavabı seçərsiniz?*

**a)** böyük ağac çiçəklərin gözəlliyindən qorxurdu.

**b)** çiçəklər rəngbərəng açdıqda özünün sarıya çalan ağ çiçəkləri gözəl görünməyəcəkdi.

**c)** sahibi də onu əvvəlki kimi sevməyəcəkdi.

LAYİHƏ

Kiçik ağac isə toxumların təklifinə çox sevindi. Susuz qala biləcəyini heç düşünmədən onların təklifini qəbul etdi: “Sizinlə birlikdə olmaq məni sevindirir. Gözəllik yaradanlardan heç kimə ziyan gəlməz”.

Kiçik ağacın altında cücərən toxumlar bir neçə həftə içində açılıb bütün bağçanı gözəlliyə bürüdü. Onlardan bəziləri tünd-qırmızı, digərləri açıq-bənövşəyi, mavi və çəhrayı rəngdə idi. Balaca limon ağacı onlara əlindən gəldiyi qədər kömək edirdi. Yarı günəşli mühitdə boy atan irili-xırdalı çiçəklər üçün gübrə hazırlayırdı: köhnə yarpaqlarını tökürdü.



Qısa bir müddətdən sonra bağçaya qeyri-adi qoxular yayılmağa başladı. Bağça sahibi bu günə qədər bu qoxunu heç yerdə duymamışdı. Bu qoxunun balaca, rəngbərəng çiçəklərdən gəldiyini bildikdə *(heyrətə düşdü, heyrətləndi)*. Bağban səhərlər erkəndən qalxır, bu gözəl çiçəkləri bol-bol sulayır, onlara gübrə verirdi.

Kiçik limon ağacı da çiçəklərlə birlikdə su içir və sürətlə qol-qanad atırdı. Çiçəkləri sevgi ilə qəbul edən balaca ağac o bağçanın ən böyük ağacı oldu. Budaqları açıq-yaşıl yarpaqlarla örtüldü. Agac öz ağ çiçəklərini açaraq bağçanın gözəlliyinə gözəllik qatdı. Bir-birindən gözəl kəpənəklər buranı özünə məskən seçdi.

Yalnız qalmış əvvəlki “böyük” limon ağacı isə qonşusuna paxıllıq edir, qısqanclıqdan için-için quruyurdu.

*Sizcə, nə üçün **böyük** sözü dırnaq içərisində yazılmışdır?*



**Araşdırma** LİMON AĞACI



Topladığınız məlumatlar əsasında təqdimat hazırlayın.

*Araşdırma aparmaq üçün aşağıdakılar haqqında məlumat toplayın:*

1. *Limon ağacı*
2. *Limonun meyvələri*
3. *Limonun vətəni*
4. *Limonun faydaları*

LAYİHƏ

**1.** Toxumlara yer verməyən limon ağacını xarakterizə edin. Gəldiyiniz nəticələri mətndən seçdiyiniz parçalarla əsaslandırın.

*Nümunə:*

Özündənrazı → *özünü hamıdan böyük və gözəl sayır*

**2.** Sizcə, əvvəllər böyük olan ağacın davranışını kiçik limon ağacı və çiçəklər bağışlayacaqmı?

**3.** Kiçik limon ağacının çiçək toxumlarına yer verməkdə məqsədi nə idi? Sizcə, o, yaxşılığının əvəzini gözləyirdimi? Etdiyiniz yaxşılıqların qarşılığını gözləyirsinizmi? Niyə?

**4.** Nizaminin misralarını "Limon ağacı" mətnindəki obrazlara uyğunlaşdırın.

| Misralar (beytlər) | Obrazlar |
|---|---|
| Yaxşılıq elə, pislikdən qorxma,<br>Yaxşılıq qarşısına yaxşılıq çıxar. | ... |
| Pislik edən sənə pislik etməmiş<br>Yəqin ki, o, pisliyi özü üçün etmişdir. | ... |
| Yaxşılıq elə, quyuya at.<br>O yaxşılıq quyudan belə özünə qayıdar. | ... |

**5.** Mətnin ideyasını bir cümlə və ya atalar sözü ilə ifadə edin.

**6.** Mətnə əsasən demək olmaz.

A) Çiçəklər bağa gözəllik qatırdılar.
B) Su həyat mənbəyidir.
C) Heç bir ağac çiçəklərin yerləşməsi üçün şərait yaratmadı.
D) Bağban çiçəklərin inkişafını, artıb çoxalmasını təmin etdi.

**7.** Həyatınızda sonradan utandığınız, peşmançılıq hissi keçirdiyiniz, mətndəkinə bənzər hadisə baş veribmi? Həmin hadisəni etiraf edə bilərsinizmi? Əgər etiraf etməkdə çətinlik çəkirsinizsə, özünüzə məktub yazın, səhvinizi etiraf edin. Sonra özünüzdə əmələ gələn dəyişikliyi *(əgər olarsa)* müşahidə edin.

**8.** *Toxum, çiçək, ağac, meyvə* sözlərinin mənasını müəyyənləşdirin.

**9.** Mətndə göy rəngdə verilmiş ifadələri bir sözlə yazın.

*Nümunə:* özünü dartmaq – lovğalanmaq

**10.** Mətnin birinci abzasında sifətləri aid olduğu sözlə birlikdə seçib yazın.

**11.** Mətndə qırmızı rəngdə verilmiş sözlərə sual verin. Onların yazılışına diqqət yetirin.



LAYİHƏ

## QAYDA

Bəzi sifətlərin yazılışında defis işarəsindən istifadə olunur. Bu, aşağıdakı hallarda olur:

1. *Qeyri* sözü bəzi sifətlərin əvvəlinə artırıldıqda.
   *Məsələn: qeyri-adi, qeyri-fəal və s.*
2. *Açıq* sözü rəng bildirən sözlərin əvvəlinə artırıldıqda.
   *Məsələn: açıq-qara, açıq-mavi, açıq-qırmızı və s.*
3. Tünd sözü rəng bildirən sözlərin əvvəlinə artırıldıqda.
   *Məsələn: tünd-qırmızı, tünd-yaşıl, tünd-sarı və s.*
4. Eyni sözün təkrarı ilə əmələ gəldikdə
   *Məsələn: sarı-sarı, balaca-balaca, uzaq-uzaq, dadlı-dadlı və s.*
5. Yaxın və ya əks mənalı sözlər birləşdikdə.
   *Məsələn: daşlı-kəsəkli, bağlı-bağatlı, ağlı-qaralı, böyüklü-kiçikli və s.*

Belə sifətlər mürəkkəb sifətlər hesab edilir.

**12.** Mətndəki sifətləri seçib cədvələ əasən qruplaşdırın.

| Defissiz yazılan sifətlər | Defislə yazılan sifətlər |
|---|---|
| ... | ... |

✓ *Sizcə, defislə yazılan sözləri mürəkkəb sifət hesab etmək olarmı? Niyə belə hesab edirsiniz?*

**13.** Cümləni tamamlamaqla kiçik mətn tərtib edin.

*Mən bağbanın yerində olsaydım, ......*

**14.** Aşağıdakı mövzulardan birini seçməklə inşa (esse) yazın.

✓ *İnsan insanın dostu, yoldaşıdır".* ✓ *"Qürur və lovğalıq"*

**15.** Meyvə bağlarında olmuşsunuzmu? Diqqətinizi nə cəlb etmişdir? Nəyi müşahidə etmişsiniz? Düşüncələrinizi 8-10 cümlə ilə ifadə edin.

*Mətndən öyrəndiyiniz hansı keyfiyyəti "Dəyərlər ağacı"nda qeyd edərdiniz?*






LAYİHƏ

# Novruz Cıdır düzündə



Novruz Azərbaycanda təntənəli şəkildə keçirilən milli bayramlarımızdan biridir.

Novruzu qeyd edən hər bir xalq bu bayramla bağlı milli xüsusiyyətlərinə uyğun mövsüm və mərasim nəğmələri yaratmışdır.

Azərbaycanda Novruz bayramında göyərdilən səməni yazın gəlməsinin, təbiətin canlanmasının, əkinçiliyin rəmzidir. Azərbaycan kəndlisi səməni göyərtməklə növbəti təsərrüfat ilinə bərəkət, bolluq arzulamış, bayrama dörd həftə qalmış, hər çərşənbə axşamı və bayram günü tonqal qalamış, mahnılar qoşmuşdur.

Torba atmaq, tonqalın üstündən tullanmaq, səməni yetişdirmək, yumurta döyüşdürmək, yaşlıları ziyarət etmək, ailə üzvlərinin sayı qədər şam yandırmaq, insanların birliyinin rəmzi olan yallı rəqsinin ifası, küsülülərin barışması, xoruz döyüşdürmək və s. Novruz və çərşənbələrdə icra edilən maraqlı adətlərdir.

Bu il Novruz bayramı daha əlamətdar hadisələrlə yadda qaldı.

*Sizcə, hansı əlamətdar hadisələrdən söhbət gedir? Bu əlamətdar hadisələrlə bağlı bizə hansı məlumatı verərdiniz?*





LAYİHƏ

# Novruz dünya xalqlarında

Hər il bahar fəslinin gəlişi müxtəlif xalqlarda müxtəlif formalarda qeyd edilir. Azərbaycanda olduğu kimi, Türkiyə, Pakistan, Əfqanıstan, Qırğızıstan, Türkmənistan və digər xalqlarda da Novruz bayramı təntənəli şəkildə qeyd olunur. Bu bayramların oxşar cəhətləri olsa da, fərqlilik də özünü göstərir.

✓ *Məlumat toplayıb müxtəlif xalqlarda “Novruzun oxşar və fərqli cəhətləri” adlı təqdimat hazırlayın.*



Türkiyə



Pakistan



Tacikistan



Özbəkistan



Qazaxıstan



Türkmənistan

LAYİHƏ

# 8 Üç mirvari *(ixtisarla)*

**1.** Mətni oxuyarkən çərçivələrin ardıcıllığını bərpa edin.

1 Bir dəfə səhər tezdən yerindən qalxıb həyətə düşən baba və nəvə qum üstündə **qəribə** ləpirlər gördülər.

Bu ləpirlər böyük balıq?qulağının izinə oxşayırdı. Piri baba ilə Gülbala bir-birinin üzünə heyrətlə baxıb dinməz-söyləməz ləpirlərin izinə düşdülər.

2 Qədim zamanlarda Nardaran qalasının qırağında, Xəzər dənizinin yaxınlığında bir ev var idi. Piri baba nəvəsi Gülbala ilə bu evdə olurdu. Baba və nəvə gün çıxandan gün batana qədər qonşuların bağ?bağatında işləyir, meynələrin dibini belləyir, bostan becərir, pis?yaxşı dolanırdılar.

3 Gedib Xəzərin sahilində ətəklərini dalğalar döyəcləyən sal qayaya çatdılar.

Gördülər ki, üç mirvari balıqqulağından çıxıb və qayanın üstündə qərar tutub.

Piri baba nəfəsini dərib incinin birindən soruşdu:

– Adın nədir?

– Var?dövlət!

Gülbala babasına dedi:

– Gəl Var-dövləti evimizə aparaq, yoxsulluğun daşını birdəfəlik ataq!

Piri baba əlini qaldırdı, nəvəsini səbirli olmağa çağırdı.

– Qoy o birindən soruşaq! – deyə qoca ikinciyə tərəf döndü.





LAYİHƏ



– Sənin adın nədir?

– Xoşbəxtlik!

– Ay baba, daha bundan gözəl nə olar? – Gülbala sevincindən atılıb?düşdü. – Gəl Xoşbəxtliyi evimizə aparaq. Bizim də üzümüz gülsün, həmişə xoşbəxt olaq!

Piri baba üçüncü mirvariyə müraciət etdi:

– Bəs sənin adın nədir?

– Dostluq-doğruluq!

– Bax, bala, yapış Dostluq-doğruluqdan, onu özümüzlə aparaq!

– Niyə, ay baba? Quru dostluqdan, doğruluqdan nə çıxar?

– Dostluq-doğruluq heç də quru, boş şey deyil, oğul. Bir gün dövlət əldən gedə bilər.

Gülbala soruşdu:

– Bəs xoşbəxtlik necə, baba?

– Oğlum, bir gün qəfil bədbəxtlik baş verib  onu çox ağır vəziyyətə sala bilər.

Gülbala yenə soruşdu:

– Bəs dostluq necə, baba?

– Dostluq hər zaman sənin karına gələ bilər. Dövlətini itirib yoxsullaşanda həqiqi dost qolundan yapışar, dayaq olar. Qoymaz ki, sən ona?buna əl açasan. Doğru dost son tikəsini də səninlə bölüşər. Sənsiz boğazından bir qurtum su da keçməz!

Piri babanın müdrik sözlərini diqqətlə dinləyən Gülbala sal qayaya qalxdı. Dostluq-doğruluq incisini götürüb bağrına basdı. Aşağı düşdü, qaça?qaça evlərinə apardı...

*Süleyman Rəhimov*

*Siz nəyi seçərdiniz?*

*Əgər mənə təklif olunsaydı, mən ... seçərdim, çünki ... .*

**1.** Mətndə xoşbəxtlik, dostluq, yoldaşlıq, yardımlaşmaq, bölüşmək, paylaşmaq və s. kimi dəyərlər haqqında məlumat verilir. Sizcə, bu dəyərlər Azərbaycan xalqının hansı milli bayramında öz əksini tapır?

**2.** Sizcə, həqiqi dostluq dedikdə hansı xarakterlərin olması vacibdir? Fikirlərinizi təqdim edərkən həqiqi hesab etdiyiniz dostunuzla olan münasibətlərinizdən nümunə göstərə bilərsiniz.

**3.** Cədvəli tamamlayın.




LAYİHƏ

## *Araşdırma*. MİRVARİ NƏDİR VƏ NECƏ ƏMƏLƏ GƏLİR?

**DEBAT** *Mirvarinin yaranması bir canlının həyatına son qoyur.*



İnsanlar dəniz ilbizləri ilə hələ çox qədimlərdən tanışdırlar. Onların qida məhsulu kimi istifadəsinin 2000 ildən artıq tarixi vardır. XIX əsrin əvvəllərində Fransa və İngiltərədə dəniz ilbizləri kasıb insanların qidası hesab edilirdi.

Onların daimi ovlanması ilbizlərin nəslinin kəskin şəkildə azalmasına səbəb oldu. Nəhayət, XIX əsrin II yarısında qəfildən dəniz ilbizləri bahalaşdı. Hazırda onlar bir çox ölkələrin mətbəxində delikates hesab edilir.

Dəniz ilbizi yeganə canlıdır ki, süfrəyə diri halda verilir.

Qədimdə romalılar onu Qaliyadan gətirirdi. Məsafənin uzaqlığı onların diri gətirilməsinə imkan vermədiyi üçün oun yeməli hissəsini kəsib götürür, kip bağlanmış amforalarda saxlayırdılar.



*Amfora – Qədim Yunanıstanda istifadə olunan, əsasən, gildən, bəzən də metaldan hazırlanan dar boğazlı iki qulplu antik qab.*









LAYİHƏ

**4.** Mirvarinin yaranması, toplanması və istifadəsi haqqında məlumat toplayın, təqdimat (mövzu ilə bağlı esse də yaza bilərsiniz) hazırlayın.

## *Təqdimat*

*Təqdimatın 4-5 slayddan ibarət olması yetərlidir.*

*Təqdimatınızda göstərilən məlumatların öz əksini tapmasına çalışın:*

1. Mirvari nədir?
2. Mirvari necə yaranır?
3. Mirvari necə əldə edilir?
4. Mirvarinin əldə edilməsi canlı təbiətə ziyan vururmu?
5. Mirvaridən necə istifadə olunur?

- Əgər esse yazmaq istəyirsinizsə, eyni plandan istifadə edə bilərsiniz. Essenin 20–30 cümlədən ibarət olması yetərlidir.
- Topladığınız məlumatlar əsasında dialoq da (seçiminiz əsasında yazılı və ya şifahi) hazırlaya bilərsiniz.

**5.** ““Üç mirvari” mətnində baba obrazına münasibətim” mövzusunda esse yazın.

***Esse yazmaq üçün:***

*1. Giriş üçün cümlələr düşünün (hadisələrin təsvirini vermək üçün giriş cümlələr düşünün).*

*2. Əsas hissəni hazırlayın (mətnə əsasən babanın xüsusiyyətlərini müəyyən edin. Həmin xüsusiyyətlərə münasibət bildirin).*

*3. Sonluq. Özünüz üçün çıxardığınız nəticəni qeyd edin.*

*Essenin həcmi: 20-30 cümlə*

*Mətndən öyrəndiyiniz hansı keyfiyyəti “Dəyərlər ağacı”nda qeyd edərdiniz?*




LAYİHƏ

III bölmənin mətnləri ilə tanış olduqdan sonra aşağıdakı plan əsasında danışın.

- *Mənəvi dəyərlər nədir?*
- *Mənəvi dəyərlər aləminə səyahət sizə nə qazandırdı?*
- *Öyrəndiyiniz müsbət keyfiyyətlər düşüncələrinizdə hansı dəyişikliyi yaratdı?*
- *Özünüzdə müşahidə etdiyiniz, lakin mətnləri öyrəndikdən sonra "Son!" dediyiniz keyfiyyət oldumu?*

**Yelkənli gəminin 3-cü yelkənində sual işarələrinin yerində nə yazıldığını bilmək üçün aşağıdakı tapşırıqları yerinə yetirin.**

4 qrupa bölünün.

- *Verilmiş sual və tapşırıqların cavablarını müəyyənləşdirin.*
- *Müəyyənləşdirdiyiniz sözlərdən istifadə etməklə cümlələr qurun.*
- *Sözləri əlaqələndirmək üçün yeri gəldikcə uyğun şəkilçilərdən istifadə edin.*

## I QRUP

**1.** Dünyanın işini, yaxşı düşün sən,
Nə əksən, onu da sən biçəcəksən.
Yaxşı iş də görsən, pis iş də, inan,
Unutmaz onları bu qoca dövran.

misralarında Nizami Gəncəvi hansı mənəvi keyfiyyəti təbliğ edir?

**2.** "Qızıma məktub" mətnində çərçivədə verilmiş söz

**3.** *Hansı peşəni seçməyindən asılı olmayaraq, insanları sev* cümləsində qırmızı rəngli sözü hansı ifadə ilə əvəz etsəniz, məzmun dəyişməz?

*Alınan cümlə:* ______________________________

## II QRUP

**1.** "Üç mirvari" hekayəsində çərçivəyə alınmış söz

**2.** "Nəsihət xəzinəsi"ndə 2-ci aforizmdə qırmızı rəngdə verilmiş söz

**3.** *Düşmən* sözünün əksi

**4.** İzahına əsasən sözü müəyyən edin:

*Hər hansı bir əlamətinə görə çoxun arasından birinə üstünlük vermək*

**5.** "Tək hərəkət" mətnində çərçivəyə alınmış söz

*Alınan cümlə:* ______________________________



LAYİHƏ

## III QRUP

1. "Qızıma məktub" mətnində göy rəngdə verilmiş söz
2. *1-1+nə* ifadəsini sözlə yazın.
3. *Açan* sözünün əksi
4. Azərbaycan əlifbasının hərf ardıcıllığına görə sözü müəyyənləşdirin

   17 1 24 26 13 18 13 17 18 13
5. İzahına əsasən sözü müəyyən edin:

   *Böyüklərə, yaşlılara, ətrafa göstərilən ehtiram*

*Alınan cümlə:* ___________________________________________

## IV QRUP

1. Nizaminin "**Doğrunu** danışan hörmətli olar…" misrasında fərqləndirilmiş sözü yaxınmənalı sözlə əvəz edin.
2. "Fleyta" mətnində yaşıl rəngdə verilmiş söz
3. *Kiçik* sözünə əks olan söz
4. "Baxmaq, görmək, tətbiq etmək" mətnində çərçivəyə alınmış söz
5. "Baxmaq, görmək, tətbiq etmək" mətnində yaşıl rəngdə verilmiş söz
6. Nöqtələrin yerinə ad bildirən sözlərin hamısına aid ola biləcək sözü seçib yazın.

   *Maraqlı, qeyri-adi, xoşagəlməz, əhəmiyyətli, çevik*

   .... iş, .... hadisə, ..... qərar

*Alınan cümlə:* ___________________________________________

*Bu səyahətim zamanı maraqlı hadisələrlə qarşılaşdım.*

*Öyrəndim ki, …*




LAYİHƏ

# ZƏFƏR YOLU

Biz bu səyahət zamanı artıq teleqramda gizlənən fikri öyrənə biləcəyik.

Mətnləri öyrəndikcə Bakıdan zirvəyə gedən yolu birlikdə müəyyən edəcəyik.

Keçəcəyiniz yolda rast gəldiyiniz rayon və şəhərlərin, kəndlərin adət-ənənəsi, tarixi abidələri, mədəniyyəti və mətbəxi haqqında maraqlı məlumatlar toplayın.

Dostlar, bu səyahətimiz daha maraqlı olacaq.



Topladığınız məlumatlar əsasında maraqlı təqdimatlar, bukletlər, divar qəzetləri hazırlayın. İnşa və esselər yazın. Hazırladığınız materialları sosial şəbəkələrdə yerləşdirin. Səyahət zamanı gördüklərinizi yoldaşlarınızla, yaşıdlarınızla paylaşın.

LAYİHƏ



# LAYİHƏ

1. Günəşə baxan şəhər
2. Günəşli torpaq
3. "Danışan" abidələr
4. Dahi şəhər
5. Musiqi konservatoriyası

# 1 Günəşə baxan şəhər









Təsəvvür edin ki, başqa ölkədən (şəhərdən, rayondan, kənddən və s.) həmyaşıdlarınız sizə qonaq gəlib. Siz Bakı şəhəri, onun görməli yerləri, adət-ənənələri, mətbəxi və s. haqqında onları məlumatlandırmalısınız.

Siz nə edərsiniz? Yəqin ki, ilk növbədə, özünüz məlumatlı olmalısınız.

*Elə isə irəli!*



*İlk məlumatı biz təqdim edirik.*

Professor Sara Aşurbəyli Bakının ən qədim adının "Xunsar" olduğunu yazır. "Xunsar" sözünün mənası "günə sarı", yəni "Günəşə doğru çevrilmiş" deməkdir.

***Bəs siz Bakı şəhərinin adı ilə bağlı hansı məlumata maliksiniz?***



LAYİHƏ









- Sizi Günəşə baxan şəhəri, Bakını səyahətə çıxmağa dəvət edirəm.
- Nə gözəl! Səyahətə elə şəhərin özündən başlayaq.
- Təklif edirəm ki, səyahətə İçərişəhərdən başlayaq. İçərişəhər Bakı şəhərinin Səbail rayonu ərazisində, Xəzər dənizi sahilindəki kiçik təpə üzərində yerləşir.
- Bura Bakının qədim hissəsidir. İçərişəhər həm də tarixi-memarlıq qoruğudur.
- İçərişəhər Bakının simvoludur.
- ...

*Dostların dialoqunu tamamlayın.*



LAYİHƏ





















**Dialoqu davam etdirmək üçün sizə *iki* istiqamət təklif olunur:**

- ✓ *Bakıdakı abidələrdən bir neçəsi haqqında məlumat toplayın.*
- ✓ *Bakının bir neçə qədim və müasir tikililəri haqqında məlumat toplayın.*

Bakı şəhəri haqqında esse yazın.

LAYİHƏ





















Bakıda 12 inzibati rayon vardır. Bu ərazilərin hər biri öz tarixi və müasir tikililəri, adət-ənənələri və mətbəxi ilə seçilir.

✓ *Yaşadığınız inzibati ərazidə (məsələn; Yasamal, Xəzər və s.) mövcud abidələr və ya müasir tikililər haqqında məlumat toplayın.*

*Əraziləri səyahət etməyi tövsiyə edirik.*

LAYİHƏ

**Səyahətə çıxmaq üçün sizə plan təqdim edirik.**

## Plan

1. *İnzibati ərazilərdən birini seçin (yaşadığınız ərazi də ola bilər).*
2. *Həmin ərazidə yerləşən tarixi abidələri müəyyənləşdirib haqqında məlumat toplayın.*
3. *Ərazidə tarixi abidə yoxdursa, müasir, yaxud digər tikililər barədə məlumat əldə edin.*
4. *Ərazinin adət-ənənəsi, mətbəxi haqqında məlumat toplayın.*
5. *Topladığınız məlumatlardan lazımi informasiyaları seçin.*
6. *İnformasiyalar əsasında şəkilli təqdimat hazırlayın.*
7. *Təqdimatınızda statistik cədvəllərdən istifadə edin.*

## *Nümunə:* XƏZƏR RAYONU

Xəzər rayonu qədim yaşayış məskənlərindən biridir. O, Abşeron yarımadasının şimal-şərqində yerləşir. Xəzər rayonu Sabunçu, Suraxanı və Pirallahı rayonları ilə həmsərhəddir. Rayonun ərazisi 336,86 kv. km-dir. Burada 8 yaşayış məntəqəsi var: Mərdəkan, Buzovna, Şüvəlan, Binə, Qala, Şağan, Zirə, Türkan. Rayonda eramızdan əvvəllə aid kurqanlar, tarixi-memarlıq abidələri, qalalar, tikililər, türbə və məscidlər, qayaüstü rəsmlər vardır.



Mərdəkan, "Heydər cümə" məscidi

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 18 aprel 1988-ci il, 135 saylı qərarı ilə Qala qəsəbəsində "Qala" Dövlət Tarix-Etnoqrafiya Qoruğu yaradılmışdır. Qoruqda 234-ə yaxın həyət, məscid və hamam vardır. Bu ərazidə 266 memarlıq və arxeoloji abidə qorunur.

Ən qədim abidə e.ə. III minilliyə aid olan qədim insan yaşayış məskənidir. Deməli, Qala kəndi ərazisində hələ qədimdən insanlar yaşamışlar. Qala kəndi ərazisində olan memarlıq abidələri arasında 5 məscid, 3 hamam, yeraltı kəhrizlər, 4 ovdan, qəsrin qalıqları, məqbərə, sərdabələr və yaşayış evləri olmuşdur.



"Qala" Dövlət Tarix-Etnoqrafiya Qoruğu. Dublalı ev



LAYİHƏ

**Heydər Əliyev adına Beynəlxalq Hava Limanı**



Xəzər rayonu neft rayonu kimi də tanınır.

Heydər Əliyev adına Bakı Hava Limanı da Xəzər rayonu ərazisində yerləşir.

Rayonda 7 mədəniyyət evi, 2 klub, 3 musiqi məktəbi, 7 kitabxana, 3 muzey, 11 istirahət parkı və s. vardır.




## QAYDA

Dilimizdə əşyanın miqdarını və sırasını bildirən sözlər vardır. Belə sözlər say adlanır. Saylar *necə?, nə qədər?, neçənci?* suallarından birinə cavab olur.

*Məsələn:* 15 ***(neçə?)*** şagird, 6-cı ***(neçənci?)*** sinif, xeyli ***(nə qədər?)*** adam

Sayların yazılışında aşağıdakı qaydalar özünü göstərir.

**1.** 15, 26, 38, 2021 və s. bu kimi rəqəmlər sözlə verildikdə ayrı yazılır.
*Məsələn: on beş, iyirmi altı, otuz səkkiz, iki min iyirmi bir və s.*

**2.** Saylara şəkilçi artırdıqda rəqəmdən sonra defis işarəsi qoyulur və şəkilçi yazılır.
*Məsələn: beşdən – 5-dən; altısı – 6-sı* və s.

**3.** Sıra bildirən saylar sözlə yazıldıqda *-ıncı*[4] şəkilçisi sözə bitişik yazılır.
*Məsələn: birinci, beşinci, onuncu, yüzüncü və s.*

**1.** "Xəzər rayonu" mətnindəki sayları seçib, yazılışına diqqət yetirin.

**2.** Mötərizədə verilmiş sayların düzgün yazılışını müəyyən edin.

1. "Neft Daşları" xalq arasında *(yetdi, yeddi)* "gəmi adası" kimi də tanınır.
2. Deyilənə görə, buta *(dokquz, doqquz)* rəqəmindən yaranmışdır.
3. Qədim Bakının simvolu sayılan Qız qalası *(səkkiz, səkgiz)* mərtəbəlidir.

**3.** Verilmiş rəqəmlərə *-ıncı*[4] şəkilçisi artırmaqla cümlələri tamamlayın.

Eramızdan əvvəl (225) ildə zəlzələ nəticəsində Rodos heykəlinin ayaqları sınmışdı. (2016) ildə keçirilən rəy sorğusunda Bakı (5) yerdə qərarlaşıb.

✓ *Özünüz də belə nümunələr yaradın.*

LAYİHƏ

# 2 Günəşli torpaq







Üçyarpaq yonca


Anqut

- Bu dəfə yolumuz Bakıdan Muğan istiqamətindədir.
- Bərəkətli Muğan düzünə Biləsuvar, Sabirabad, Saatlı, Beyləqan, Masallı və s. daxildir.
- Sizcə, nə üçün Muğan "Günəşli torpaq" adlanır?

## *Araşdırma*

Bu rayonla Bakı arasında olan məsafə 170 km-dir. Kür çayının sağ sahilində yerləşir. Şəhər yaxınlığında Suqovuşan adlanan yerdə Araz çayı Kür çayı ilə birləşir.

✓ *Sizcə, söhbət hansı ərazidən gedir?*






Asma körpü. *Novruzlu kəndi*

Görəsən, bu səyahətimizdə hansı maraqlı ərazi ilə tanış olacağıq?

Bu ərazi Kür-Araz ovalığının, Muğan düzünün mərkəzində, Araz çayının hər iki sahilində yerləşir. 1943-cü il 25 maydan müstəqil rayon kimi təşkil edilmişdir. Muğan düzünün mərkəzində yerləşməsi, Araz çayının bol suyu bu ərazidə əhalinin məskunlaşmasına, əkinçilik, heyvandarlıq və quşçuluqla məşğul olmalarına əlverişli şərait yaratmışdır.



***Adını müəyyən etdiyiniz ərazilər haqqında verilmiş mövzulardan birini seçməklə təqdimat hazırlayın.***

1. *Ərazinin tarixi-memarlıq abidələri*
2. *Ərazinin mətbəxi*
3. *Ərazinin adət-ənənələri*
4. *Ərazinin flora və faunası*



Boz qaz



Qovaq ağacı



Məscid



*Yəqin ki, bu ərazidə yaşayan şagirdlər bizə daha maraqlı təqdimatlar təqdim edə biləcəklər.*

LAYİHƏ

# 3 “Danışan” abidələr



**Beyləqanı səyahətə çıxın.** *Təsəvvür edin ki, yaxınlarınıza bu şəhər haqqında məlumat verməlisiniz.*

Beyləqan şəhərininn tarixi abidələri, əhalinin məşğuliyyəti, mətbəxi haqqında maraqlı məlumatlar toplayıb təqdimat hazırlayın.

***Beyləqan rayonu ilə Bakı arasında olan məsafə 265 km-dir.***

***Örənimək** bir çox rayonlarda işlənən dialekt sözdür. **Otu qurtarmaq, ərazinin yaşıllığının olmaması** deməkdir. Mətndə **dağılarmış** mənasına uyğun gəlir.*

Beyləqan vaxtilə yaşıllıqlarla əhatə olunmuş möhtəşəm bir qala-şəhər olmuşdur. O, Azərbaycanın iki qədim şəhərinin – Ərdəbil və Bərdə arasında yaşayış məntəqəsi idi. Karvan yolları da buradan keçirdi.

Mil düzündə, Kəbirli kəndi yaxınlığında üzüm bağları və pambıq tarlaları vardır. Onların arasında 6–9 m hündürlüyündə təpələr bu qədim şəhərin xarabalıqlarıdır. Yerli camaat buranı Örənqala adlandırır.

Qazıntılar zamanı tapılan saxsı qablardan onların Beyləqanda hazırlandığı məlum olur. Bu da Örənqalanın qədim Beyləqan şəhəri olduğunu təsdiq edir. Qala divarlarının uzunluğu 2400 m, hündürlüyü 8 m, qalınlığı 6 m-ə yaxın olub. XII–XIII əsrlərdə Beyləqan Yaxın Şərqin sənətkarlıq, ticarət və mədəniyyət mərkəzi olmuşdur. 1221-ci ilin payızında monqol ordusu Beyləqanı mühasirəyə almış və təslim olmaq tələbi ilə şəhərə elçi göndərmişdir.

Şəhər əhalisi təslim olmaqdan imtina etmişdir. Qızğın döyüşlərdən sonra qala divarlarını dağıdan monqollar şəhəri yandırmışlar.

*Füzuli Sabiroğlu*

**1.** Mətndəki faktları seçib qruplaşdırın.

**2.** Nə üçün mətn “Danışan abidələr” adlandırılmışdır?



LAYİHƏ

# ÖRƏNQALA (əfsanə)

3. Qocanı Beyləqana çəkən nə idi?

4. Sizcə, qoca nə üçün ətrafda ağacların çox olmasını hesab edirdi?

5. Mətnə əsasən Beyləqan meşələri haqqında danışın.

6. Mətndəki hansı faktlar "Örənqala" əfsanəsində deyilənləri təsdiqləyir?

Şəkil əfsanə ilə səsləşirmi?



Keçmiş zamanlarda Beyləqan şəhərində bir qoca yaşayırmış. Bir gün güclü zəlzələ baş verir. Böyük dağıntı olur. Şəhər camaatı qaçır. Həyəcandan qocanın gözləri tutulur. O da şəhəri tərk etməli olur. Xeyli vaxtdan sonra qoca oğlunu yanına çağırıb deyir:

– Beyləqan meşəsi, evim, yurdum yadıma düşüb. Atları hazırla, gedək.

Ata-oğul yola çıxırlar. Ata oğlundan soruşur:

– Oğul, Beyləqanın ortasında uca bir qala var. Hələ görünmür ki?

Oğlan ətrafda boz düzənlikdən başqa, heç nə olmadığını bildirir. Onlar qoca bir qarıya rast gəlirlər. Qarıdan Beyləqana nə qədər yol qaldığını soruşurlar. Qarı onlara yaxınlıqda görünən xarabalıqları göstərir. Oğlan atası ilə birlikdə atını xarabalığa doğru sürür. Birdən atasının başını aşağı əydiyini görür. Atasından soruşur:

– Ata, başını niyə əyirsən?

– Qorxuram, ağacların qol-budaqları gözümə dəyər.

Oğlan təəccüblənir. Öz-özünə: "Nə ağac? Burada ki heç ağac yoxdur", – deyir. Qoca yenə soruşur:

– Oğul, qala görünürmü?

Oğlan:

– Ata, hansı qala?

– Necə hansı qala? Beyləqanın tən ortasındakı hündür qala.

Oğlan deyir:

– Ata, burada xarabalıqdan başqa, heç nə yoxdur.

Ata oğluna inanmır. Qoca öz-özünə düşünür: "Görəsən, o hündürlükdə qala necə olub? Bəs quş girə bilməyən Beyləqan meşəsi hanı?" Qoca dərindən köks ötürüb kədərli-kədərli deyir:

– Beyləqan da örəniyərmiş, qalası da örəniyərmiş.

Deyilənə görə, Örənqala sözü belə əmələ gəlmişdir.



LAYİHƏ

## *Araşdırma*




**Ağac:**

- havanı təmizləyir.
- havanı oksigenlə zənginləşdirir.
- havanı xəstəlik törədən virus və bakteriyalardan təmizləyir.



*Həşəratlar və göbələklər agacları parçalayır.*



*Qidalı maddələr yenidən torpağa qayıdır.*



*Bir ağac digəri üçün qida mənbəyi olur.*

**7.** Verilmiş materiallardan istifadə etməklə ağacla insanın dialoqunu hazırlayın (yazılı dialoq da hazırlaya bilərsiniz).



## Plan:

- Sizcə, meşələr nə üçün lazımdır?
- Meşələr nə üçün zəngin biomüxtəlifliyə malikdir?
- Sizcə, meşədə ziyanvericilər varmı?
- Ziyanvericilərin xeyri nədir?
- Meşəyə ziyan necə dəyir?
- İnsanlar meşədən necə istifadə edirlər?



LAYİHƏ

## QAYDA

*1.* Sıra bildirən sözlər rəqəmlə yazıldıqda şəkilçinin sonuncu hecası defisdən sonra yazılır.

*Məsələn:* 1-ci, 6-cı, 3-cü, 9-cu və s.

*2.* Rum rəqəmləri sıra bildirsə də, onlardan sonra şəkilçi yazılmır.

*Məsələn:* I sinif, X əsr, XII fəsil və s.

*3.* Təqribi saylar defislə yazılır.

*Məsələn:* Üç-dörd (3-4), səkkiz-doqquz (8-9)

**8.** Mətndən (səh. 158) sayları seçib yazılışına diqqət yetirin.

**9.** Sayların işləndiyi cümlələr yazın. Cümlələri səyahətinizlə əlaqələndirin.

## *Beyləqan mətbəxi*




### CANDANÇƏKMƏ

Beyləqanın özünəməxsus yeməkləri var. Onlardan biri həm yaylaq, həm də qışlaqda bişirilən candançəkmədir. Bu, tərəkəmələrin ən çox sevdiyi yeməkdir.

Candançəkmənin hazırlanması üçün süd, yumru düyü, aş lobyası və kişmişdən istifadə edilir. Əvvəlcə bir litr süd bişirilir. Südün içərisinə 1,5 stəkan yumru düyü tökülür. Düyü bişəndə yarım stəkan kişmiş, yarım stəkan ayrıca qaynadılmış lobya və zövqə uyğun duz əlavə edilir. Vam odda 5 dəqiqə bişirilir.

Yeməyin candançəkmə adlandırılması isə ərzaqların südü canına çəkməsi ilə əlaqədardır. Candançəkmə süfrəyə verilərkən üzərinə yağ qoyulur.

*"Mətbəxin yaradılmasına və inkişafına təsir göstərən ən mühüm amil iqlimdir" fikri ətrafında müzakirə aparın.*

***Bu fikirlə razısınızmı? Niyə?***



**10.** Beyləqan haqqında topladığınız əlavə məlumatlara əsasən "Qədim və müasir Beyləqan" mövzusunda inşa yazın. İnşa yazınızda saylardan istifadə edin.

*Necə düşünürsünüz, Beyləqan sizi hansı istiqamətə yola salacaq?*

***Niyə belə hesab edirsiniz?***

LAYİHƏ

# 4 Dahi şəhər

*Səyahətimiz davam edir.*



Bu rayonla Bakı arasındakı məsafə 310 km-dir.

Rayonun əsası 1827-ci ildə qoyulmuşdur. İlkin adı Qarabulaq olmuşdur. 1959-cu ilin aprelində adı dəyişdirilmişdir. Bura dahi şairlərimizdən birinin adı verilmişdir.
Azıx mağarasındakı tapıntılar buranın ən qədim insan məskəni olduğunu sübut edir.
*Sizcə, söhbət hansı rayondan gedir?*













Rayon qiymətli ağac növlərindən ibarət meşələri, böyük ehtiyata malik yeraltı sərvətləri, qeyri-adi flora və faunası, füsunkar təbiəti, mineral maddələrlə zəngin bulaqları ilə də məşhur idi. İşıqlı, Böyük Bəhmənli və Seyidəhmədli kəndlərində yaşı 1400 ilə çatan şərq çinarları təbiət abidəsi kimi mühafizə edilirdi.

*Ərazini virtual səyahətə çıxın.*

LAYİHƏ

1. Şəkildə gördüklərinizi təsvir etməyə çalışın.



Hacı Ələkbər məscidi



Qarğabazar karvansarası



Qarğabazar kəndində Şah Abbas məscidi



Mir Əli türbəsi



Babı kəndi, qədim şəhər qalıqları

2. Seçim əsasında tarixi abidələr haqqında məlumat toplayıb kiçik mətnlər hazırlayın.

*Hazırladığınız mətnləri sosial şəbəkələrdə yerləşdirin.*

LAYİHƏ

Sxem əsasında təqdimat (inşa və ya hekayə də yaza bilərsiniz) hazırlayın.




**Sxem əsasında mətn hazırlamaq üçün nə etməli?**

1. İlk növbədə, sxemi düzgün oxumaq lazımdır.
    - Sxemdə nə təsvir olunmuşdur?
    - Sxem bizə hansı məlumatı (faktı, hadisəni, fikri və s.) çatdırmaq istəyir?
2. Sxem əsasında müəyyən edilən hadisə haqqında məlumat toplanır.
3. Toplanılan məlumatlar içərisindən lazımi informasiya və faktlar seçilir.
4. Əgər təqdimat hazırlanırsa, informasiya və faktlar verilir, fotoşəkillər əlavə olunur.
5. Təqdimat hazırlanarkən giriş, əsas və nəticə hissələr üçün məlumatı düzgün qruplaşdırılır.
6. Fikirlərin təqdimi üçün inşa yazı seçiləcəksə, mətnin tərkib hissələrində veriləcək məlumatlar əvvəlcədən planlaşdırılır.
7. Yazının sonunda hadisələrə münasibət bildirilir.

*Həm təqdimatda, həm inşa yazıda fikirlərinizi sadə, anlaşıqlı cümlələrlə ifadə edin.*

*Təqdimat üçün 3-4 slayd yetərlidir.*

*İnşa yazı üçün 15-20 cümlə kifayətdir.*

LAYİHƏ

















**1.** Quruculuq işləri sizə tapşırılsa idi, nə edərdiniz? İlk növbədə, nədən başlayardınız?

**2.** Füzuli rayonu ilə dialoq qursa idiniz (məktub yazsa idiniz), onunla nədən danışardınız? Ona nə deyərdiniz?

**3.** Teleqram vasitəsilə hansı fikirləri çatdırardınız?

**4.** "Füzuli mətbəxi" adlı divar qəzeti hazırlayın.

**5.** Füzuli rayonu haqqında məlumat toplayın, mətni davam etdirin.

LAYİHƏ

# 5 Musiqi konservatoriyası




Əziz dostlar! Bu səyahətimiz Azərbaycanın ən maraqlı, ən zəngin bir guşəsinədir. Bakıdan götürdüyümüz istiqamət zirvə nöqtəsinə çatmaqdadır.

Bir xalq əfsanəsində deyilir ki, bu yerin adı təbii şəraitinə görə belə adlandırılmışdır.

Bu yer yüksək dağlıq ərazidə yerləşir və Azərbaycanın qədim yaşayış məskənlərindən biridir.

Bu ərazi, sizcə, niyə “Musiqi Konservatoriyası” adlanır?

*Əminəm ki, hamınız bu ərazinin adını bilirsiniz! Elə isə birlikdə deyək.*



LAYİHƏ

Sizcə, mətnlərdə nöqtələrin yerinə hansı məkanların adı yazılmalıdır?

*... Şuşanın simvolu hesab edilir.*



*... Şuşa rayonunda Turşsu aşırımı yaxınlığında yerləşir. Soyuq sulu üç bulaqdan ibarətdir. Suyu turşməzə olduğu üçün belə adlandırılmışdır. Suyunun tərkibində karbon qazı vardır. İçmək üçün yararlıdır.*

*Böyük Kirs*



*... məşhur bulaqlardan biridir. Həm də tarixi yerdir. ... şəhərindən iki kilometr aralıda, meşədə yerləşir. Deyilənə görə, bulaq XVIII əsrdə ilk dəfə onu qalın meşəlikdə üzə çıxarmış İsa adlı əkinçinin adını daşıyır.*



*Turşsu*

*... şəhərinin şimalında dağın üstündədir. Çox mənzərəli yerdədir. Ətrafında Gəlin qayası, Xəzinə qayası, Topxana adlı sıldırım qayalar və meşələr vardır. Burada cıdır yarışları keçirildiyi üçün yer belə adlandırılmışdır.*

*Cıdır düzü*



*İsa bulağı*



*... ən yüksək dağ zirvəsidir (2725 m).*

*Xarıbülbül*

LAYİHƏ



*2020-ci il noyabrın 8-də Şuşa şəhərinin azad olunması münasibətilə xalqa müraciətində Prezidentimiz dedi:*

*Prezidentin çıxışında hansı milli-mənəvi dəyərləri müəyyən edə bildiniz?*

Mən bu gün ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Bu gün şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır! Gözün aydın olsun, Azərbaycan! Gözünüz aydın olsun, dünya azərbaycanlıları!

Bu tarixi bir gündə Azərbaycan xalqına bu müjdəni vermək mənim həyatımda, bəlkə də, ən xoşbəxt günlərimdən biridir. Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!

Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu bizim şanlı Qələbəmizin, Zəfərimizin günüdür!

**İlham Əliyev**

*Azərbaycan Respublikasının Prezidenti*

"Mən Şuşa şəhərini Azərbaycan mədəniyyətinin paytaxtı elan edirəm. Şuşa şəhəri buna layiqdir. Hesab edirəm ki, Şuşa nəinki Azərbaycanın, bölgənin mədəni paytaxtı sayıla bilər".

**İlham Əliyev**

*Azərbaycan Respublikasının Prezidenti*

*Sizcə, nə üçün Prezident Şuşanı "Azərbaycanın mədəniyyət beşiyi" elan etmişdir?*

LAYİHƏ

1. Sxem əsasında düşüncələrinizi yazın




**2.** Şuşa şəhəri haqqında hekayə yazın. İlk cümləri verilmiş hekayəni öz təxəyyülünüzə əsasən davam etdirin.




*Şuşa şəhəri haqqında əlavə məlumatlar toplayın. Maraqlı təqdimatlar, divar qəzetləri hazırlayın. Bacarsanız, video-çarx çəkin. Təqdimat və videolarınızdakı məlumatların, faktların düzgünlüyünə əmin olduqdan sonra sosial şəbəkələrdə yerləşdirin.*






Yəqin ki, artıq teleqramda “gizlənən” sözlərin nə ifadə etdiyini öyrəndiniz.
*Sizcə, teleqramı sizə kim yaza bilərdi?*
Azərbaycan həsrətli Qarabağa məktub yazın. Ona müjdə xəbəri verin.

LAYİHƏ

# Zirvədə görüş

CIDIR DÜZÜ:

Sabahın xeyir, İsa bulağı!

İSA BULAĞI:

Sabahın xeyir! Deyəsən, əhvalın çox yaxşıdır.

CIDIR DÜZÜ:

Niyə də olmasın? Ayrılığa son qoyulub! Biz azad edilmişik!

İSA BULAĞI:

Elədir! Aydın səma altında azad torpaqlarda nəfəs almaq necə də gözəldir! Yenə də doğmalarımızı qoynumuza alacağıq! Onları sərin suyuma qonaq etmək üçün elə darıxmışam!

CIDIR DÜZÜ:

Hələ məni demirsən! Mən də keçirilən cıdır yarışları, Novruz bayramları üçün elə darıxmışdım! Bu il Novruz bayramında sinəmdə qalanan tonqal mənə illərin açısını unutdurdu. Doğma insanları, onların doğma ana dilimizdə bir-birini təbrik etməsi məni elə kövrəltdi ki!

*Qarabağ onların söhbətinə qoşulur.*

QARABAĞ:

Bilirdim, bilirdim ki, yazdığım məktub cavabsız qalmayacaq! Bilirdim ki, Azərbaycan öz balasını darda qoymayacaq! Biz azərbaycanlılar qəlbən torpağa, doğma yurda çox bağlı oluruq! Dostluğa xəyanət etmərik! Amma xəyanət edənləri də cəzalandırmağı, ibrət dərsi verməyi bacarırıq!

*Nazlı xarıbülbül söhbətə qoşulur.*

XARIBÜLBÜL:

Dostlar, mən də çox sevincliyəm! Sevinirəm ki, bu illər ərzində biz unudulmadıq! Əksinə, yaddaşlara daha möhkəm yazıldıq! Bizi yaşadan, xoş günlərə qovuşduran da elə bu oldu!

QARABAĞ:

Bir azdan dostlarımızı qarşılamalıyıq! Sevinirəm ki, dostlarımız bizim teleqrama laqeyd qalmadılar! Zirvəyə gəlib çıxmaq üçün çətinliklərdən keçdilər, düşmənə qalib gəldilər.

Ailədən başlanan və düzgün seçilən yol, əldə etdikləri biliklər, yiyələndikləri mənəvi dəyərlər onların yoluna mayak oldu. Uşaqlar bir daha başa düşdülər ki, vətənpərvərlik, yurda bağlılıq, ana dilinə məhəbbət, sədaqət, böyüklərə və kiçiklərə hörmət, özünəinam kimi müsbət keyfiyyətlərə sahib olmaq üçün ailədə, məktəbdə verilən tərbiyə və bilik onların uğur yolunu müəyyən edir.

XARIBÜLBÜL:

Baxın! Baxın! Dostlarımız bura qalxır!

*Teleqramın izi ilə zirvəyə qalxanlar: Nəzrin, Yusif, Banu və Cəsur dostları ilə görüşürlər.*

**Dialoqun ardını siz yazın:**

- ✓ *Sizcə, nə baş verəcək?*
- ✓ *Onlar bir-birlərinə nə deyəcəklər?*
- ✓ *Hansı fikirləri bir-biri ilə bölüşəcəklər?*



LAYİHƏ

*Yeni yerlər gördük, yeni və fərqli mədəniyyətlərlə, adət-ənənələrlə tanış olduq.*



*Müxtəlif insanlarla tanış olduq.*

*Müxtəlif yeməklər daddıq.*





Bu səyahət zamanı: ...

*Özümüz üçün yeni şeylər kəşf etdik.*



*Müxtəlif insanlarla ünsiyyət qurduq.*





*Müxtəlif tapşırıqların həllini tapa bildiyimiz üçün özümüzə əminliyiniz artdı.*

*Səyahət etmək sizi daha maraqlı və məlumatlı bir insana çevirdi.*

*Bu səyahət zamanı siz nə qazandınız?*




LAYİHƏ

# Lüğət

**abidə** – tarixi əhəmiyyəti olan bir hadisəyə və ya tarixi bir şəxsə xatirə olaraq qoyulan nişangah, heykəl
**acımasız** – rəhmsiz, mərhəmətsiz
**aciz qalmaq** – bir iş görmək iqtidarından məhrum olmaq
**ada** – hər tərəfi su ilə əhatə olunmuş quru
**aforizm** – dərin mənalı fikri ifadə edən sabit söz birləşməsi və ya cümlə
**ağlına batmaq** – inana bilmək, mümkün hesab etmək, inanmaq
**ahəngdar** – uyğun, qaydalı
**ahəngdarlıq** – uyğunluq, müntəzəmlik
**alışıb yanmaq** – od tutub yanmaq, şiddətlə yanmaq, alovlanmaq
**alqış qazanmaq** – *burada:* (müsbət münasibət)
**alt-üst olmaq** – dağılmaq, darmadağın olmaq, puça çıxmaq, heçə çıxmaq
**artel** – müəyyən şərtlərlə bir yerdə işləmək üçün düzəldilən təsərrüfat birliyi; birləşmə, şirkət
**ayrı-seçkilik** – ədalətsizlik, bir tərəfin üstün tutulması
**baş aça bilməmək** – başa düşməmək, anlamamaq, qana bilməmək
**baş çəkmək** – hal soruşmaq, dəymək, yoxlamaq
**bəhs** – *burada:* bir əsərin müəyyən məsələyə həsr olunmuş hissəsi, fəsli, bölməsi
**bəsit** – mürəkkəb olmayan, sadə
**biçmək** – kəsmək, qırxmaq
**büst** – insan bədəninin beldən yuxarı hissəsinin heykəli
**can atmaq** – bir şeyi əldə etməyə və ya həyata keçirməyə həddindən artıq səy göstərmək, bütün varlığı ilə çalışmaq
**can vermək** – son dəqiqələrini yaşamaq, can üstə qoymaq
**cəhd etmək** – çox çalışmaq, səy göstərmək
**cələ qurmaq** – birinə qarşı hiylə qurmaq, tələ qurmaq
**cəngi** – qəhrəmanlıq və cəngavərlik ruhunda hava
**cılız** – çox arıq, balaca, zəif
**cildçi** – cild çəkən usta
**cövlan** – dolanma, hərlənmə
**çevik** – cəld
**dağ çəkmək** – yandırmaq, dərd və kədər vermək
**daraq** – *burada:* silahın sandığına keçirilən patronları yan-yana qoymaq üçün qab, qutu
**daşını birdəfəlik atmaq** – əl çəkmək, azad olmaq, yaxasını qurtarmaq
**dayaq olmaq** – kömək olmaq, arxa olmaq, müdafiə etmək
**dəfn etmək** – basdırmaq, torpağa təslim etmək
**dəhliz** – ev qapısı ilə otaqların qapıları arasında olan üstüörtülü aralıq, koridor
**dəyirman** – dəni üyüdüb una və ya yarmaya çevirmək üçün müxtəlif qurğuları olan karxana, müəssisə
**dikdir** – dik yer, kiçik təpə
**donjon** – qala içərisində qala
**dövran** – zaman, zəmanə, dövr, vaxt, çağ
**dünyəvi** – dünyaya aid olan, dünya ilə bağlı olan
**düşmən kəsilmək** – düşmən olmaq
**ecazkar** – möcüzələr yaradan, hər kəsi heyrətə salan
**eqoist** – özünü bəyənən, özünü yüksək tutan, ancaq öz mənafeyini düşünən adam
**epiqraf** – əsərin və ya onun bölmələrinin başlıqlarından sonra yazılan sözlər
**etiraf etmək** – öz qüsur və nöqsanını inkar etməyib, qəbul etmək, boynuna almaq
**əbədiyyət** – əbədilik, daimilik, həmişə var olan şey
**əcdad** – ata, babalar, ulu babalar
**ədəb-ərkan** – ədəb, tərbiyə, əxlaq, nəzakət qaydaları



LAYİHƏ

**əlacsız** – davasız, dərmansız, sağalmaz, əlacı olmayan
**əlçatmaz** – yetişmək, nail olmaq, əldə etmək mümkün olmayan
**əlini tuşlamaq** – əli ilə bir şeyi və ya bir tərəfi göstərmək, əlini uzatmaq
**əlil** – xəstəlik və ya qocalıq nəticəsində əmək qabiliyyətini itirmiş, şikəst
**əl tutmaq** – *burada:* kömək etmək
**əsirgəmək** – qıymamaq, qıyıb verməmək, xəsislik etmək
**əskik** – bütün olmayan, natamam, çatışmayan
**əzəmətlə dalğalanmaq** – təntənə ilə, vüqarla dalğalanmaq
**faciə** – dəhşətli, ağır nəticəli hadisə, fəlakət, müsibət, bədbəxtlik
**fədakarlıq göstərmə** – öz şəxsi mənafeyini ümumi işə və ya başqalarının işinə fəda etmə, həsr etmə, bu uğurda fədakarcasına çalışma, səy göstərmə
**fürsət** – münasib vaxt, məqam, bir işi görmək üçün əlverişli an
**gilavar** – cənub və cənub-şərqdən əsən külək
**gövdə (*burada* ağac gövdəsi)** – ağacın, ya kolun budaqlarını təpəsinə qədər saxlayan yerüstü hissəsi
**göz qoymaq** – *burada*: baxmaq
**gözlərini çəkməmək** – bir yerə baxıb durmaq, gözünü ayırmamaq
**gözünə sataşmaq** – görünmək, rastlaşmaq
**gülüstan** – güllük, çiçəklik
**güzəran** – dolanacaq, həyat, yaşayış
**heykəl** – heykəltəraş tərəfindən daşdan, tuncdan və s.-dən hazırlanmış insan və ya heyvan surəti
**heyrət içində qalxmaq** – bir şeydən təəccüblənmək, çaşqın qalmaq
**heyrətlənmək** – təəccüblənmək, təəccüb etmək
**hərzə-hərzə danışmaq** – mənasız, boş-boş danışmaq
**həsrət yükü** – ayrılıq, hicran
**hıçqırtı** – səsini içinə alıb ağlarkən boğazdan çıxan qırıq-qırıq səslər
**hüquqi** – hüquqa əsaslanan, hüquq normalarına uyğun olan, hüquq normaları, hüquq qanunları
**hürr** – azad
**xeyir-dua** – səadət, xoşbəxtlik, xoşgün, uğur diləyi
**xəyal** – bir şəxsin və ya şeyin insan fikrində, təsəvvüründə təcəssüm edən surəti; təxəyyül
**xəzri** – Abşeron yarımadasında şimaldan əsən şiddətli külək
**ibrət** – ağır, pis bir hadisədən, işdən alınan dərs
**iddia etmək** – tələb etmək, istəmək
**ixtiyarsız** – özündən asılı olmayaraq, özü istəmədən, qeyri-ixtiyari
**israrla çalışmaq** – təkidlə, inadla çalışmaq
**istehza** – ələ salma, rişxənd etmə
**istiqlal** – müstəqillik, azadlıq
**kamal** – ağıl, zəka, dərrakə
**karına gəlmək** – köməyinə gəlmək
**kif** – çürüyən və ya nəm şeylərin üstündə nazik qat şəklində əmələ gələn yüngül, yumşaq mikroskopik göbələkciklər
**komada qalmaq** – bəzi xəstəliklər nəticəsində özündəngetmə, reflekslərin qan dövranının, tənəffüsün, mübadilə prosesinin pozulması şəklində təzahür edən ağır hal
**kontekst** – mətnin (ona daxil olan ayrıca söz və ya ifadənin mənasını müəyyən etmək üçün) mənaca bitmiş hissəsi
**qane etmək** – razı etmək, təmin etmək, inandırmaq
**qaynaq** – *burada:* bir şeyin qaynayıb çıxdığı yer, mənbə
**qazi** – döyüşdə yaralanmış, Vətən müharibəsində iştirak edib, ağır yaralanan, ətraf orqanlarını itirmiş şəxs
**qeyri-adi** – adi olmayan, görünməmiş
**qəfil** – gözlənilməz, xəbərsiz
**qərar tutmaq** – bir yerdə, ya bir işdə sabitləşmək, dayanmaq
**qətiyyətlə** – dəyanətlə, möhkəm, cəsarətlə
**qısqanclıq** – paxıllıq, qibtə


LAYİHƏ

**qibtə etmək** – başqasının üstünlüyünü, müvəffəqiyyətini, xoşbəxtliyini və başqa yaxşı cəhətlərini görüb, bunların özündə də olmasını arzu etmək, həsrətini çəkmək
**qoca dövran** – qədim, köhnə
**qoxu** – iy
**qol-qanad atmaq** – şaxələnmək, yayılmaq, genişlənmək, inkişaf etmək, böyümək
**qoruq** – təbii-tarixi əhəmiyyətli bitki, heyvan və s. cinslərini qoruyub saxlamaq məqsədi ilə hökumət tərəfindən xüsusi mühafizə altına alınmış yer, meşə və s.
**qoynuna almaq** – ağuşuna, qucağına almaq
**qubar** – kədər, qəm, qüssə
**qundaq** – körpə uşaqları sarımaq üçün sarğı ləvazimatı
**quraqlıq** – havaların isti keçməsi ilə bərabər, uzun müddət yağış yağmaması üzündən torpaqda rütubətin çatmaması və bunun nəticəsində əkin və bitkilərin tamamilə, ya qismən quruyub tələf olması
**ləngərləmək** – yırğalamaq, yellənmək
**ləpir** – iz
**ləyaqət** – insanda yüksək mənəvi keyfiyyətləri göstərən xassələrin məcmusu
**maddə** – *burada:* fiziki cisimlərin əsasını təşkil edən şey
**memar** – memarlıq mütəxəssisi, arxitektor
**meydan oxumaq** – müharibəyə, döyüşə, mübarizəyə çağırmaq, hədələmək
**meynə** – üzüm tənəyi
**mədfən** – qəbir, məzar
**məğlub etmək** – müharibədə, yarışda, mübahisədə və s.-də qalib gəlmək, üstün gəlmək
**məhz** – ancaq, yalnız, tək, təkcə
**məxsus** – yalnız birinə aid olan
**məqbərə** – qəbirlərin üzərində xüsusi tikili; türbə, mavzoley
**məlhəm olmaq** – təsəlli olacaq, təskin edəcək şey
**mənfur** – nifrət olunan, nifrətə layiq, çox pis, sevilməyən, istənilməyən
**məskən** – insanın yaşadığı yer, yurd, ev
**məvacib** – maaş, əmək haqqı
**məzar** – qəbir
**miqyas** – *burada:* say mənasında
**müdhiş** – dəhşətli, dəhşət doğuran, vahiməli, qorxunc
**müsibət** – faciə, bədbəxtlik, bəla, fəlakət
**nəcib** – nəcabətli, əsli olan, alicənab, təmiz, pak
**nəfəsi dərmək** – müvəqqəti rahatlanmaq, dincəlmək üçün dayanmaq, azacıq istirahət etmək, yorğunluğunu almaq
**nəş** – meyit, cənazə, ölü
**nifaq** – çəkişmə; ikitirəlik
**örnək** – nümunə, misal
**özbaşınalıq** – hər hansı bir işdə qanuna, intizama, qəbul olunmuş nizam və qaydaya zidd hərəkət
**özək** – bitki gövdəsinin və ya kökünün daha yumşaq olan daxili mərkəzi hissəsi
**özünü dartmaq** – lovğalanmaq
**paleontologiya elmi** – qazıntı nəticəsində tapılan nəsli kəsilmiş ən qədim heyvan və bitkilərin tədqiqi ilə məşğul olan elm
**peşmançılıq** – öz səhvini və ya nöqsanını başa düşərək buma təəssüflənmək
**pərən salmaq** – bir-birindən aralı salmaq, bir-birindən ayırmaq
**pəri** – çox gözəl, məsum, xoşxasiyyət, qadın və ya qız haqqında
**pir** – müqəddəs yer, ziyarətgah
**rəy** – bir şey haqqında fikir, söz
**rifah** – yaşayışda xoş güzəran, firavanlıq, bolluq və rahatlıq
**sal** – *burada:* iri, bütöv
**seyr etmək** – baxmaq
**səadət** – həyatda ən yüksək məmnunluq hissi, sevinc hissi, xoşbəxtlik



LAYİHƏ

**səciyyəvi** – bir şəxsə, ya şeyə xas olan, bir şəxsi və ya şeyi başqasından fərqləndirən
**sədaqət** – dostluqda, məhəbbətdə dəyanət, vəfa, sadiqlik
**sədd** – müxtəlif məqsədlər üçün çəkilən divar, hasar
**səhəng** – su daşımaq üçün misdən və ya gildən düzəldilmiş qulplu, qarınlı, darboğazlı qab
**səxavətli** – əliaçıq, genişürəkli, könlüaçıq
**səy göstərmək** – çalışmaq, əlləşmək, cəhd etmək
**sorğu** – sual, sual etmə
**süngü** – tüfəng lüləsinin başına taxılan ucuşiş silah
**süvari** – ata minmiş atlı
**şəhid** – yüksək amal, məslək, əqidə yolunda ölən, həlak olan, canını fəda edən adam
**şığımaq** – çox böyük sürətlə enərək hədəfə hücum etmək, üzərinə atılmaq
**şirin dilə tutmaq** – şirin sözlərlə aldatmağa, yola gətirməyə çalışmaq
**şücaət göstərmək** – hünər göstərmək, igidlik, qoçaqlıq etmək
**şüurlu** – dərrakəli, düşüncəli
**tab gətirə bilməmək** – özünü saxlaya bilməmək, dayana bilməmək, dözməmək
**talamaq** – qarət etmək, çalıb-çapmaq, soyub talan etmək
**təkamül** – inkişaf, dəyişmə, yeniləşmə
**təminatçı** – bir şeyin qorunub saxlanmasını, yerinə yetirilməsini, həyata keçirilməsini təmin edən
**təmsil etmək** – birinin müvəkkili olmaq, bir işdə onu əvəz etmək
**tərbiyəedici** – tərbiyə vermək, tərbiyə öyrətmək
**tərgitmək** – adət etdiyi pis və ya zərərli adətdən əl çəkmək
**təsəlli tapmaq** – sakitləşmək, dərdini unutdurmaq
**təşəkkül tapmaq** – formalaşmaq
**tilsim** – sehr, ovsun
**töhfə vermək** – hədiyyə, bəxşiş, ərməğan, pay
**tuş gəlmək** – rast gəlmək, təsadüf etmək, qabağına çıxmaq, rastlaşmaq
**unitar** – birləşmiş, vahid
**uvertüra** – operanın, baletin və s.-nin müqəddiməsi
**ülgüc** – *burada:* müxtəlif alətlərin kəsici tərəfi, bıçağı
**ülviyyət** – yüksəklik, alilik, ucalıq, ülvilik, müqəddəslik
**ümidini kəsmək** – arzusunun, istəyinin həyata keçəcəyinə daha inanmamaq, əlini üzmək
**ün** – səs, səda
**ürək-dirək vermək** – cəsarətləndirmək, ruhlandırmaq
**üzügülər** – güləruz, şən, mehriban
**var-dövlət hərisi** – bir şeyə həddindən artıq can atmaq, istəmək
**vəfasızlıq** – dostluqda, məhəbbətdə sədaqətsizlik, etibarsızlıq
**vəsf etmək** – tərif etmək, təsvir etmək
**vəfat etmək** – ölmək
**viran qoymaq** – dağıtmaq, uçurtmaq, bərbad hala qoymaq, xarabazara döndərmək
**vitrin** – malları və ya müxtəlif şeyləri nümayiş etdirmək üçün mağaza pəncərəsinin arxasında sərgi yeri
**yalman** – atın boynunun üst hissəsində bitən uzun tüklər
**yan almaq** – yanaşmaq, yaxınlaşmaq, yaxın durmaq
**yarımada** – üç tərəfi dəniz, dördüncü tərəfi isə qitəyə bağlı olan yer sahəsi
**yoxsul** – yaşamaq üçün kifayət qədər vəsaiti, imkanı olmayan, ehtiyac içində olan adam, kasıb
**yön** – istiqamət, səmt
**yuxarıdan aşağı baxmaq** – *burada:* lovğalanmaq
**zəbt etmək** – zorla tutmaq, ələ keçirmək, işğal etmək
**zərf** – içərisinə hər hansı bir kağız qoyub harasa göndərmək üçün xüsusi kağız qab
**zərxara** – bər-bəzək, *burada*: inkişaf etmək mənasında
**zərif** – incə, ürəyəyatan
**zirvə** – *burada:* bir şeyin ən yüksək pilləsi, dərəcəsi, nöqtəsi



LAYİHƏ

# İstifadə olunmuş ədəbiyyat


1. Azərbaycan dilinin izahlı lüğəti. 4 cilddə. Bakı, “Şərq-Qərb”, 2013
2. Azərbaycan dilinin sinonimlər lüğəti. Bakı, “Yazıçı”, 1990
3. Azərbaycan dilinin antonimlər lüğəti. Bakı, Bakı, “Şərq-Qərb”, 2007
4. Azərbaycan dilinin orfoqrafiya lüğəti. Bakı, “Şərq-Qərb”, 2006
5. Azərbaycan dilinin dialektologiya lüğəti. Bakı, “Şərq-Qərb”, 2007
6. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, “Qanun”, 2009
7. Ə.Abdullayev, Y.Seyidov, A.Həsənov. “Müasir Azərbaycan dili” (sintaksis). Bakı, “Şərq-Qərb”, 2007
8. “Füyuzat” jurnalı. Bakı, 2013
9. “İşıq” jurnalı, I cild. Bakı, 2012
10. M.Cəlal, P.Xəlilov. “Ədəbiyyatşünaslığın əsasları”. Bakı, “Maarif”, 1988
11. M.Cəfərov, S.Ramizoğlu. “Ağıla və qəlbə işıq saçan sözlər”. Bakı, 2009
12. M.Hüseynzadə. “Müasir Azərbaycan dili”. Bakı, “Şərq-Qərb”, 2007
13. M.İbrahimov. “Seçilmiş əsərləri”, I cild. Bakı, “Şərq-Qərb”, 2005
14. N.Əliyev. “Düşündürən hekayələr”. Bakı, “Libra kitab”, 2019
15. N.Məmmədova, K.Mahmudova, S.Bəhrəmova. “Həyat bilgisi”. 5-ci sinif. Bakı, “Şərq-Qərb”, 2020
16. S.S.Axundov. “Seçilmiş əsərləri”. Bakı, “Şərq-Qərb”, 2005
17. “Ulduz” jurnalı, iyul, 2014
18. Sinifdənxaric oxu. 5-ci sinif. Hədəf nəşrləri, 2015
19. N.Gəncəvi. “Leyli və Məcnun”. “Elm”, 1981
20. Q.Kazımov. “Müasir Azərbaycan dili” (morfologiya). Bakı, “Elm və Təhsil”, 2010
21. Nizaminin hikmət və nəsihətləri. Naxçıvan, 2013
22. Ə.Mirzəzadə. “Tarix və zaman”. Muğan tarixinə dair elmi araşdırma. Bakı, “Elm və Təhsil”, 2017




LAYİHƏ